RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 88 (10108) 20 may 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




## Avropanın Azərbaycan kimi alternativ təchizat mənbəyinə ehtiyacı var

### Prezident İlham Əliyev "Euronews" televiziyasına müsahibə verib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də "Euronews" televiziyasına müsahibə verib.

AZƏRTAC müsahibəni təqdim edir.

2




# Azərbaycanın inkişaf və quruculuq modeli dünya üçün örnəkdir

## Prezident İlham Əliyev "Euronews" televiziyasına müsahibəsində ölkəmizin unikal tərəqqi formulunu və uğurlarını dünyaya təqdim etdi

Prezident İlham Əliyevin müsahibəsində diqqət mərkəzinə gətirilən mühüm məqam Azərbaycanın humanitar və ekoloji platformaların əsas mərkəzinə çevrilməsi reallığıdır. Dövlətimizin başçısı WUF13-ün əhəmiyyətini və Azərbaycanın qlobal arenadakı nüfuzunu belə şərh edib: "Əlbəttə, WUF13-ə evsahibliyi etmək bizim üçün böyük şərəfdir. Burada 182 ölkə təmsil olunur. Bu isə Azərbaycana göstərilən hörmətin bariz nümunəsidir. Bildiyimə görə, iştirakçıların sayı rekord həddə çatıb. Bu da həm mövzunun nə qədər mühüm olduğunu, həm də ev sahibi ölkənin geniş beynəlxalq əlaqələrə malik olduğunu nümayiş etdirir".

Azərbaycan Prezidenti vurğulayıb ki, bu forum indiyədək görülən işlər və gələcək planlar barədə auditoriyaya və beynəlxalq ictimaiyyətə məlumat vermək baxımından da bir fürsətdir: "Çünki iştirak səviyyəsi, dövlət və hökumət başçılarının sayı göstərir ki, bu gün şəhərsalma məsələləri bir çox dünya liderlərinin diqqət yetirdiyi mövzulardan biridir".

Dövlətimizin başçısının bəyan etdiyi kimi, Azərbaycanın WUF13-ə evsahibliyi etməsi ölkəmizin beynəlxalq arenadakı artan nüfuzunun və böyük miqyaslı tədbirləri yüksək səviyyədə təşkil etmək bacarığının növbəti əyani sübutudur. Forumda bu dərəcədə geniş coğrafiyanın və yüksəksəviyyəli rəsmi heyətlərin təmsil olunması mahiyyət etibarilə beynəlxalq birliyin Azərbaycana olan etimadının və hörmətinin göstəricisidir. Ən önəmlisi odur ki, bu platforma ölkəmizin dayanıqlı inkişaf sahəsində qazandığı uğurları və gələcək vizyonunu dünya ictimaiyyətinə təqdim etmək baxımından əvəzsizdir. Forum çərçivəsində Azərbaycan indiyədək reallaşdırdığı genişmiqyaslı layihələri nümayiş etdirir, həmçinin xarici tərəfdaşların qabaqcıl təcrübəsindən faydalanmaq imkanı qazanır.

Müsahibədə şəhərlərin gələcək inkişaf konseptinə toxunan ölkə rəhbəri urbanizasiya prosesində milli-memarlıq ənənələrinin qorunmasının vacibliyini önə çıxarıb. Azərbaycanın bu sahədəki yanaşması ondan ibarətdir ki, müasirləşmə və texnoloji yeniliklər şəhərlərin tarixi simasını, mədəni irsini kölgədə qoymamalıdır. Əksinə, tarixi-memarlıq irsinin qorunması ilə müasir infrastruktur quruculuğu bir-biri ilə harmoniya təşkil etməlidir.

9

## Prezident İlham Əliyevin sosial şəbəkə hesablarında WUF13-ün açılış mərasimi ilə bağlı videoçarx paylaşılıb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sosial şəbəkə hesablarında BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) açılış mərasimi ilə bağlı videoçarx paylaşılıb.

AZƏRTAC paylaşımı təqdim edir.

**https://video.azertag.az/site/video/317259**

## Liderlərin şəxsi əlaqələri Azərbaycan ilə Belarus arasında əməkdaşlığın inkişafına töhfə verir

### Prezident İlham Əliyev Belarus Milli Assambleyası Nümayəndələr Palatasının Sədrini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Belarus Respublikası Milli Assambleyası Nümayəndələr Palatasının Sədri İqor Sergeyenkonu qəbul edib.

2

## ASAN modelinin yaradılması ilə əlaqədar Azərbaycan Mavrikiyə dəstək verməyə və təcrübəsini bölüşməyə hazırdır

### Prezident İlham Əliyev Mavriki Prezidenti ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Mavriki Respublikasının Prezidenti Daramber Qoxul ilə görüşüb.

2

## Slovakiya hər zaman Azərbaycanın yanındadır

### Prezident İlham Əliyev Slovakiya Baş nazirinin müavinini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Slovakiya Respublikasının Baş nazirinin müavini, ətraf mühit naziri Tomaş Tarabanı qəbul edib.

2

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

# Avropanın Azərbaycan kimi alternativ təchizat mənbəyinə ehtiyacı var

## Prezident İlham Əliyev "Euronews" televiziyasına müsahibə verib

Əvvəli 1-ci səh.

*Müxbir: Cənab Prezident, hər zaman olduğu kimi, Sizi yenidən görməyə çox şadıq. 182 ölkədən 40 mindən çox iştirakçı. Bu, COP29-dan sonra Azərbaycanda keçirilən ikinci ən böyük tədbirdir. WUF13-ə evsahibliyi etmək Azərbaycanın dayanıqlı şəhərsalmanın gələcəyinin formalaşdırılmasında beynəlxalq roluna hansı töhfəni verir?*

**Prezident İlham ƏLİYEV:** Əlbəttə, WUF13-ə evsahibliyi etmək bizim üçün böyük şərəfdir. Burada 182 ölkə təmsil olunur. Bu isə Azərbaycana göstərilən hörmətin bariz nümunəsidir. Bildiyimə görə, iştirakçıların sayı rekord həddə çatıb. Bu da həm mövzunun nə qədər mühüm olduğunu, həm də ev sahibi ölkənin geniş beynəlxalq əlaqələrə malik olduğunu nümayiş etdirir.

Təbii ki, bu forum bizim üçün indiyədək görülən işlər, gələcək planlarımız barədə auditoriyaya və beynəlxalq ictimaiyyətə məlumat vermək, eyni zamanda tərəfdaşlarımızın təcrübəsindən yararlanmaq baxımından da bir fürsətdir. Çünki iştirak səviyyəsi, dövlət və hökumət başçılarının sayı göstərir ki, bu gün şəhərsalma məsələləri bir çox dünya liderlərinin diqqət yetirdiyi mövzulardan biridir. Mən çıxışımda da qeyd etdiyim kimi, tarixi və memarlıq irsinin qorunması ilə şəhərlərin müasirləşdirilməsi bir-biri ilə uzlaşmalıdır.

*Müxbir: Aydındır ki, Azərbaycan Qarabağda və Şərqi Zəngəzurda "ağıllı şəhər" və "yaşıl enerji" layihələrini təqdim edib. Bunlar münaqişədən sonrakı dövrdə yenidən qurulan ərazilərdir. Sizcə, bu layihələr qlobal şəhər innovasiyalarına necə töhfə verə bilər? Başqalarının təcrübəsindən faydalanmaqdan danışdınız, bəs, onlar sizdən nə öyrənə bilər?*

**Prezident İlham ƏLİYEV:** Düşünürəm ki, biz bu günədək şəhər və kəndlərin sıfırdan qurulması ilə bağlı misilsiz təcrübə formalaşdırmışıq. Təəssüf ki, işğal altında olmuş ərazilərin genişmiqyaslı dağıntılara məruz qalması bizi buna vadar etdi. Mərhələli yanaşma, bəzi hallarda isə paralel inkişaf nəticəsində beş ilə artıq 85 min insanın doğma torpaqlarına qayıdışını təmin etmişik.

İlk növbədə, elektrik enerjisi məsələsi həll olundu. Bu günədək 307 meqavatlıq hidroenerji gücü istifadəyə verilib, hazırda 340 meqavat gücündə günəş enerjisi layihələri isə inşa edilir. Bu həcm yalnız Qarabağ və Şərqi Zəngəzur üçün deyil, daha geniş ərazilər üçün də kifayət edəcək. Bununla yanaşı, elektrik şəbəkəsinin ölkənin ümumi enerji sistemi ilə inteqrasiyası təmin olunub. Ümumi uzunluğu 75 kilometr olan tunellərin 70 kilometri artıq istifadəyə verilib, 500 körpüdən 435-i artıq tikilib.

Dəmir yolları, məktəblər, xəstəxanalar - bütün bu işlər paralel şəkildə həyata keçirilir. Yenidənqurmanın ilk illərində əsas sərmayəni infrastrukturun yaradılmasına yatırmışdıq. Hazırda isə əsas sərmayələrimiz yaşayış sahələrinin tikintisinə yönəldilib - şəhərlərin baş planları, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları üzrə layihələr həyata keçirilir. Hər bir kənd üzrə planlar icra edilir. Beləliklə, hesab edirəm ki, bizim təcrübəmiz bənzər problemlərlə üzləşmiş ölkələrə yenidənqurma üçün bir nümunə ola bilər.




*Müxbir: Yəni dünyanın digər ölkələri üçün bir model rolunu oynaya bilər ki, bu da gözəl haldır. Azərbaycan bu gün Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verən ölkələrdən birinə çevrilib. Avropa enerji mənbələrini şaxələndirdiyi bir dövrdə Azərbaycanın rolunun necə inkişaf edəcəyini görürsünüz?*

**Prezident İlham ƏLİYEV:** Biz Avropa ilə enerji sahəsində əməkdaşlığa müəyyən müddət əvvəl başlamışıq. Xüsusilə 2020-ci ildən sonra - "Cənub qaz dəhlizi"nin istifadəyə verilməsi ilə bu proses daha da sürətlənib. Hazırda həmin dəhliz vasitəsilə 16 ölkəyə təbii qaz ixrac olunur. Boru kəmərləri vasitəsilə qaz tədarük etdiyimiz ölkələrin sayına görə biz dünyada birinci yerdəyik. Bu rəqəm artmaqdadır. Avropa İttifaqının 10 üzv dövləti bizim müştərimizdir. Ümumilikdə isə 12 Avropa ölkəsi Azərbaycandan qaz alır. Ölkələrin sayı artır. Bizimlə əməkdaşlığa başlamaq istəyən ölkələrin müraciətlərinin sayı da artmaqdadır.

Xoşbəxtlikdən biz boru kəməri infrastrukturu və hasilat sahəsində ev tapşırığımızı vaxtında həyata keçirmişik. Hazırda istehsal səviyyəsi artmaqdadır. Tezliklə, yəqin ki, gələn ayın əvvəlində yeni yataqdan qaz hasilatına başlanılması ilə bağlı məlumat verəcəyik. Burada qarşılıqlı faydaya əsaslanan əməkdaşlıq mövcuddur. Bizim premium bazara ehtiyacımız var, o da Avropadır. Avropanın isə Azərbaycan kimi alternativ təchizat mənbəyinə ehtiyacı var. Beləliklə, biz səylərimizi birləşdirdik və Avropa Komissiyası ilə çox səmərəli əməkdaşlıq qurduq.

*Müxbir: Təşəkkür edirəm. Siz həm regionda, həm onun hüdudlarından kənarda diplomatiya və sabitliyin fəal tərəfdarlarından olmusunuz. Hazırda Hörmüz böhranı regional və qlobal iqtisadiyyata təsir göstərir. Azərbaycan bu vəziyyətə necə yanaşır və bunun öhdəsindən necə gəlir?*

**Prezident İlham ƏLİYEV:** Təchizat zənciri baxımından bu böhran bizə ciddi təsir göstərmir. Çünki enerji təchizatı və marşrutların şaxələndirilməsi siyasəti bizim üçün bu günün məsələsi deyil. Bu siyasət uzun illərdir həyata keçirilir və tərəfdaşlarımız, eləcə də qonşu ölkələrlə birlikdə neft, qaz, elektrik enerjisi və nəqliyyat bağlılığı üzrə şaxələndirilmiş təchizat sistemi formalaşdırmağa nail olmuşuq.

Əlbəttə, Yaxın Şərqdə baş verən hadisələr müəyyən dərəcədə hər kəsə təsir edir. Bəziləri yüksək neft qiymətlərinin faydalı ola biləcəyini düşünə bilər. Bəli, elədir. Ancaq eyni zamanda neft ehtiyatları ilə zəngin olan ölkələrin bir çoxu öz vəsaitlərini istiqrazlara yatırır, bir çoxu isə səhm bazarlarına investisiya edir. Belə qeyri-sabitlik baş verdiyi vaxt fond bazarları aşağı düşür. Nəticədə biz yüksək neft qiymətlərindən müəyyən gəlir əldə etsək də, bazarlarda investisiyalarımızda itki baş verir. Beləliklə, bu, hər kəsə təsir edir.

Lakin öz enerji layihələrimiz baxımından biz təhlükəsiz mövqedəyik. Siz də qeyd etdiyiniz kimi, biz daim diplomatiyanın tərəfdarıyıq. Diplomatiya olmadan biz öz ehtiyatlarımızı bazarlara çıxara bilməzdik. Çünki bunun üçün digər ölkələrin ərazisindən keçmək, qonşularla və qonşuların qonşuları ilə yaxşı münasibətlər qurmaq, çoxtərəfli əməkdaşlıq formatı formalaşdırmaq, istehsalçılar, tranzit ölkələr və istehlakçılar arasında qarşılıqlı uduşlu vəziyyət yaratmaq lazım idi ki, hər kəs qaydalara əməl etsin və gəlir qazansın.

Bu baxımdan düşünürəm ki, Azərbaycanın təcrübəsi faydalı ola bilər. Böhran həll olunduqdan sonra, - bu, tez və ya gec baş verəcək, - yəqin ki, yeni bir vəziyyət yaranacaq. Bir çox ölkələr enerji siyasətlərini və enerji ehtiyatlarının çatdırılması yollarını yenidən nəzərdən keçirəcəklər. Çox güman ki, Azərbaycanın coğrafiyası və mövcud resursları bu gün olduğundan daha çox tələb olunacaq.

*Müxbir: Cənab Prezident, Sizinlə söhbət etmək həmişə böyük məmnuniyyətdir.*

**Prezident İlham ƏLİYEV:** Təşəkkür edirəm. Sizi yenidən Azərbaycanda görməkdən məmnunam.

*Müxbir: Geri qayıtmaq həmişə çox xoşdur. Müsahibəyə görə təşəkkür edirəm.*

# Liderlərin şəxsi əlaqələri Azərbaycan ilə Belarus arasında əməkdaşlığın inkişafına töhfə verir

### Prezident İlham Əliyev Belarus Milli Assambleyası Nümayəndələr Palatasının Sədrini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Belarus Respublikası Milli Assambleyası Nümayəndələr Palatasının Sədri İqor Sergeyenkonu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Belarusun Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında (WUF13) yüksəksəviyyəli nümayəndə heyəti ilə iştirak etdiyini dedi.

Sıx dostluğa əsaslanan Azərbaycan-Belarus münasibətlərinin inkişafından məmnunluğunu bildirən Prezident İlham Əliyev bütün sahələr üzrə fəal əməkdaşlığın həyata keçirildiyini vurğuladı. Bu xüsusda parlamentlərarası formatın əhəmiyyəti qeyd edildi. Ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlığa toxunan dövlətimizin başçısı birgə layihələrin uğurla icra olunduğunu dedi.

Qəbula görə minnətdarlığını bildirən İqor Sergeyenko Belarus Prezidenti Aleksandr Lukaşenkonun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Aleksandr Lukaşenkoya çatdırmağı xahiş etdi.

Qonaq vurğuladı ki, Azərbaycan və Belarus liderlərinin şəxsi əlaqələri ölkələrimizin qurumları arasında əməkdaşlığın inkişafına töhfə verir.

İqor Sergeyenko Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının açılışında iştirak etdiyini deyərək, burada şəhərsalmanın mühüm istiqamətləri üzrə müzakirələrin aparıldığını vurğuladı. Qeyd etdi ki, nüfuzlu beynəlxalq tədbirlərin keçirilməsi ilə bağlı zəngin təcrübəsi olan Azərbaycanda WUF13 də yüksək səviyyədə təşkil edilib.

Söhbət zamanı münasibətlərimizin müxtəlif sahələrdə inkişafı perspektivləri müzakirə edildi, hər iki ölkənin qanunverici orqanları arasında əməkdaşlığın genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

# ASAN modelinin yaradılması ilə əlaqədar Azərbaycan Mavrikiyə dəstək verməyə və təcrübəsini bölüşməyə hazırdır

### Prezident İlham Əliyev Mavriki Prezidenti ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Mavriki Respublikasının Prezidenti Daramber Qoxul ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, WUF13 tədbirində iştirak etdiyinə görə Mavriki Prezidentinə təşəkkürünü bildirən dövlətimizin başçısı onun səfərinin ikitərəfli əlaqələrin inkişafı ilə bağlı müzakirələr aparmaq baxımından da yaxşı imkan yaratdığını dedi.

Prezident İlham Əliyev siyasi münasibətlərimizin səviyyəsindən məmnunluğunu bildirdi.

Mavriki Prezidenti bu tədbirə dəvətə görə dövlətimizin başçısına təşəkkür etdi. Daramber Qoxul ikitərəfli əlaqələrimizin müxtəlif aspektlərini müzakirə etmək baxımından da səfərinin roluna toxundu.

Bakıya səfəri çərçivəsində "ASAN xidmət" mərkəzini ziyarət etdiyini deyən Mavriki Prezidenti oradakı şəraitin onda zəngin təəssürat hissi yaratdığını bildirdi və ölkəsində də bu cür təcrübənin tətbiqində maraqlı olduğunu vurğuladı.

ASAN modelinin yaradılması ilə əlaqədar Azərbaycanın müxtəlif dövlətlərlə əməkdaşlıq etdiyini deyən Prezident İlham Əliyev bildirdi ki, bu xüsusda ölkəmiz Mavrikiyə də dəstək verməyə və təcrübəsini bölüşməyə hazırdır.

Qonaq WUF13 kimi qlobal səviyyəli tədbirin Azərbaycanda keçirilməsinin önəmini vurğuladı.

Daramber Qoxul Mavrikidən olan tələbələrə verilmiş təhsil təqaüdləri ilə bağlı Azərbaycan Prezidentinə təşəkkürünü bildirdi, gələcəkdə bunun daha da artırılması imkanlarına baxılmasını xahiş etdi.

Görüşdə ölkələrimizin beynəlxalq təşkilatlarda əməkdaşlığına toxunuldu, müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin və təmasların tərəfdaşlığın genişləndirilməsi baxımından rolu vurğulandı. İqtisadiyyat, sərmayələr, enerji, o cümlədən bərpaolunan enerji, turizm və digər sahələrdə əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.

# Slovakiya hər zaman Azərbaycanın yanındadır

### Prezident İlham Əliyev Slovakiya Baş nazirinin müavinini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Slovakiya Respublikasının Baş nazirinin müavini, ətraf mühit naziri Tomaş Tarabanı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı özünün ötən il Slovakiyaya, Baş nazir Robert Fitsonun isə ölkəmizə səfərlərini xatırladaraq, son dövrlərdə Slovakiyadan yüksəksəviyyəli nümayəndə heyətlərinin Azərbaycana gəldiklərini qeyd etdi və vurğuladı ki, bu, ölkələrimiz arasında fəal əməkdaşlığın həyata keçirildiyini göstərir. Prezident İlham Əliyev Azərbaycanla Slovakiya arasında mövcud dostluğu və tərəfdaşlığı yüksək qiymətləndirərək, əməkdaşlığın səviyyəsindən məmnun olduğunu dedi.

Qonaqpərvərliyə görə minnətdarlığını bildirən Tomaş Taraba qeyd etdi ki, Slovakiya hər zaman Azərbaycanın yanındadır. O, ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü daim dəstəklədiyini vurğuladı.

Slovakiya Baş nazirinin müavini dedi ki, ölkəsinə qaz lazım olduqda Azərbaycan etibarlı təchizatçı olub.

Tomaş Taraba Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının Azərbaycanda keçirilməsinin önəminə də toxundu.

Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev hazırda Azərbaycanın 12 Avropa ölkəsini, o cümlədən Avropa İttifaqının 10 üzv dövlətini qazla təchiz etdiyini dedi, gələcəkdə bu rəqəmin artmasının mümkünlüyünü vurğuladı.

Görüşdə ikitərəfli münasibətlərimizin strateji tərəfdaşlıq xarakteri daşıdığı qeyd edildi, əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

## "Məhkəmə aktlarının, digər səlahiyyətli orqanların və vəzifəli şəxslərin aktlarının məcburi icrası həyata keçirilərkən məlumat mübadiləsi üzrə əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2025-ci il 26 iyun tarixində imzalanmış "Məhkəmə aktlarının, digər səlahiyyətli orqanların və vəzifəli şəxslərin aktlarının məcburi icrası həyata keçirilərkən məlumat mübadiləsi üzrə əməkdaşlıq haqqında Saziş"təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2026-cı il*

## "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında 2002-ci il 7 oktyabr tarixli Konvensiyaya dəyişikliklərin edilməsi barədə Protokol"un təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2025-ci il 26 iyun tarixində imzalanmış "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında 2002-ci il 7 oktyabr tarixli Konvensiyaya dəyişikliklərin edilməsi barədə Protokol" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2026-cı il*

## "Bir tərəfdən Azərbaycan Respublikası Hökuməti ilə digər tərəfdən Bolqarıstan Respublikası Hökuməti və Veliko Tırnovo Bələdiyyəsi arasında Bolqarıstan Respublikasının Veliko Tırnovo şəhərində "Şuşa Parkı"nın salınması və yenidən qurulması üzrə əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2026-cı il fevralın 11-də Sofiya şəhərində imzalanmış "Bir tərəfdən Azərbaycan Respublikası Hökuməti ilə digər tərəfdən Bolqarıstan Respublikası Hökuməti və Veliko Tırnovo Bələdiyyəsi arasında Bolqarıstan Respublikasının Veliko Tırnovo şəhərində "Şuşa Parkı"nın salınması və yenidən qurulması üzrə əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Nazirlər Kabineti onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Bolqarıstan Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 may 2026-cı il*

## S.X.Rüstəmxanlının "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətlərinə görə Sabir Xudu oğlu Rüstəmxanlı "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 may 2026-cı il*

## "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında 1993-cü il 22 yanvar tarixli Konvensiyaya dəyişikliklərin edilməsi barədə Protokol"un təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2025-ci il 26 iyun tarixində imzalanmış "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında 1993-cü il 22 yanvar tarixli Konvensiyaya dəyişikliklərin edilməsi barədə Protokol" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2026-cı il*

## Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 16-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Əmək Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213 (Cild I); 2024, № 1, maddə 6, № 4, maddə 365, № 7, maddə 744, № 8, maddə 934; 2025, № 1, maddələr 1, 16, № 2, maddə 96,№ 4 (I kitab), maddə 322, № 7, maddələr 606, 608; 2026, № 1, maddələr 8, 16; Azərbaycan Respublikasının 2026-cı il 13 fevral tarixli 354-VIIQD nömrəli, 27 fevral tarixli 367-VIIQD nömrəli və 3 mart tarixli 376-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 12-ci maddənin 2-ci hissəsində "qanunvericiliklə" sözü "qanunla" sözü ilə əvəz edilsin və həmin hissədən "müvafiq" sözü çıxarılsın;

1.2. 48-ci maddəyə aşağıdakı məzmunda 5-2-ci və 5-3-cü hissələr əlavə edilsin:

"5-2. Siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən narkoloji xəstələr üçün fəaliyyət məhdudiyyəti nəzərdə tutulmuş peşə növlərinə və vəzifələrə işə qəbul edilərkən işçilər dövlət narkoloji tibb müəssisəsi tərəfindən verilmiş tibbi müayinə (tibbi yoxlama) haqqında rəy təqdim etməlidirlər.

5-3. Bu maddənin 5-ci hissəsinin birinci abzasının birinci cümləsində nəzərdə tutulmuş arayış və 5-2-ci hissəsində nəzərdə tutulmuş rəy olmadan işçinin müvafiq peşə və vəzifəyə işə qəbul edilməsi qadağandır.";

1.3. 74-cü maddənin 1-ci hissəsinin "f" bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və həmin hissəyə aşağıdakı məzmunda "g" və "ğ" bəndləri əlavə edilsin:

"g) tibbi müayinə (tibbi yoxlama) haqqında rəyə əsasən narkoloji xəstə olan şəxslə narkoloji xəstələr üçün fəaliyyət məhdudiyyəti nəzərdə tutulmuş peşə növlərinə və vəzifələrə işə qəbul edilməsi ilə bağlı əmək müqaviləsinin bağlanıldığı aşkar edildikdə və ya belə peşə növləri və vəzifələr üzrə əmək münasibətləri dövründə tibbi müayinə (tibbi yoxlama) zamanı şəxsin narkoloji xəstə olması müəyyən edildikdə;

ğ) işçinin səhhətinə, sağlamlığına mənfi təsir göstərən amillər olan ağır, zərərli və təhlükəli əmək şəraitli iş yerlərində, habelə əhalinin sağlamlığının mühafizəsi məqsədilə qida sənayesi, ictimai iaşə, səhiyyə, ticarət və bu qəbildən olan digər iş yerlərində sağlamlıq haqqında tibbi arayışı olmayan şəxslə əmək müqaviləsinin bağlanıldığı aşkar edildikdə, belə şəxslərin əməyindən istifadə olunmasına yol verilməyən hallarda.";

1.4. 226-cı maddəyə aşağıdakı məzmunda 1-1-ci hissə əlavə edilsin:

"1-1. Narkoloji xəstələr üçün fəaliyyət məhdudiyyəti nəzərdə tutulmuş peşə növlərinə və vəzifələrə işə qəbul edilməsi ilə bağlı işçilərlə əmək müqaviləsi bağlanılarkən onların ilkin tibbi müayinədən (tibbi yoxlamadan), sonralar isə vaxtaşırı, habelə əmək funksiyasını yerinə yetirməsi zamanı davranışında insan psixikasına təsir göstərən maddənin təsiri altında olmasına əsaslı şübhələr yarandığı halda əsaslandırılmaqla dərhal tibbi müayinədən (tibbi yoxlamadan) keçməsi işəgötürənin hesabına təmin edilməlidir. Həmin şəxslər tibbi müayinədən (tibbi yoxlamadan) "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçirlər.".

**Maddə 2.** "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 577 (Cild I); 2026, № 1, maddə 16) 24.3-cü maddəsinin birinci cümləsinə "olmayaraq" sözündən sonra ", habelə əmək funksiyasını yerinə yetirməsi zamanı davranışında insan psixikasına təsir göstərən maddənin təsiri altında olmasına əsaslı şübhələr yarandığı halda əsaslandırılmaqla dərhal" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 aprel 2026-cı il*




## "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 149-cu kitabı çapdan çıxıb

"Azərbaycan Cənubi Qafqazda yerləşsə də, bu gün fəal qarşılıqlı fəaliyyət sayəsində Mərkəzi Asiya və Azərbaycan artıq qlobal miqyasda nüfuzu əhəmiyyətli dərəcədə artan vahid geosiyasi və geoiqtisadi regiondur.

Biz müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edir, bir-birimizin təşəbbüslərini dəstəkləyir, qlobal və regional problemlərin həllində ümumi yanaşmalar işləyib hazırlayırıq.

Ölkəmiz öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi üzrə genişmiqyaslı işlərə başlayıb. Biz bu məsələdə Mərkəzi Asiya ölkələrinin Azərbaycana göstərdiyi qardaş dəstəyini yüksək qiymətləndiririk".

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin çapdan yeni çıxmış 149-cu kitabında yer alan bu fikirləri dövlətimizin başçısı 2025-ci il noyabrın 16-da Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə çıxışı zamanı söyləyib.

Çoxcildliyin bu kitabında toplanmış materiallar 2025-ci ilin noyabrından 2026-cı ilin yanvar ayınadək olan dövrü əhatə edir.

Bu nəşrə Prezident İlham Əliyevin Özbəkistan Respublikasına səfərinə, Prezident Şavkat Mirziyoyev ilə görüşünə, İslam Sivilizasiyası Mərkəzi ilə tanışlığına, Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə iştirakına dair materiallar daxil edilib. Yeni kitabda Azərbaycan Prezidentinin Özbəkistanın Milli İnformasiya Agentliyinə (UzA) müsahibəsinin mətni də verilib.

Azərbaycan Prezidentinin Slovakiyaya, Birləşmiş Ərəb Əmirliklərinə səfərləri haqqında informasiyalar da bu cilddə yer alıb.

Oxucular yeni kitabda Prezident İlham Əliyevin ötən ilin noyabr ayında NATO-nun nümayəndə heyətini, bu ilin yanvar ayında ABŞ nümayəndə heyətini qəbul etməsi haqqında informasiyalarla da tanış ola bilərlər.

Azərbaycan Prezidenti ötən il Vətən müharibəsində Qələbənin 5-ci ildönümü münasibətilə Ümummilli Lider Heydər Əliyevin məzarını, Şəhidlər xiyabanını, Zəfər abidəsini ziyarət edib və Zəfər muzeyinin açılış mərasimində iştirak edib. Prezident İlham Əliyev Vətən müharibəsində Qələbənin 5-ci ildönümünə həsr olunmuş Hərbi paradda çıxış edib. Bütün bunlar haqqında materiallar 149-cu kitabda toplanıb.

Dövlətimizin başçısı ötən ilin dekabrında Qarabağ bölgəsinə səfər edib, Kərkicahan qəsəbəsindəki 1 nömrəli tam orta məktəb binasının əsaslı təmirdən sonra açılış mərasimində, Qarabağ Universitetinin Biznes və iqtisadiyyat fakültəsinin yeni inşa olunmuş binasının açılışında iştirak edib, Kərkicahan qəsəbəsinə köçən sakinlərlə görüşüb, Qarabağ Universitetinin Mühəndislik fakültəsinin binasının təməlini qoyub. Prezident Qarabağa səfəri zamanı Xankəndi şəhərində Zəfər parkının açılış mərasimində, Ağdam şəhərində 2-ci yaşayış kompleksinin açılışında iştirak edib və buraya köçən sakinlərlə görüşüb. Bütün bunlar haqqında informasiyalar yeni kitabda verilib.

Oxucular bu kitabda Azərbaycan Prezidentinin ölkəmizdə keçirilən beynəlxalq tədbirlərin iştirakçılarına müraciətləri ilə də tanış ola bilərlər. Kitaba Azərbaycan Prezidentinin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciətinin, Milad bayramı münasibətilə Azərbaycanın Pravoslav xristian icmasına təbrikinin mətnləri də daxil edilib.

Çoxcildliyin buraxılışına məsul "Azərnəşr"in baş redaktoru Əlövsət Ağalarovdur.

Bu cildin hazırlanmasında da Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

## "Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 27 aprel tarixli 394-VIIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 27 aprel tarixli 394-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 48-ci maddəsinin 5-2-ci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 48-ci maddəsinin 5-2-ci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1.üç ay müddətində:

2.1.1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 3 yanvar tarixli 1 nömrəli Qərarı ilə təsdiq edilmiş "İşçinin səhhətinə, sağlamlığına mənfi təsir göstərən amillər olan ağır, zərərli və təhlükəli əmək şəraitli iş yerlərində, habelə əhalinin sağlamlığının mühafizəsi məqsədi ilə qida sənayesi, ictimai iaşə, səhiyyə, ticarət və bu qəbildən olan digər iş yerlərində əmək müqaviləsi bağlanılarkən işçilərin sağlamlığı haqqında tibbi arayış tələb olunan peşələrin (vəzifələrin) iş yerlərinin Siyahısı"nın"Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 27 aprel tarixli 394-VIIQD nömrəli Qanununun tələbləri nəzərə alınmaqla təkmilləşdirilməsinə dair zəruri tədbirlər görüb Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 12 sentyabr tarixli 145 nömrəli Qərarı ilə təsdiq edilmiş "Narkoloji xəstələr üçün fəaliyyət məhdudiyyəti nəzərdə tutulmuş peşə növlərinin və vəzifələrin Siyahısı və məhdudiyyətin müddəti"ndə narkoloji xəstələr üçün məhdudiyyətin müddətinin müvafiq peşə növləri və vəzifələr üzrə təkmilləşdirilməsinə dair zəruri tədbirlər görüb Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 27 aprel tarixli 394-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 231 (Cild I); 2024,№ 6 (I kitab), maddə 654, № 8, maddə 943; 2025, № 2, maddə 124, № 7, maddə 641; 2026, № 1, maddə 32, № 2, maddə 124; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 29 aprel tarixli 655 nömrəli Fərmanı) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. ikinci abzasa "e" bəndində," sözlərindən sonra "48-ci maddəsinin 5-2-ci hissəsində," sözləri əlavə edilsin;

3.2. altıncı abzasa "maddəsində," sözündən sonra" 48-ci maddəsinin 5-2-ci hissəsində," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 may 2026-cı il*

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

# Milli Məclisin Sədri Sahibə Qafarova Belarus Milli Assambleyası Nümayəndələr Palatasının Sədri ilə görüşüb

Milli Məclisin Sədri Sahibə Qafarova mayın 19-da ölkəmizdə səfərdə olan Belarus Respublikası Milli Assambleyası Nümayəndələr Palatasının Sədri İqor Sergeyenko ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Belarus Milli Assambleyası Nümayəndələr Palatasının Sədri əvvəlcə Milli Məclisin plenar iclas zalı ilə tanış olub. Sonra tərəflər arasında təkbətək görüş keçirilib.

Daha sonra Ulu Öndər Heydər Əliyevin adını daşıyan xatirə zalına gələn qonaqlar burada Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin həyatının və siyasi fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən eksponatlarla tanış olublar. Belarus Milli Assambleyası Nümayəndələr Palatasının Sədri İqor Sergeyenko buradakı Xatirə kitabına ürək sözlərini yazıb.

Sonra tərəflər arasında geniş tərkibdə görüş olub.

Bu səfərin qonağın Azərbaycana ilk rəsmi səfəri olduğunu vurğulayan spiker Belarus Milli Assambleyası Nümayəndələr Palatasının Sədrinin Prezident İlham Əliyevlə görüşdüyünü xatırladıb. Qarşılıqlı münasibətlərin inkişafında iki ölkənin dövlət başçıları arasında yüksəksəviyyəli münasibətlərin mühüm rolundan danışan spiker Sahibə Qafarova ali və yüksək səviyyədə həyata keçirilən qarşılıqlı səfərlərin və imzalanan sənədlərin əlaqələrin daha da dərinləşməsini təmin etdiyini diqqətə çatdırıb. Ölkələrimizin beynəlxalq təşkilatlarda da uğurla əməkdaşlıq etdiyi, beynəlxalq platformalarda bir sıra məsələlərdə bir-birinə qarşılıqlı dəstək verdiyi də nəzərə çatdırılıb. Söhbət zamanı dövlətlərimiz arasında münasibətlərin vacib bir sahəsini təşkil edən parlamentlərimizin əlaqələrinin də indiki səviyyəsindən razılıq bildirilib. Qanunverici orqanlarımızın həm ikitərəfli əsasda, həm də beynəlxalq parlament təşkilatlarında uğurla əməkdaşlıq etdiyi qeyd olunub. Görüşdə vurğulanıb ki, parlamentlərimiz arasında imzalanmış əməkdaşlıq haqqında Anlaşma Memorandumu qanunverici orqanlarımız arasında əlaqələrin inkişafına mühüm töhfə verib.

Qonaqpərvərliyə görə təşəkkürünü bildirən İqor Sergeyenko Prezident İlham Əliyevin WUF13 konfransının açılış mərasimindəki çıxışında şəhərsalma sahəsində vacib məsələlərə toxunduğunu diqqətə çatdırıb. Qonaq bu tədbirin mühüm əhəmiyyət daşıdığını və WUF13 çərçivəsində müasir dövrün ən aktual məsələlərindən olan urbanizasiya problemlərinin geniş müzakirə olunduğunu qeyd edib.

Söhbət zamanı qonaq parlamentlərarası əməkdaşlıq, qanunvericilik sahəsində təcrübə mübadiləsi, beynəlxalq parlament təşkilatlarında birgə fəaliyyət və digər məsələlər barədə fikirlərini bölüşüb.

Görüşdə qarşılıqlı maraq doğuran digər mövzularda da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Belarus Milli Assambleyasının Nümayəndələr Palatasının Sədri Fəxri xiyabanı və Zəfər parkını ziyarət edib

Ölkəmizdə rəsmi səfərdə olan Belarus Respublikası Milli Assambleyasının Nümayəndələr Palatasının Sədri İqor Sergeyenkonun başçılıq etdiyi nümayəndə heyəti mayın 19-da Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub, tər çiçəklər düzüb.






Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın da məzarı ziyarət edilib, önünə tər güllər düzülüb.

Səfər çərçivəsində nümayəndə heyəti Bakıda Zəfər parkını ziyarət edərək abidə önünə əklil qoyub. Qonaqlara Azərbaycan xalqının Vətən müharibəsində qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə məlumat verilib. Ziyarət zamanı nümayəndə heyətini Milli Məclis Sədrinin müavini Ziyafət Əsgərov, Milli Məclisin Belarusla parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri Ziyad Səmədzadə və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova və Belarus Milli Assambleyası Nümayəndələr Palatasının Sədri İqor Sergeyenko mətbuata bəyanatla çıxış ediblər

Milli Məclisin Sədri Sahibə Qafarova və Belarus Milli Assambleyası Nümayəndələr Palatasının Sədri İqor Sergeyenko ikitərəfli görüşdən sonra mətbuata bəyanatla çıxış ediblər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, İqor Sergeyenkonun hazırda Azərbaycanda rəsmi səfərdə olmaqla yanaşı, həm də Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasında Belarus Respublikasını təmsil etdiyini və forumun açılış mərasimində iştirak etdiyini söyləyən spiker Sahibə Qafarova deyib ki, bu da, əslində, Azərbaycan-Belarus münasibətlərinin mahiyyətini açıq şəkildə nümayiş etdirən bir məqamdır. Onun sözlərinə görə, Azərbaycan Prezidenti İlham Əliyevin də qeyd etdiyi kimi, bu münasibətlər zamanın sınağından çıxıb və Belarus ilə Azərbaycanın etibarlı dost olmaları heç kimdə şübhə doğurmur.

İki ölkə arasındakı münasibətlərin səmimi dostluq, konstruktiv dialoq, qarşılıqlı etimad və dəstək əsasında bütün istiqamətlər üzrə ardıcıl surətdə genişləndiyini və artıq strateji tərəfdaşlıq xarakteri daşıdığını bildirən Milli Məclisin Sədri, dövlət başçıları arasındakı dostluq münasibətlərinin, ali səviyyəli qarşılıqlı səfərlərin və görüşlərin əlaqələrin inkişafındakı rolunu xüsusilə vurğulayıb. Qeyd olunub ki, Azərbaycan Prezidenti İlham Əliyevin Belarusa, Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana rəsmi və işgüzar səfərləri həyata keçirilib. Aleksandr Lukaşenkonun 2024-cü ilin mayında Azərbaycana dövlət səfəri, aparılmış danışıqlar və imzalanmış sənədlər isə əlaqələrin inkişafına yeni təkan verib. Belarus Prezidenti həmin səfər çərçivəsində işğaldan azad olunmuş torpaqlarımızda - Şuşada və Füzulidə olub, bu ərazilərdə aparılan bərpa işləri ilə yaxından tanış olub. Həmçinin, Aleksandr Lukaşenko 2024-cü ilin noyabrında Bakıda keçirilmiş COP29-da da iştirak edib.

Spiker Sahibə Qafarova məmnunluqla qeyd edib ki, parlamentlərarası əlaqələrimiz də ölkələrimiz arasındakı münasibətlərin hazırkı səviyyəsinə uyğundur. O, 2024-cü ilin iyununda Belarusa rəsmi səfərini və keçirdiyi görüşləri, o cümlədən Prezident Aleksandr Lukaşenko ilə görüşünü, həmçinin ötən ilin fevralında Belarus Respublikası Milli Assambleyası Respublika Şurasının Sədri Natalya Koçanovanın Azərbaycana rəsmi səfərini xatırladaraq, deyib ki, parlamentlərimizin rəhbərləri səviyyəsində həyata keçirilən bütün bu səfərlər və görüşlər əlaqələrimizin mövcud səviyyəsinin bir göstəricisidir. Bu gün parlamentlərimizdə fəaliyyət göstərən dostluq qrupları müntəzəm olaraq təmasdadırlar. Deputatlarımız qarşılıqlı olaraq həm Azərbaycanda, həm də Belarusda təşkil olunan tədbirlərdə təmsil olunurlar.



O cümlədən, diqqətə çatdırılıb ki, qanunvericilik orqanlarımız Parlamentlərarası İttifaq, MDB Parlament Assambleyası, Asiya Parlament Assambleyası kimi beynəlxalq təşkilatlarda əməkdaşlıq edirlər. Məhz Milli Məclisin APA-ya sədrliyi dövründə Belarus parlamenti bu strukturda müşahidəçi statusu əldə edib.

Mühüm platformalardan biri kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılmış və hazırda Milli Məclisin sədrlik etdiyi Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin də əhəmiyyəti vurğulanıb.

Yekunda spiker Sahibə Qafarova bir daha Azərbaycan və Belarus parlamentləri arasında əlaqələrin çox yaxşı səviyyədə olduğunu qeyd edib.

Belarus Milli Assambleyası Nümayəndələr Palatasının Sədri İqor Sergeyenko da mətbuat qarşısında çıxışı zamanı ölkəmizə səfəri və parlamentlərimiz arasında münasibətlərə dair müsbət fikirlərini bölüşüb. O, Belarus Prezidenti Aleksandr Lukaşenkonun tapşırığı ilə Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında iştirak etdiyini xatırladaraq, deyib ki, yüksək səviyyədə təşkil olunmuş tədbirin miqyası heyranedicidir. Hər şey kifayət qədər mütəşəkkil, planlı və maraqlı şəkildə təşkil olunub. Qonaq həmçinin şəhərsalma və urbanizasiya sahəsində ölkəsinin təcrübəsi və əldə etdiyi nailiyyətlər barədə də məlumat verib.

İqor Sergeyenko parlamentlərimiz arasında münasibətlərə də toxunaraq, bunun yüksək səviyyədə olmasından məmnunluğunu ifadə edib. O deyib ki, bu gün bizim üçün qapalı mövzu, demək olar ki, yoxdur. Biz açıq danışırıq, dəstək sözləri, dostluq sözləri deyirik, təcrübə mübadiləsi aparırıq. Qonaq qeyd edib ki, parlamentlərarası dialoqun fəallaşmasında ölkələrimizin parlamentlərində yaradılmış dostluq qrupları mühüm rol oynayırlar. Bugünkü görüşlərdə dostluq qruplarının rəhbərləri olan deputatlar və ölkəmizin Respublika Şurasının üzvləri də iştirak edirlər.

*"Azərbaycan"*

# Zambiya Milli Assambleyasının nümayəndə heyəti Milli Məclisdə olub

Mayın 19-da Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov BMT-nin Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasında (WUF13) iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Zambiya Respublikası Milli Assambleyasının Sədr müavini Malunqo Kisanqanonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə urbanizasiya çağırışlarının müasir dövrdə beynəlxalq ictimaiyyətin diqqət mərkəzində olduğu qeyd edilərək, Azərbaycanın qlobal şəhərsalma problemlərinin həllinə, eləcə də yüksəksəviyyəli, açıq və inklüziv dialoq platformalarının təşviqinə verdiyi mühüm dəstəkdən danışılıb. Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov bildirib ki, WUF13 dünya miqyasında keçirilən ən mühüm tədbirlərdən biri hesab olunur və on minlərlə qonağın iştirakı ilə Bakıda təşkil edilən bu mötəbər forum Azərbaycanın beynəlxalq urbanizasiya problemlərinin həllinə verdiyi töhfənin bariz nümunəsidir.

Zambiya Respublikası Milli Assambleyasının Sədr müavini Malunqo Kisanqano WUF13-ün yüksək səviyyədə keçirilməsi münasibətilə təbriklərini çatdırıb, urbanizasiya proseslərinin müzakirə olunduğu bu mühüm tədbirin qlobal əhəmiyyətini xüsusi vurğulayıb. Qonaq əminliyini ifadə edib ki, sessiya çərçivəsində qaldırılan məsələlər və qəbul olunan qərarlar inkişafda olan ölkələrin dayanıqlı şəhərsalma strategiyalarının formalaşdırılmasına və qlobal çağırışlara qarşı birgə fəaliyyətin gücləndirilməsinə mühüm töhfə verəcək.

Söhbət zamanı WUF13 çərçivəsində şəhərlərin dayanıqlı inkişafı, iqlim dəyişikliklərinin şəhər mühitinə təsiri, müasir şəhər idarəçiliyi, rəqəmsal həllərin tətbiqi və inklüziv şəhərsalma modelləri kimi mühüm məsələlərin müzakirəsinin əhəmiyyəti vurğulanaraq, bu istiqamətdə beynəlxalq əməkdaşlığın genişləndirilməsinin vacibliyi nəzərə çatdırılıb. Həmçinin qeyd olunub ki, Azərbaycan dövləti tərəfindən işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri dünyaya müasir şəhərsalma təcrübəsini təqdim etməklə yanaşı, tamamilə yeni inkişaf və yaşayış modeli formalaşdırır.

Görüşdə dövlətlərarası və parlamentlərarası əməkdaşlığın inkişaf perspektivlərinə toxunulub, qanunverici orqanlar arasındakı əlaqələrin həm ikitərəfli, həm də beynəlxalq platformalarda uğurla inkişaf etdiyi məmnunluqla qeyd olunub.

*"Azərbaycan"*

# Türkiyə nümayəndə heyəti ilə görüş

Mayın 19-da Milli Məclisin Regional məsələlər komitəsinin üzvləri ilə BMT-nin Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında (WUF13) iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin (TBMM) İctimai işlər, şəhərsalma, nəqliyyat və turizm komitəsinin sədri Adil Karaismailoğlunun rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov qonaqları salamlayaraq, Azərbaycan ilə Türkiyə arasında münasibətlərin ortaq tarix, milli-mənəvi dəyərlər və sarsılmaz qardaşlıq prinsipləri üzərində qurulduğunu bildirib. Qeyd olunub ki, dövlət başçıları arasında yüksəksəviyyəli münasibətlər ikitərəfli əməkdaşlığın bütün sahələrdə inkişafına mühüm təkan verir. Komitə sədri həmçinin 44 günlük Vətən müharibəsi zamanı Türkiyənin Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstəyin xalqımız tərəfindən daim yüksək qiymətləndirildiyini vurğulayaraq ölkələrimiz arasındakı qardaşlıq münasibətlərinin dünyaya nümunə olduğunu deyib.

Bu günlərdə Bakıda keçirilən WUF13 tədbirinin əhəmiyyətindən danışan Siyavuş Novruzov, Türkiyənin şəhərsalma və regional inkişaf sahəsində zəngin təcrübəyə malik olduğunu qeyd edərək, bu istiqamətdə təcrübə mübadiləsinin vacibliyini vurğulayıb. TBMM-in İctimai işlər, şəhərsalma, nəqliyyat və turizm komitəsinin sədri Adil Karaismailoğlu göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirərək, "bir millət, iki dövlət" prinsipinin Azərbaycan ilə Türkiyə arasında münasibətlərin əsasını təşkil etdiyini vurğulayıb. Qonaq Bakıda keçirilən WUF13 tədbirinin yüksək səviyyədə təşkil olunduğunu qeyd edərək, Azərbaycanın ev-sahibliyi ilə keçirilən belə mötəbər beynəlxalq tədbirlərin ölkəmizin artan nüfuzunun və beynəlxalq əməkdaşlığa verdiyi önəmin göstəricisi olduğunu bildirib.

Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən yenidənqurma və müasir şəhərsalma işlərini yüksək qiymətləndirən komitə sədri, həmçinin Zəngəzur dəhlizi (TRIPP) və Orta dəhlizin əhəmiyyətinə toxunaraq, bu layihələrin region ölkələri arasında əlaqələrin daha da genişlənməsinə xidmət etdiyini bildirib.

Görüşdə çıxış edən Regional məsələlər komitəsinin sədr müavini Nurlan Həsənov, deputatlar Elman Məmmədov, Kamran Bayramov, Vasif Qafarov, Türkiyə-Azərbaycan dostluq qrupunun rəhbəri Şamil Ayrım, TBMM-in üzvləri Cem Avşar, Hüseyin Yıldız, Hulusi Şentürk və Mervan Gül Azərbaycan-Türkiyə münasibətlərinin qardaşlıq və strateji müttəfiqlik prinsipləri əsasında inkişaf etdiyini vurğulayaraq parlamentlərarası əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyindən danışıblar.

***Təhminə VERDİYEVA,***
***"Azərbaycan"***

# Parlament diplomatiyası münasibətlərin inkişafında xüsusi rol oynayır

Mayın 19-da Milli Məclisin Latviya ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun üzvləri BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında (WUF13) iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Latviya Parlamentinin Azərbaycan ilə parlamentlərarası dostluq qrupunun rəhbəri Oleq Burovs ilə görüşüblər.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Latviya ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri Kamran Bayramov WUF13 forumunun əhəmiyyətindən danışaraq, bu cür tədbirlərin qlobal çağırışların müzakirəsi, dayanıqlı inkişaf və beynəlxalq əməkdaşlığın genişləndirilməsi baxımından mühüm olduğunu bildirib. Qeyd olunub ki, Azərbaycan ilə Latviya arasında mövcud dostluq münasibətlərinin inkişafında parlament diplomatiyası xüsusi rol oynayır. O, Milli Məclisin Sədri Sahibə Qafarovanın Latviyaya səfərini xatırladaraq, bu kimi qarşılıqlı əlaqələrin parlamentlərarası münasibətlərin dərinləşməsinə, təcrübə mübadiləsinə və siyasi dialoqun genişlənməsinə mühüm töhfə verdiyini qeyd edib.

Görüşdə Oleq Burovs Azərbaycanın təşkilatçılığı ilə keçirilən forumun yüksək səviyyədə təşkil olunduğunu vurğulayaraq, tədbirin beynəlxalq əməkdaşlığın təşviqi və aktual urbanizasiya məsələlərinin müzakirəsi baxımından əhəmiyyətini qeyd edib. O, Azərbaycan ilə Latviya arasında münasibətlərin inkişafında dövlət başçılarının qarşılıqlı səfərlərinin mühüm rol oynadığını bildirib, ötən ay Latviya Prezidentinin Azərbaycana səfərini, yüksəksəviyyəli görüşləri məmnunluqla xatırladıb.

Görüşdə Latviya ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun üzvləri Azər Allahverənov və Sevil Mikayılova çıxış ediblər. Çıxışlarda Azərbaycan-Latviya münasibətlərinin diplomatik, siyasi, iqtisadi və humanitar aspektlərdə inkişaf perspektivlərindən, parlamentlərarası əməkdaşlığın əhəmiyyətindən, eləcə də qarşılıqlı səfərlərin ikitərəfli münasibətlərin daha da möhkəmlənməsinə verdiyi töhfədən bəhs olunub.

***T.VERDİYEVA,***
***"Azərbaycan"***

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

# "QHT Forumu: Qlobal tərəfdaşlıqlar və qərarverməˮ mövzusunda tədbir keçirilib

BMT-nin Ümumdünya Şəhərsalma Forumu (WUF13) çərçivəsində ilk dəfə "QHT Forumu: Qlobal tərəfdaşlıqlar və qərarvermə" mövzusunda tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən təşkil olunan forumda vətəndaş cəmiyyətinin inklüziv şəhər planlaşdırılması və davamlı şəhər inkişafında rolu müzakirəyə çıxarılıb.

BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax Azərbaycanın milli şəhərsalma forumunda iştirakından məmnunluğunu ifadə edib. O, Azərbaycanın yenidənqurma prosesində icmaların və müxtəlif tərəflərin fəal şəkildə cəlb olunduğunu görməkdən məmnun olduğunu bildirib.

A.Rossbax əlavə edib ki, QHT-lərin iştirakı olmadan qlobal mənzil böhranının həlli mümkün deyil.

Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev COP29 çərçivəsində yaradılan Qlobal Cənub QHT Platformasının artıq uğurlu beynəlxalq təşəbbüsə çevrilməkdə olduğunu bildirib.



"Bu il həmin platformanın Baş Assambleyası təsis olunub və mən bu təşəbbüsün gələcəyinə böyük ümidlə baxıram. Şəhərlərlə bağlı çağırışlar - sürətli urbanizasiya, əhali artımı və iqlim dəyişiklikləri artıq bütün dövlətlərin gündəmindədir. Azərbaycan da iqlim dəyişikliklərinin təsirlərini hiss edir", - deyə o bildirib.

Azərbaycanın qədim şəhərsalma ənənələrinə malik olduğunu vurğulayan H.Hacıyev qeyd edib ki, qədim Qəbələ kimi şəhərlər tarix boyu ticarət, elm, əməkdaşlıq və mədəniyyət mərkəzləri olub.

"Bu gün isə əsas çağırışlardan biri müasir şəhərlərin inkişafı ilə yanaşı, mədəni irsin qorunmasıdır", - deyə o əlavə edib. BMT-nin Cənub-Cənub Əməkdaşlığı üzrə Ofisinin direktoru Dima Al-Katib qeyd edib ki, şəhərlərin dayanıqlı inkişafı istiqamətində qlobal çağırışların həlli üçün vətəndaş cəmiyyəti institutlarının iştirakı və çoxtərəfli tərəfdaşlıqlar mühüm əhəmiyyət daşıyır.

Qaçqınlar üzrə Ali Komissarlığın (UNHCR) sabiq icraçı direktoru, hazırda Malayziya hökumətinin dayanıqlı urbanizasiya üzrə müşaviri, Maimuna Mohd Şərif bildirib ki, QHT-lər yalnız qlobal forumların iştirakçısı deyil, həm də insanlar, siyasət və praktika arasında əlaqələndirici qüvvədir.

"Vətəndaş cəmiyyəti təşkilatları hökumətlər, beynəlxalq təşkilatlar, özəl sektor və yerli icmalar arasında mühüm körpü rolunu oynayır. Yalnız dövlət və özəl sektor deyil, insanlar da bu tərəfdaşlığın əsas hissəsi olmalıdırlar", - deyə o vurğulayıb.

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin İdarə Heyətinin sədri Aygün Əliyeva son illərdə Azərbaycanın vətəndaş cəmiyyəti sahəsində mühüm beynəlxalq təşəbbüslərin və həmrəylik platformalarının formalaşdığı məkana çevrildiyini bildirib.

"Beynəlxalq tədbirlər Azərbaycanın yalnız onlara evsahibliyi edən ölkə kimi deyil, həm də müxtəlif regionlardan olan vətəndaş cəmiyyəti nümayəndələrini bir araya gətirən mühüm platformaya çevrildiyini göstərir. Bu platformalar dialoq, əməkdaşlıq və həmrəylik üçün yeni imkanlar yaradır", - deyə A.Əliyeva qeyd edib.

BMT-nin Məskunlaşma Proqramının İdarə Heyətinin keçmiş katibi və Hökumətlərarası Əlaqələr şöbəsinin rəhbəri Kristian Mensah bildirib ki, WUF tarixində ilk dəfə dünyanın müxtəlif ölkələrindən QHT-lər vahid platformada bir araya gələrək xüsusi məkan əldə ediblər.

"Bu, onların sessiya çərçivəsində daha fəal iştirakı və fəaliyyətlərinin təmin olunması baxımından mühüm addımdır. WUF13 yerli və regional baxışların qlobal siyasət formalaşdırılması prosesinə inteqrasiyası üçün də yeni imkanlar yaradır", - deyə o qeyd edib.

Birləşmiş Millətlər Təşkilatının Təlim və Tədqiqat İnstitutunun Məsləhət Şurasının sədri Luis Qalyeqos qeyd edib ki, şəhərlər qadınlar, kişilər və uşaqlar üçün uyğun şəkildə qurulmalıdır.

"Eyni zamanda yaşlı insanlar və əlilliyi olan şəxslərin ehtiyacları xüsusi diqqət mərkəzində saxlanılmalıdır. Qərar qəbuletmə prosesi çoxtərəfli əməkdaşlıq şəraitində mürəkkəb və məsuliyyətli vəzifədir. Bununla belə, BMT dünya problemlərinin həlli üçün mövcud olan ən vacib platformalardan biridir və QHT-lər də bu prosesin ayrılmaz hissəsi olmalıdır", - deyə Luis Qalyeqos əlavə edib.

# "Şəhərlər bağlantılılığın mərkəzində: Şəhər yenidənqurması və regional əməkdaşlıq"

Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində mayın 19-da "Şəhərlər bağlantılılığın mərkəzində: Şəhər yenidənqurması və regional əməkdaşlıq" mövzusunda xüsusi sessiya təşkil olunub.



AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov yeni nəqliyyat dəhlizlərinin, dəmir yollarının, avtomobil magistrallarının, enerji infrastrukturunun və rəqəmsal şəbəkələrin yenidənqurma ərazilərini daha geniş regional və beynəlxalq iqtisadi sistemlərə inteqrasiya etdiyini vurğulayıb. Deyib ki, bu investisiyalar mobilliyi, ticarəti, sərmayələri, turizmi və məşğulluğu təşviq edir, eyni zamanda regional qarşılıqlı asılılığı və uzunmüddətli sabitliyi gücləndirir.

Energetika naziri Pərviz Şahbazov çıxışında bildirib ki, gələcəyin şəhərləri artıq ölçüləri ilə deyil, enerji səmərəliliyi, texnoloji inkişafı və regional bağlantıları ilə dəyərləndiriləcək. Onun sözlərinə görə, müasir geosiyasi və geoiqtisadi reallıqlarda bağlantılar strateji əhəmiyyət daşıyır və enerji xətləri, nəqliyyat dəhlizləri, fiber-optik kabellər və elektrik interkonnektorları qlobal sistemin yeni "arteriyaları"na çevrilir. İqtisadiyyat naziri Mikayıl Cabbarov qeyd edib ki, Azərbaycan regionun ən mürəkkəb və uzunmüddətli ərazi münaqişələrindən birini həll edib. O deyib ki, Azərbaycan son 20 ildən az müddətdə yoxsulluq səviyyəsini 49 faizdən 5 faizə endirməyə nail olub.

WUF13-ün milli koordinatoru, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev diqqətə çatdırıb ki, Azərbaycan son beş ildən artıq müddətdə regionun yaxın tarixində ən geniş və əhatəli yenidənqurma proqramlarından birini həyata keçirir. O xatırladıb ki, işğal dövründə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin təxminən 20 faizi işğal altında qalıb, yüzlərlə şəhər, qəsəbə və kənd dağıdılıb, mühüm infrastruktur məhv edilib, mədəni irsə ciddi ziyan vurulub. Komitə sədri qeyd edib ki, ərazilərin azad olunmasından sonra Azərbaycan yeni mərhələyə qədəm qoyaraq yenidənqurma, inteqrasiya və dayanıqlı regional inkişaf istiqamətlərində fəaliyyətə başlayıb.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev vurğulayıb ki, Azərbaycan Avrasiya məkanında mühüm nəqliyyat qovşaqlarından birinə çevrilib. Nazirin sözlərinə görə, ötən il Azərbaycan ərazisindən 17 milyon ton yük daşınıb. O, nəqliyyat dəhlizləri ətrafında yeni logistika mərkəzlərinin, azad iqtisadi zonaların, şəhər mərkəzlərinin formalaşdığını deyib və əsas məsələnin bu dəhlizlər boyunca şəhərlərin necə qurulacağı olduğunu vurğulayıb.

# Bakı Davamlılıq Koalisiyasının yüksəksəviyyəli iclası yekunlaşıb

Ümumdünya Şəhərsalma Forumu (WUF13) çərçivəsində "Şəhər iqlim fəaliyyəti və davamlı urbanizasiya üzrə Bakı Davamlılıq Koalisiyası"nın yüksəksəviyyəli iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbir COP29 zamanı yaradılmış Bakı Davamlılıq Koalisiyasının (BCC) fəaliyyətinin genişləndirilməsinə və şəhər iqlim idarəçiliyində davamlılığın təmin olunmasına həsr edilib. Tədbirin açılışında WUF13-ün milli koordinatoru, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev və xarici işlər nazirinin müavini Yalçın Rəfiyev çıxış ediblər.

Bildirilib ki, koalisiyanın əsas məqsədi şəhər iqlim siyasətində mövcud boşluqları aradan qaldırmaq, müxtəlif maraqlı tərəflər arasında davamlı əməkdaşlığı təmin etmək və beynəlxalq forumlararası dövrlərdə ardıcıllığı qorumaqdır. Tədbirdə vurğulanıb ki, bu istiqamətdə beynəlxalq əməkdaşlığın genişləndirilməsi və koordinasiyanın gücləndirilməsi xüsusi əhəmiyyət daşıyır.

İclasda Azərbaycan, Türkiyə, Misir və Braziliya da daxil olmaqla bir sıra ölkələrin nümayəndələri ilə yanaşı, BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax da iştirak edib. Bundan əlavə, Keniya, İspaniya, Kanada, Çin, İtaliya, Kolumbiya, Ekvador, Malayziya, Polşa və Efiopiya kimi ölkələrin də prosesə qoşulduğu qeyd olunub.



Panel müzakirələrdə Birləşmiş Ərəb Əmirlikləri Energetika və İnfrastruktur Nazirliyinin infrastruktur və nəqliyyat işləri üzrə nazir müavini Məhəmməd İbrahim Əl-Mənsuri, Braziliya Şəhərlər Nazirinin beynəlxalq məsələlər üzrə müşaviri Antonio da Kosta e Silva, Keniyanın torpaq, ictimai işlər, mənzil və şəhər inkişafı naziri Alis Vahome, Malayziya hökumətinin dayanıqlı urbanizasiya üzrə müşaviri, Kuala Lumpurun sabiq meri Maimuna Mohd Şərif, Türkiyənin ətraf mühit, şəhərsalma və iqlim dəyişikliyi nazirinin müavini Həsən Suver, Çin Xalq Respublikası Mənzil, Şəhər və Kənd İnkişafı Nazirliyinin baş iqtisadçısı Vanq Şenquin, Davamlılıq Naminə Yerli Hökumətlər Birliyinin (ICLEI) Cənubi Amerika üzrə regional direktoru Rodriqo Perpetuo çıxış ediblər.

Müzakirələr zamanı mənzil məsələlərinin şəhər iqlim siyasətində mərkəzi rol oynadığı vurğulanaraq, davamlı, inklüziv və əlçatan şəhər mühitinin formalaşdırılması üçün uyğun idarəetmə, siyasət və maliyyə mexanizmlərinin vacibliyi qeyd edilib. İştirakçılar müxtəlif ölkələrin təcrübəsini bölüşərək uzunmüddətli və effektiv həll yollarının işlənib hazırlanmasının əhəmiyyətini vurğulayıblar.

# Qarabağda postmünaqişə dövründə aparılan bərpa və yenidənqurma işləri WUF13-də təqdim olunub

BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində Azərbaycan pavilyonunda "Münaqişədən sonra şəhərsalma: Məhv edilmiş kimliyin bərpası və inteqrasiya olunmuş gələcəyin yenidən qurulması" mövzusunda tədbir keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirin açılışında Xankəndi şəhəri, Şuşa, Ağdərə və Xocalı rayonlarında görülən bərpa-quruculuq işlərinə dair videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən Şuşa rayonunda Prezidentin xüsusi nümayəndəsi Aydın Kərimov işğaldan azad olunduqdan dərhal sonra rayonda quruculuq işlərinin başlandığına diqqət çəkib. Onun sözlərinə görə, bu proses son bir neçə il ərzində çox sürətlə inkişaf edib. Xüsusi nümayəndə bildirib ki, Şuşada 200-ə yaxın tarixi və mədəniyyət abidəsi mövcuddur, onların əksəriyyəti işğal dövründə dağıdılaraq zərər görüb. Tut bağında yerləşən 7 məscid, 6 bulaq, 7 mədəniyyət obyekti, Şuşa qalası, Üzeyir bəy Hacıbəylinin heykəli, Molla Pənah Vaqifin məqbərə kompleksi və Xanlıq Muxtar karvansarası daxil olmaqla ümumilikdə 27 abidə bərpa edilib.

A.Kərimov əlavə edib ki, 2024-cü il mayın 10-dan etibarən Şuşaya 1411 nəfər, yəni 377 ailə köçürülüb. Birinci yaşayış massivində 450 mənzildən ibarət 23 çoxmənzilli bina istifadəyə verilib. Artıq Şuşada Müalicə-Diaqnostika və Sağlamlıq Mərkəzi fəaliyyət göstərir. Dövlət Xidmətləri Mərkəzi yaradılıb. Qızlar Gimnaziyası Məktəbinin də bərpa işləri davam etdirilir.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov isə vurğulayıb ki, Xankəndi, Ağdərə və Xocalıda minatəmizləmə və partlamamış hərbi sursatların təmizlənməsi fəaliyyətləri ən çətin proseslərdən biri idi. "Xankəndidə 1456 hektar, Ağdərədə 10 min 359, Xocalıda isə 9874 hektar ərazi minalardan və partlamamış sursatlardan təmizlənib", - deyə xüsusi nümayəndə əlavə edib.

E.Yusubov həmçinin məlumat verib ki, işğaldan azad olunan Xankəndiyə 71 ailə (302 nəfər), Ağdərəyə 857 ailə (3341 nəfər), Xocalıya 1083 ailə (4510 nəfər) qayıdıb.

"Dəmir yolu və avtobus terminal layihəsi çərçivəsində, 28 kilometr uzunluğundakı Ağdam-Xankəndi dəmir yolu xəttinin dizayn işləri 90 faiz, tikintisi isə 51,1 faiz tamamlanıb. Eyni layihə çərçivəsində yer alan Xankəndi Şəhər Dəmir Yolu və Avtovağzal Kompleksinin də dizayn işlərinin 90 faizi, tikinti işlərinin isə 40 faizi yekunlaşıb", - deyə o diqqətə çatdırıb.

Qeyd edək ki, tədbirin sonunda iştirakçıların sualları cavablandırılıb.

# UNESCO-nun yaradıcı şəhərləri və dayanıqlı şəhərsalma

BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində "UNESCO-nun yaradıcı şəhərləri və dayanıqlı şəhərsalma" mövzusunda panel sessiya keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbir UNESCO-nun Yaradıcı Şəhərlər Şəbəkəsi və Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən birgə təşkil olunub.

Tədbirdə çıxış edən UNESCO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinin (UCCN) katibi Denise Bax bildirib ki, mədəniyyət bütün proseslərin tərkib hissəsidir. O deyib ki, UNESCO bu sahədə hər zaman innovativ ev modellərinin qurulması, icmaların və yerli iqtisadiyyatın dəstəklənməsi sahəsinə öz dəstəyini verməyə hazırdır. O bildirib ki, mədəniyyət qlobal məşğulluğun 3.55 faizini təşkil edir ki, bunun da əksəriyyəti şəhərlər üzrə göstəriciyə əsaslanır.

"Biz şəhərlərin uğurlu təcrübələri, ideyaları ilə bağlı fikir mübadilələrini də həyata keçiririk və bunu davam etdirəcəyik", - deyə o qeyd edib.

Mədəniyyət nazirinin müavini Səadət Yusifova çıxışında BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) Bakıda keçirilməsinin Azərbaycanın dayanıqlı şəhər inkişafı sahəsində artan beynəlxalq rolunun aydın göstəricisi olduğunu bildirib. O qeyd edib ki, Azərbaycan zəngin şəhərsalma və memarlıq ənənələrinə malikdir.

Nazir müavini deyib ki, UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş abidələr - İçərişəhəri, Qız qalası və Şirvanşahlar Sarayı Kompleksi, həmçinin Şəkinin tarixi mərkəzi və Xan Sarayı ölkənin zəngin mədəni irsini əks etdirir. Müasir dövrdə isə Heydər Əliyev Mərkəzi, Alov Qüllələri və "Ağ Şəhər" layihəsi Azərbaycanın innovasiya və dayanıqlı inkişaf baxışını nümayiş etdirir.

Tədbir panel müzakirələri ilə davam edib.

Azərbaycan Respublikası Kino Agentliyinin baş direktoru Rəşad Əzizov bildirib ki, yaradıcı şəhərlər şəbəkəsi təxminən 10 il əvvəl formalaşmağa başlasa da, son 3 ildə bu istiqamətdə inkişaf daha sürətli olub. Hazırda yaradıcı sənayelərin dəstəklənməsi üçün yeni alətlər kimi qiymətləndirilən geniş layihələr şəbəkəsi mövcuddur. O, hazırda Azərbaycanda bir neçə dövlət və özəl yaradıcı məkan və mərkəzlərin fəaliyyət göstərdiyini deyib: "Yaxın dövrdə rəqəmsal sənətçilər və elektron musiqiçilər üçün nəzərdə tutulan "Yaradıcı çardaq", həmçinin "Azərbaycanfilm" kinostudiyasında yaradılacaq gənc və müasir kinematoqrafçılar üçün "Yaradıcı Kino Mərkəzi" kimi yeni təşəbbüslərin inkişafı planlaşdırılır. Bu layihələr yaradıcı icmaların daha sistemli şəkildə dəstəklənməsi və mövcud infrastrukturun yeni məzmunla aktivləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır".




Sonra Buxara şəhər merinin müavini və Şəhər İnvestisiya, Sənaye və Ticarət İdarəsinin rəhbəri Şarofiddin Xusenov, BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) Şəhər Yenilənməsi və İctimai Məkan üzrə rəhbəri Xose Çonq və digər çıxış edənlər mövzu ətrafında fikirlərini bölüşüblər.

Çıxışlarda şəhərlərin davamlı inkişafında yaradıcı yanaşmaların və mədəni resursların rolunun getdikcə artdığı vurğulanıb. Bildirilib ki, şəhər mühitinin yenilənməsi yalnız infrastruktur layihələri ilə məhdudlaşmamalı, eyni zamanda ictimai məkanların əlçatanlığı, estetik görünüşü və sosial inklüzivliyi də nəzərə alınmalıdır.

Natiqlər yaradıcı sənayelərin inkişafının yerli iqtisadiyyata töhfəsindən bəhs edərək, bu sahənin yeni iş yerlərinin yaradılması və şəhərlərin qlobal rəqabət qabiliyyətinin artırılması baxımından əhəmiyyətini qeyd ediblər. Həmçinin vurğulanıb ki, şəhərlərdə mədəni irsin qorunması ilə müasir urbanizasiya arasında balansın saxlanılması dayanıqlı inkişafın əsas şərtlərindən biridir.

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU

WUF13

WORLD URBAN FORUM

## “İşğaldan azad olunmuş ərazilərdə tikililərin müvəqqəti reyestrinə daxil olan tikililərin müvafiq ərazidə tikinti niyyətinin həyata keçirilməsi zərurəti ilə bağlı sökülməsi qadağan edilən, sökülməsinə rəy tələb olunan və sökülməsi mümkün olan kateqoriyalar üzrə bölgüsü”nün təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 24 sentyabr tarixli 370 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 147** **Bakı şəhəri, 14 may 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"İşğaldan azad olunmuş ərazilərdə tikililərin müvəqqəti reyestrinə daxil olan tikililərin müvafiq ərazidə tikinti niyyətinin həyata keçirilməsi zərurəti ilə bağlı sökülməsi qadağan edilən, sökülməsinə rəy tələb olunan və sökülməsi mümkün olan kateqoriyalar üzrə bölgüsü"nün təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 24 sentyabr tarixli 370 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1103 (Cild I); 2024, № 7, maddə 910) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Sökülməsi qadağan edilən obyektlərin Siyahısı"nın 124-cü, 128-ci və 129-cu bəndləri ləğv edilsin.

2. Həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - "Sökülməsi mümkün olan obyektlərin Siyahısı"na aşağıdakı məzmunda 23280-ci, 23281-ci və 23282-ci bəndlər əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 23280. | 1008235 | Qeyri-yaşayış binası | Şuşa şəhəri, Aslan Qaraşarov küçəsi |
| 23281. | 1008236 | Qeyri-yaşayış binası | Şuşa şəhəri, Aslan Qaraşarov küçəsi |
| 23282. | 1008584 | Qeyri-yaşayış binası | Şuşa şəhəri, Aslan Qaraşarov küçəsi |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 10 yanvar tarixli 6 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən “İcazə Sistemi” haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 151** **Bakı şəhəri, 18 may 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin fəaliyyətinin təmin edilməsi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" 2011-ci il 20 iyul tarixli 472 nömrəli, "Sumqayıt şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2015-ci il 7 dekabr tarixli 704 nömrəli və "Gəncə şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2016-cı il 25 yanvar tarixli 750 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" 2022-ci il 8 sentyabr tarixli 1842 nömrəli və "AYNA" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2022-ci il 30 dekabr tarixli 1956 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 14 noyabr tarixli 526 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 10 yanvar tarixli 6 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən "İcazə Sistemi" haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 5-ci hissədə "(ölkəyə gəlmək haqqında icazə, yüklərin yüklənməsinə icazə, üçüncü ölkəyə tranzit gediş üçün icazə)" sözləri "(ikitərəfli yük daşımaları üçün "İcazə" blankı, ikitərəfli və tranzit yük daşımaları üçün "İcazə" blankı, tranzit yük daşımaları üçün "İcazə" blankı, üçüncü ölkəyə/ölkədən yük daşımaları üçün "İcazə" blankı, ikitərəfli, tranzit və üçüncü ölkəyə/ölkədən yük daşımaları üçün "İcazə" blankı, beynəlxalq qeyri-müntəzəm sərnişin daşımaları üçün "İcazə" blankı, Beynəlxalq Nəqliyyat Forumunun çoxtərəfli illik "İcazə" blankı (jurnalı), Beynəlxalq Nəqliyyat Forumunun çoxtərəfli qısamüddətli (aylıq) "İcazə" blankı (jurnalı)" sözləri ilə əvəz edilsin;

1.1. 7-ci hissəyə aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

"İcazə" blanklarının elektron mübadiləsini Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "AYNA" informasiya sistemi ilə edən ölkələrlə mübadilə yalnız elektron qaydada, digər ölkələr ilə mübadilə isə kağız daşıyıcıda həyata keçirilir. Beynəlxalq Nəqliyyat Forumunun çoxtərəfli "İcazə"lərinin əldə edilməsi və verilməsi yalnız elektron qaydada həyata keçirilir.";

1.2. 8-ci hissəyə "İcazə" blankı" sözlərindən əvvəl "Kağız daşıyıcıda olan" sözləri əlavə edilsin;

1.3. 10-cu hissəyə "üçün" sözündən sonra "kağız daşıyıcıda olan" sözləri əlavə edilsin;

1.4. 11-ci hissə üzrə:

1.4.1. birinci abzasa "İcazə" blankı"nın" sözlərindən əvvəl "kağız daşıyıcıda olan" sözləri əlavə edilsin;

1.4.2. onuncu abzasa "İcazə" blankı"nın" sözlərindən əvvəl "Kağız daşıyıcıda olan" sözləri əlavə edilsin;

1.4.3. on dördüncü abzasa "İcazə" blankı" sözlərindən əvvəl "kağız daşıyıcıda olan" sözləri əlavə edilsin;

1.5. aşağıdakı məzmunda 11-1-ci və 11-2-ci hissələr əlavə edilsin:

"11-1. Elektron qaydada mübadilə edilən və verilən "İcazə" blankında aşağıdakı məlumatlar əks olunur:

11-1.1. "İcazə" blankını verən ölkə;
11-1.2. "İcazə" blankının verildiyi ölkə;
11-1.3. "İcazə" blankının eyniləşdirmə nömrəsi;
11-1.4. "İcazə" blankının verildiyi tarix;
11-1.5. "İcazə" blankının ili;
11-1.6. "İcazə" blankının etibarlılıq müddəti;
11-1.7. "İcazə" blankının növü;
11-1.8. nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanı;
11-1.9. avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və ya yük daşımaları fəaliyyətinin operatorunun adı;
11-1.10. beynəlxalq sərnişin və ya yük daşımalarının başladığı ölkə;
11-1.11. beynəlxalq sərnişin və ya yük daşımalarının bitdiyi ölkə;
11-1.12. mübadilə edən tərəflərin qarşılıqlı şəkildə müəyyən etdiyi əlavə qeydlər.

11-2. Elektron qaydada əldə edilən və verilən Beynəlxalq Nəqliyyat Forumunun çoxtərəfli qısamüddətli (aylıq) və çoxtərəfli illik "İcazə" blankında (jurnalında) aşağıdakı məlumatlar əks olunur:

11-2.1. ölkə kodu;
11-2.2. "İcazə" blankının (jurnalının) növü;
11-2.3. "İcazə" blankının (jurnalının) nömrəsi;
11-2.4. avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və ya yük daşımaları fəaliyyətinin operatorunun nəqliyyat vasitəsinin ekoloji sinfi;
11-2.5. "İcazə" blankını (jurnalını) verən orqanın adı;
11-2.6. "İcazə" blankının (jurnalının) verilmə yeri;
11-2.7. "İcazə" blankının (jurnalının) verilmə tarixi;
11-2.8. "İcazə" blankının (jurnalının) etibarlılıq müddəti;
11-2.9. məhdudiyyət tətbiq edilən ölkələrin siyahısı;
11-2.10. avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və ya yük daşımaları fəaliyyətinin operatorunun adı, ünvanı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN);
11-2.11. yola düşmə tarixi;
11-2.12. təyinat məntəqəsinə çatma tarixi;
11-2.13. yüklənmə məntəqəsi;
11-2.14. boşaltma məntəqəsi;
11-2.15. yüklənilən ölkə;
11-2.16. boşaldılan ölkə;
11-2.17. nəqliyyat vasitəsinin (dartıcının, qoşqunun və yarımqoşqunun) qeydiyyatda olduğu ölkə;
11-2.18. nəqliyyat vasitəsinin (dartıcının, qoşqunun və yarımqoşqunun) dövlət qeydiyyat nişanı;
11-2.19. yükün ümumi çəkisi;
11-2.20. səfərdən əvvəl və sonra yürüş göstəricisi (kilometr);
11-2.21. Beynəlxalq Nəqliyyat Forumu tərəfindən müəyyən edilən xüsusi qeydlər.";

1.6. 14-cü hissəyə "İcazə" blanklarının" sözlərindən əvvəl "Kağız daşıyıcıda olan" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan və Türkiyə parlamentariləri şəhərsalma məsələlərini müzakirə ediblər



Mayın 19-da Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov Türkiyə Böyük Millət Məclisinin (TBMM) İctimai işlər, şəhərsalma, nəqliyyat və turizm komitəsinin sədri Adil Karaismailoğlunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə BMT-nin Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) qlobal urbanizasiya gündəliyi baxımından əhəmiyyəti, Azərbaycan və Türkiyənin şəhərsalma və yenidənqurma təcrübəsi, bu sahədə parlamentlərarası əməkdaşlıq məsələləri müzakirə edilib.

Komitə sədri Azər Əmiraslanov Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasında Türkiyənin geniş nümayəndə heyəti ilə təmsil olunmasını və aktiv iştirakını yüksək qiymətləndirib. Qeyd olunub ki, WUF13 Azərbaycanın müasir beynəlxalq münasibətlər sistemində artan nüfuzunun növbəti təsdiqidir. Diqqətə çatdırılıb ki, Azərbaycan şəhər və kəndlərin müasir şəhərsalma prinsipləri əsasında yenidən qurulması, dayanıqlı infrastrukturun yaradılması və təhlükəsiz yaşayış mühitinin formalaşdırılması istiqamətində mühüm təcrübə əldə edib. Bildirilib ki, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən "ağıllı şəhər" və "ağıllı kənd" layihələri, həmçinin müasir baş planlar əsasında aparılan yenidənqurma işləri beynəlxalq urban inkişafı baxımından nümunəvi təcrübə kimi qiymətləndirilir.

Göstərilən diqqət və qonaqpərvərliyə görə təşəkkürünü bildirən TBMM-in İctimai işlər, şəhərsalma, nəqliyyat və turizm komitəsinin sədri Adil Karaismailoğlu WUF13-ün yüksək səviyyədə təşkil olunduğunu bildirib. O, forumun şəhərsalma, infrastruktur və dayanıqlı inkişafla bağlı müasir çağırışların müzakirəsi üçün mühüm platforma olduğunu vurğulayıb. Tədbirdə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Azər Badamov, komitə üzvləri Əli Məsimli, Aydın Hüseynov, Vüqar Bayramov, Müşfiq Cəfərov, TBMM-in Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım, TBMM-in üzvləri Hulusi Şentürk, Mervan Gül, Hüseyin Yıldız, Cem Avşar çıxış ediblər, iki ölkə arasında dostluq və əməkdaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsi barədə fikirlərini bildiriblər.

Görüşdə Azərbaycan-Türkiyə strateji tərəfdaşlığının urban siyasəti müstəvisində genişləndirilməsi, regional əməkdaşlıq və parlament diplomatiyasının gücləndirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər haqqında fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin məlumatı müzakirə olunub



Mayın 19-da Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin növbəti iclası keçirilib. İclasda Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2025-ci il üzrə məlumatı müzakirəyə təqdim edilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, parlamentin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova Azərbaycanda gender bərabərliyinin təmin olunmasının və dövlət qadın siyasətinin əsas prinsiplərinin müəyyən edilməsinin Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu, bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın bu sahədə xüsusi rolunu vurğulayıb.

Komitə sədri ölkədə gender bərabərliyinin təmin edilməsi sahəsində müsbət dinamikanın olduğunu, idarəetmədə və qərarların qəbulunda qadınların iştirakının artmasının müşahidə edildiyini söyləyib. O, bu günlərdə ölkəmizdə Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının (WUF13) keçirildiyini, tədbirdə qadın iştirakçılığının, onların prosesə verəcəyi töhfələrin, dövlətlər qarşısında dayanan öhdəliklərin geniş müzakirə edildiyini bildirib.

O, gender bərabərliyinin təmin edilməsi sahəsində ölkəmizdə mühüm islahatların aparıldığını, hüquqi bazanın təkmilləşdirildiyini, o cümlədən əmək hüquqlarının qorunması, kişi və qadınlara bərabər dəyərli əməyə görə bərabər əməkhaqqı verilməsi, habelə atalıq məzuniyyəti ilə bağlı qanunvericilikdə bir sıra əlavə və dəyişikliklərin edildiyini söyləyib. Bu istiqamətdə ölkə Prezidentinin müvafiq sərəncamı ilə "Azərbaycan Respublikasında Gender (kişi və qadınların) bərabərliyi üzrə 2026-2028-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edildiyini diqqətə çatdırıb.

Hicran Hüseynova Dövlət Komitəsinin 2025-ci il üzrə məlumatında bir çox yeni istiqamətlərin əks olunduğunu qeyd edərək, bütövlükdə hesabat ilində görülən işləri yüksək qiymətləndirib. Sənədin peşəkar səviyyədə tərtib olunduğunu, bütün sahələr üzrə ətraflı təhlillərin aparıldığını, təklif və tövsiyələrin hazırlandığını vurğulayıb. Məlumatda habelə qarşıda duran vəzifələrin, həllini gözləyən məsələlərin yer aldığını bildirib.

Sonra iclasda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Sədaqət Qəhrəmanova çıxış edib. O, "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" qanunun icrası sahəsində fəaliyyət barədə illik məlumatın hazırlandığı zaman aidiyyəti dövlət qurumlarının, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının bu sahədə gördüyü işlərlə bağlı məlumatlarından istifadə edildiyini söyləyib.

Bildirilib ki, məlumatda hesabat ilində dövlət komitəsi tərəfindən erkən evliliyin inzibati-ərazi bölgüsü üzrə xəritənin hazırlanması, yetkinlik yaşına çatmayanlar arasında intihar hallarına səbəb olan faktorlar, sosial-iqtisadi səbəblərin ailə institutuna təsiri, yeniyetmələrin hüquq düşüncələrinin formalaşması ilə bağlı təhlillərin aparıldığı qeyd edilib. Ölkədə qadınlar üçün iqtisadi imkanların genişləndirildiyi, o cümlədən sahibkarlıq fəaliyyəti ilə məşğul olan qadınlara dəstəyin artırıldığı, sosial və ictimai-siyasi həyatda qadınların mövqeyinin möhkəmləndirildiyi öz əksini tapıb. Bununla yanaşı, ailə institutunun qorunması, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi, həyata keçirilən layihələr, maarifləndirmə tədbirləri, habelə məişət zorakılığının qarşısının alınması istiqamətində atılan addımlar, digər bir sıra məsələlər barədə geniş məlumat verilib.

Məsələ ilə bağlı müzakirələrdə komitənin sədr müavini Jalə Əliyeva, üzvləri İlham Məmmədov, Tamam Cəfərova, Mehriban Vəliyeva, Könül Nurullayeva, Günay Ağamalı, Sevinc Hüseynova, parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev çıxış edərək, illik məlumatı yüksək dəyərləndiriblər.

Çıxış edənlər dövlət komitəsi tərəfindən dövlətin ailə siyasətinin həyata keçirilməsi, gender bərabərliyinin təmin edilməsinə nəzarət, qadın hüquqlarının təmin edilməsi, onların pozulmasının qarşısının alınması, uşaq hüquqlarının müdafiəsi ilə bağlı atılan addımları məqsədəmüvafiq hesab ediblər. Müzakirələrdə gender bərabərliyinin təmin edilməsində qanunvericiliyə edilən dəyişikliklərin əhəmiyyəti vurğulanıb, regionlarda qadınların məşğulluğunun artırılmasının, bu sahədə maarifləndirmə işlərinin gücləndirilməsinin əhəmiyyətindən danışılıb. Millət vəkilləri hesabat ili ərzində görülən işləri müsbət qiymətləndirərək, bir sıra təklifləri də səsləndiriblər.

Parlamentin komitə sədri Hicran Hüseynova, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova, komitənin Aparat rəhbəri Ceyran Rəhmətullayeva, Analitik təhlil və informasiya təminatı şöbəsinin müdiri Elgün Səfərov çıxışlarda səsləndirilən fikirlərə münasibət bildiriblər.

Müzakirələrin yekununda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2025-ci il üzrə Məlumatı Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

# Baş Prokurorluğun nümayəndə heyəti Beynəlxalq Prokurorlar Assosiasiyasının rəhbərliyi ilə görüşüb

Cari il mayın 18-19-da baş prokurorun müavini Heydər Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Beynəlxalq Prokurorlar Assosiasiyasının mənzil-qərargahının yerləşdiyi Niderland Krallığının Haaqa şəhərində assosiasiyanın baş katibi Roel Dona və qurumun digər vəzifəli şəxsləri ilə görüşüb.

Görüş zamanı Roel Dona Azərbaycan ilə assosiasiya arasında səmərəli əməkdaşlığın uğurla davam etdiyini vurğulayaraq, Azərbaycan Prokurorluğunun assosiasiyanın fəaliyyətinə verdiyi töhfə və göstərdiyi davamlı dəstəyə görə təşəkkürünü bildirib. O həmçinin 2024-cü ildə Bakıda keçirilmiş BPA-nın 29-cu İllik Konfrans və Ümumi Yığıncağının yüksək səviyyədə təşkil olunduğunu və digər üzv qurumlar üçün nümunə hesab edildiyini qeyd edib.

Heydər Məmmədov isə baş prokuror Kamran Əliyevin salamlarını çatdıraraq, Prezident İlham Əliyevin müəyyən etdiyi dövlət siyasətinə uyğun olaraq prokurorluq orqanlarında beynəlxalq hüquqi əməkdaşlığın genişləndirilməsi, qabaqcıl təcrübənin öyrənilməsi və qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi istiqamətində ardıcıl tədbirlərin həyata keçirildiyini bildirib. O qeyd edib ki, bu yanaşma hüququn aliliyinin möhkəmləndirilməsi və cinayətkarlıqla mübarizə sahəsində qəbul olunan dövlət proqramları və milli strategiyalarda da öz əksini tapıb. Görüş zamanı Azərbaycan Prokurorluğu ilə assosiasiya arasında uzun illərə söykənən əməkdaşlıq münasibətlərinin formalaşdığı diqqətə çatdırılıb. Bildirilib ki, Azərbaycan Prokurorluğu qurumun fəaliyyətinə mühüm töhfələr verib, 2002-ci, 2018-ci və 2024-cü illərdə İcraiyyə Komitəsinin iclaslarına, eləcə də 2024-cü ildə BPA-nın İllik İclas və Ümumi Yığıncağına uğurla evsahibliyi edib.

H.Məmmədov Azərbaycanın assosiasiyaya dəstəyinin bundan sonra da davam edəcəyini vurğulayaraq, 2026-cı ilin noyabr ayında Riyad şəhərində keçiriləcək BPA-nın 31-ci İllik İclas və Ümumi Yığıncağının yüksək səviyyədə təşkilinə dəstək göstərməyə hazır olduğunu bildirib.

Görüş çərçivəsində həmçinin cari ilin 2-4 iyun tarixlərində assosiasiyanın yeni təyin olunmuş baş müşaviri Tarika Jayaratnenin rəhbərlik edəcəyi nümayəndə heyətinin Azərbaycana səfəri ilə bağlı müzakirələr aparılıb.

*"Azərbaycan"*

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

# D-8 rəsmilərinin WUF13-də dayanıqlı şəhərlər və enerji keçidi ilə bağlı dialoqu baş tutub

"D-8 bölgəsində davamlı şəhərlərin enerji keçidlərinin şəhər inkişafı gündəmləri ilə uyğunlaşdırılması" adlı tədbirdə dayanıqlı urbanizasiya, "yaşıl enerji" keçidi, postmünaqişə dövründə şəhərsalma və iqlim dayanıqlılığı məsələləri müzakirə olunub.

AZƏRTAC xəbər verir ki, tədbir WUF13 çərçivəsində təşkil edilib.

Tədbirdə çıxış edən WUF13-ün milli koordinatoru, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev bildirib ki, bərpaolunan enerji layihələrinin genişləndirilməsi, işğaldan azad edilmiş ərazilərin yenidən qurulması və dayanıqlı şəhər inkişafı Azərbaycanın uzunmüddətli iqtisadi və ekoloji strategiyasının əsas istiqamətlərindəndir.

Onun sözlərinə görə, həyata keçirilən enerji və şəhərsalma layihələri yeni iş yerlərinin yaradılmasına, həyat keyfiyyətinin yüksəldilməsinə, investisiya axınının güclənməsinə və innovasiyaların təşviqinə mühüm töhfə verir. Anar Quliyev qeyd edib ki, ölkədə icra olunan bərpaolunan enerji layihələri nəticəsində enerji balansında "yaşıl enerji"nin payının 13 faizdən təxminən 38 faizə çatdırılması hədəflənir və 2032-ci ilədək ümumi bərpaolunan enerji gücünün 8 gigavata yüksəldilməsi planlaşdırılır. Komitə sədri vurğulayıb ki, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən yenidənqurma layihələri "daha yaxşı bərpa et" prinsipi əsasında qurulur. Bildirilib ki, həmin ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarına uyğun dayanıqlı yaşayış məntəqələri formalaşdırılır və artıq 80 mindən çox insan doğma torpaqlarına qayıdıb.




Tədbirdə çıxış edən Azərbaycanın energetika naziri Pərviz Şahbazov qeyd edib ki, şəhərlər qlobal enerji istehlakının təxminən 70 faizini və istixana qazı emissiyalarının əhəmiyyətli hissəsini təşkil edir. Nazir bildirib ki, Azərbaycan enerji keçidini strateji prioritet kimi müəyyən edib və bu istiqamətdə "yaşıl enerji" zonaları, enerji dəhlizləri və enerji səmərəliliyi layihələri həyata keçirilir.

Pərviz Şahbazov diqqətə çatdırıb ki, gələn il ümumi gücü 2 giqavat olan 12 günəş və külək-elektrik stansiyasının istismara verilməsi başa çatacaq. Bunun nəticəsində ildə təxminən 2,4 milyon ton istixana qazı emissiyasının qarşısının alınacağı bildirilib.

Nazir əlavə edib ki, Qarabağ və Şərqi Zəngəzurda Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan "yaşıl enerji" zonası çərçivəsində "ağıllı şəhər" və "ağıllı kənd" layihələri həyata keçirilir. Həmin ərazilərdə günəş panelləri, enerji səmərəli texnologiyalar və elektrik doldurma infrastrukturu tətbiq olunur.

Pakistan İslam Respublikasının İqlim Dəyişikliyi və Ətraf Mühitin Əlaqələndirilməsi üzrə Federal naziri Dr. Musadik Masood Malik isə çıxışında enerji keçidinin əsas məqsədinin insanların ləyaqətli və inklüziv həyat şəraitinin təmin olunması olduğunu bildirib.

Onun sözlərinə görə, enerji sistemləri yalnız iqtisadi inkişafın deyil, həm də insanların gündəlik həyatının, sosial rifahının və təhlükəsiz yaşayışının əsas dayaqlarından biridir. Nazir vurğulayıb ki, günəş, külək və su kimi təbii resursların səmərəli istifadəsi şəhərlərin dayanıqlı inkişafında mühüm rol oynayır.

Tədbirdə çıxış edən İnkişaf etməkdə olan Səkkiz Ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) baş katibi Sohail Mahmood isə Azərbaycanın WUF13-ə evsahibliyini yüksək qiymətləndirib. O bildirib ki, WUF13-ün Bakıda keçirilməsi COP29-dan sonra Azərbaycanın beynəlxalq əməkdaşlıq sahəsində növbəti uğurudur. Çıxışçılar dayanıqlı şəhərlərin formalaşdırılması üçün beynəlxalq əməkdaşlığın, "yaşıl enerji" keçidinin və innovativ şəhərsalma yanaşmalarının vacibliyini vurğulayıblar.

Açılış nitqlərindən sonra tədbir D-8 ölkələrinin nazir və nazir müavinlərinin çıxışları ilə davam edib.

Dialoq dayanıqlı şəhərlərin inkişafında şəhərsalma, ətraf mühitin mühafizəsi və iqlim dayanıqlılığı məsələləri üzrə qlobal dialoq və əməkdaşlıq üçün mühüm beynəlxalq platforma rolunu oynayıb.

# "Azərbaycan enerjisisteminin rəqəmsal idarəetmə arxitekturası" - rəqəmsallaşma prosesləri elektronlaşdırılır




Bakıda Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində keçirilən "Azərbaycan enerjisisteminin rəqəmsal idarəetmə arxitekturası" tədbirində enerji sistemlərinin dayanıqlılığı, rəqəmsallaşma, bərpaolunan enerji inteqrasiyası və şəhər infrastrukturunun inkişafı üzrə strateji çağırışlar müzakirə olunub.

AZƏRTAC xəbər verir ki, tədbirdə "Azərenerji" və "Azərişıq" ASC-lərinin rəhbər şəxsləri çıxış edərək Azərbaycanın enerji sektorunda həyata keçirilən islahatlar və gələcək inkişaf prioritetləri barədə məlumat veriblər.

Bildirilib ki, müasir şəhərlərin inkişafı etibarlı və fasiləsiz enerji təminatı olmadan mümkün deyil. Qeyd olunub ki, enerji istehsalı, ötürülməsi və paylanmasının vahid və kompleks yanaşma əsasında idarə olunması dayanıqlı urbanizasiyanın əsas şərtidir.

Tədbirdə "Azərenerji" ASC-nin sədr müavini Rüstəm Qasımov bildirib ki, enerji sistemlərinin idarə olunmasında rəqəmsal infrastruktur həlledici rol oynayır və müasir dövrdə ənənəvi və bərpaolunan enerji mənbələrinin effektiv inteqrasiyası yalnız rəqəmsal platformalar vasitəsilə mümkündür. Onun sözlərinə görə, şəbəkənin monitorinqi ilə yanaşı, modelləşdirmə və analitik imkanları genişləndirən yeni nəsil idarəetmə sistemləri artıq Azərbaycanda tətbiq edilir. R.Qasımov həmçinin qeyd edib ki, ölkədə bərpaolunan enerji mənbələrinin genişləndirilməsi ilə yanaşı, enerji saxlama sistemlərinin tətbiqi xüsusi əhəmiyyət daşıyır. Bildirilib ki, günəş və külək enerjisinin şəbəkəyə inteqrasiyası üçün batareya enerji saxlama texnologiyaları artıq real infrastruktur elementinə çevrilib. R.Qasımov vurğulayıb ki, Azərbaycan 2028-ci ilədək enerji şəbəkəsinə təxminən 2 giqavat bərpaolunan enerji inteqrasiya etməyi hədəfləyir və bu istiqamətdə hidroenerji ilə ənənəvi istehsalın balanslaşdırılması prioritetlərdəndir.

"Azərişıq" ASC-nin nümayəndəsi Araz Məmmədzadə isə bildirib ki, paylayıcı şəbəkələr artıq yalnız elektrik ötürülməsi funksiyasını daşımır, həm də "ağıllı şəhər" infrastrukturunun əsas komponentinə çevrilib. Onun sözlərinə görə, Qarabağ və Şərqi Zəngəzur bölgələri müasir enerji modellərinin tətbiqi baxımından "canlı laboratoriya" rolunu oynayır və bu ərazilərdə "ağıllı" kəndlər, "yaşıl enerji" zonaları və rəqəmsal idarəetmə mərkəzləri formalaşır.

Çıxışlarda həmçinin qeyd olunub ki, enerji sektorunda innovativ texnologiyaların tətbiqi genişlənir. Şəbəkə infrastrukturunun monitorinqində dron texnologiyalarından istifadə edildiyi, bu metodun ənənəvi üsullarla müqayisədə daha sürətli və təhlükəsiz olduğu bildirilib. Eyni zamanda yarımstansiyaların üzərində quraşdırılan günəş panellərinin yerli istehlak üçün təmiz enerji istehsal etdiyi diqqətə çatdırılıb.

Qeyd olunub ki, rəqəmsallaşma nəticəsində enerji idarəetmə prosesləri tam elektronlaşdırılır, kağızsız idarəetmə sistemləri tətbiq edilir və bu yanaşma həm şəffaflığı artırır, həm də əməliyyat səmərəliliyini yüksəldir.

Sonda vurğulanıb ki, dayanıqlı urbanizasiya yalnız müasir, "ağıllı" və fasiləsiz enerji infrastrukturu üzərində qurula bilər və Azərbaycanın enerji sektoru bu istiqamətdə qlobal standartlara uyğun inkişaf yolunu davam etdirir.

# WUF13-də Xəzər regionunda iqlimədavamlı şəhərlərə və icmalara dair yüksəksəviyyəli dialoq təşkil edilib

Mayın 19-da Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində "Xəzər regionunda iqlimədavamlı şəhərlər və icmalar: Şəhər uyğunlaşması üçün şaquli iqlim maliyyələşdirilməsi" mövzusunda yüksəksəviyyəli dialoq keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbir yüksəkvəzifəli dövlət nümayəndələrini, BMT təmsilçilərini, beynəlxalq maliyyə institutlarını və inkişaf tərəfdaşlarını bir araya gətirib.

Tədbirdə iqlim maliyyəsinin, tərəfdaşlıqların və innovasiyaların miqyaslanabilən və insan mərkəzli şəhər uyğunlaşmasını necə dəstəkləyə biləcəyi müzakirə edilib.

Tədbirin açılış mərasimində çıxış edən ekologiya və təbii sərvətlər nazirinin birinci müavini Ağakərim Səmədzadə iqlim dəyişikliklərinin təsirlərinin hər il daha da kritik xarakter aldığını, artan temperaturun və su ehtiyatlarının azalmasının yeni çağırışlar yaratdığını diqqətə çatdırıb.

Qeyd olunub ki, Xəzər dənizində suyun səviyyəsinin enməsi artıq ciddi problemə çevrilib. Bunun balıqçılıq sahəsindən tutmuş sahilyanı ərazilərdə yaşayan əhalinin həyatına, turizm iqtisadiyyatına və ümumi ekosistemə qədər milyonlarla insanın yaşamına təsir göstərdiyi vurğulanıb.

Diqqətə çatdırılıb ki, Azərbaycan üçün Xəzər dənizi mühüm irs və həssas təbii sistemdir. Bu baxımdan ölkəmiz həm milli, həm də regional səviyyədə mühüm təşəbbüslər irəli sürür.

Tədbir BMT-nin Ətraf Mühit Proqramının Avropa Ofisinin regional koordinatoru Mahir Əliyevin moderatorluğu ilə müzakirələrlə davam edib. Müzakirələrdə BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax, BMT-nin Ətraf Mühit Proqramının




(UNEP) baş katibinin köməkçisi və icraçı direktorunun müavini Elizabeth Maruma Mrema, ekologiya və təbii sərvətlər nazirinin müavini Rauf Hacıyev, Beynəlxalq Miqrasiya Təşkilatının İqlim Fəaliyyəti Bölməsinin direktoru Rania Sharshr və başqaları iştirak ediblər.

# Tarixini qoruyan, gələcəyini quran Azərbaycan

Bəşəriyyətin gələcəyi bu gün yalnız iqtisadi imkanlar, siyasi proseslər və geosiyasi maraqlarla deyil, yaşayış məntəqələrinin necə qurulacağı, insanların hansı mühitdə yaşayacağı, tarixi yaddaşın necə qorunacağı və müasir inkişafın hansı dəyərlər üzərində formalaşacağı ilə də müəyyən olunur. Bu mənada şəhərsalma artıq dövlətlərin mədəni səviyyəsini, idarəçilik modelini, insan amilinə münasibətini və gələcəyə baxışını müəyyən edən əsas strateji istiqamətlərdən hesab edilir.

Məhz belə bir zamanda BMT-nin ən nüfuzlu beynəlxalq platformalarından olan Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) Azərbaycanda keçirilməsi ölkəmizin dünyada artan nüfuzunun, təhlükəsiz və etibarlı tərəfdaş kimi qəbul olunmasının göstəricisidir. Forum çərçivəsində Prezident İlham Əliyev tərəfindən səsləndirilən fikirlər isə şəhərsalma məsələlərinə münasibətdən savayı, həm də Azərbaycanın qədim dövlətçilik ənənələrini, milli-mədəni irsini, müasir inkişaf modelini və gələcəyə baxışını əks etdirən mühüm siyasi strateji mesajlar idi. Dövlətimizin başçısının çıxışı bir daha təsdiq etdi ki, Azərbaycan yalnız enerji resursları və iqtisadi layihələri ilə deyil, həm də şəhərsalma, humanitar əməkdaşlıq, multikultural dəyərlər və davamlı inkişaf sahəsində dünyanın diqqət mərkəzində olan dövlətlərdən birinə çevrilib.

Azərbaycan dünyada tarixən şəhər salan xalq kimi tanınıb. Minilliklər boyu bu torpaqlarda formalaşan şəhər mədəniyyəti, memarlıq məktəbi və urbanizasiya ənənələri xalqımızın yüksək sivilizasiya daşıyıcısı olduğunu sübut edir. Prezident İlham Əliyevin də vurğuladığı kimi, qədim Şamaxı, Gəncə, Naxçıvan, Qəbələ, Şəki kimi şəhərlər böyük mədəniyyət və dövlətçilik mərkəzləri olub. Şamaxıda 743-cü ildə tikilmiş qədim məscid, Naxçıvandakı Möminə Xatun türbəsi, Gəncənin tarixi siması, Qəbələ və Şəkinin qədim abidələri Azərbaycan xalqının memarlıq təfəkkürünün və şəhərsalma ənənələrinin canlı nümunələridir. Bu baxımdan xalqımız şəhər yaradan, şəhər mədəniyyəti formalaşdıran xalq kimi tarixdə iz qoyub.



XIX əsrin ikinci yarısından başlayaraq Azərbaycanda urbanizasiya prosesi yeni mərhələyə qədəm qoydu. Xüsusən Bakının neft sənayesinin inkişafı ilə dünyanın diqqət mərkəzinə çevrilməsi şəhərsalma prosesinə yeni nəfəs gətirdi. Avropa memarlarının Bakıda inşa etdikləri binalar, İçərişəhərlə müasir Bakının harmoniyası, qədimliklə yeniliyin vəhdəti ölkəmizin memarlıq konsepsiyasının əsasını təşkil edir. Prezident İlham Əliyevin sözləri ilə desək "Bakıda qədimliklə yenilik, tarixi irsin qorunması ilə müasirləşmə arasında təbii vəhdət" yarandı.

Bu gün həmin siyasət sistemli, genişmiqyaslı və məzmunlu şəkildə davam edir. Daha dəqiq desək, ölkəmizdə müasirləşmə tarixi yaddaşın qorunması ilə paralel aparılır. Prezident çıxışında Bakıdakı İçərişəhər, Qız qalası və Bakı bulvarı kimi məkanları təsadüfən xüsusi vurğulamadı. Bu nümunələr müasir tikililərlə birlikdə Azərbaycan dövlətinin milli-mədəni irsə münasibətinin göstəriciləridir.

Bu istiqamətdə həyata keçirilən tədbirlərin müəllifləri isə Prezident İlham Əliyev və Mehriban xanım Əliyevadır. Son illər Azərbaycanda aparılan genişmiqyaslı abadlıq işləri, şəhərsalmada yeni mərhələnin başlanması, park və bulvarların, yeni yaşayış massivlərinin salınması, tarixi abidələrin bərpası, müasir infrastruktur layihələrinin icrası birbaşa dövlət başçısının və Birinci vitse-prezidentin diqqət və nəzarəti altında həyata keçirilir. Onu da xüsusi qeyd etmək yerinə düşər ki, ölkəmizdə şəhərsalma siyasəti, sadəcə, tikinti və abadlıq anlayışı daşımır. Bu siyasətin əsasında insan amili, rahat yaşayış mühiti, milli kimliyin qorunması və müasir şəhər idarəçiliyi dayanır. Dövlətimizin başçısının 2026-cı ili "Şəhərsalma və Memarlıq İli" elan etməsi də bu sahəyə verilən strateji əhəmiyyətin göstəricisidir.

İşğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma işləri müasir şəhərsalma tarixinin unikal nümunəsi kimi qiymətləndirilir. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, Ermənistan tərəfindən viran qoyulmuş şəhərlər, o cümlədən Ağdam beynəlxalq müşahidəçilər tərəfindən "Qafqazın Xirosiması" adlandırılıb. Lakin cəmi 5 il ərzində həmin ərazilərdə nəhəng quruculuq proqramı həyata keçirildi. Artıq Ağdamı yeni şəhərsalma mədəniyyətinin nümunələrindən biri kimi dəyərləndirsək, səhv etmərik. Qarabağın incisi Şuşa yenidən qurulur, qədim qala divarları və tarixi abidələr bərpa edilir, Laçında, Kəlbəcərdə, Cəbrayılda, Füzulidə, Ağdərədə, Zəngilanda "ağıllı kənd" və "ağıllı şəhər" layihələri həyata keçirilir. Müasir texnologiyalar, "yaşıl enerji", ekoloji yanaşma və innovativ idarəetmə prinsipləri bu layihələrin əsasını təşkil edir.

Artıq keçmiş məcburi köçkünlər doğma torpaqlarına qayıdır, yaşayır, işləyir və təhsil alırlar. Yeni məktəblər, xəstəxanalar, hava limanları, yollar, körpülər, tunellər və sənaye zonaları Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda həyata keçirdiyi nəhəng şəhərsalma konsepsiyasının tərkib hissəsidir.

Bu gün Azərbaycanın unikallığı yalnız şəhərsalma sahəsində deyil. Dünyada müharibələrin, qarşıdurmaların və siyasi gərginliyin artdığı bir dövrdə ölkəmiz qlobal əməkdaşlıq və dialoq məkanına çevrilib. Qısa müddət ərzində BMT-nin COP29 və WUF13 kimi nəhəng beynəlxalq tədbirlərinin Bakıda keçirilməsi ölkəmizin beynəlxalq nüfuzunun göstəricisidir. WUF13 Forumunda 182 ölkədən 45 mindən çox iştirakçının qeydiyyatdan keçməsi Azərbaycanın beynəlxalq etimad qazandığını bir daha nümayiş etdirir. Bu gün Bakı dünyanın mühüm beynəlxalq tədbirlər keçirilən mərkəzlərindən birinə çevrilib.

Azərbaycan coğrafi baxımdan böyük əraziyə malik dövlət olmasa da, siyasi çəkisi, iqtisadi gücü və beynəlxalq proseslərə təsir imkanları ilə seçilən nüfuzlu bir dövlətdir. Ölkəmiz dünyada həm də enerji təhlükəsizliyi məsələlərinin müzakirə olunduğu əsas platformalardan biri kimi tanınır. Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan Azərbaycan eyni zamanda nəqliyyat-logistika layihələri, humanitar əməkdaşlıq, multikulturalizm və beynəlxalq dialoq sahəsində də mühüm təşəbbüslərlə çıxış edir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində Azərbaycan həm qədim tarixini qoruyan, həm də gələcəyin modern şəhərlərini quran dövlət modeli ortaya qoyur. WUF13 çərçivəsində səsləndirilən fikirlər bir daha göstərir ki, Azərbaycan yalnız öz şəhərlərini yenidən qurmur, eləcə də regionun gələcək inkişaf modelini formalaşdırır.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU

WUF13

WORLD URBAN FORUM

# "Şəhərlər üçün süni intellekt - şəhərsalma və ağıllı, dayanıqlı icmaların qurulması" adlı panel sessiya keçirilib

Bakıda keçirilən BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində "Şəhərlər üçün süni intellekt - şəhərsalma və ağıllı, dayanıqlı icmaların qurulması" mövzusunda sessiya təşkil olunub.

AZƏRTAC xəbər verir ki, tədbir Beynəlxalq Telekommunikasiya İttifaqı (ITU), BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) və Azərbaycan hökumətinin birgə təşkilatçılığı ilə baş tutub.

Sessiyada süni intellektəsaslı həllərin şəhərsalma, qərar qəbuletmə, dayanıqlı infrastrukturun qurulması və insan mərkəzli şəhərlərin inkişafındakı rolu müzakirə edilib. Tədbirdə "United for Smart Sustainable Cities" (U4SSC) təşəbbüsü çərçivəsində hazırlanan və dünyanın 250-dən çox şəhərində tətbiq olunan "Ağıllı Dayanıqlı Şəhərlər üzrə Əsas Performans Göstəriciləri"nin (KPI) əhəmiyyəti vurğulanıb.

Bildirilib ki, bu göstəricilər şəhərlərə məlumat və analitika əsasında mənzil siyasətinin, xidmət keyfiyyətinin, infrastruktur dayanıqlılığının və ümumi həyat səviyyəsinin yaxşılaşdırılmasına imkan yaradır. Sessiya çərçivəsində U4SSC təşəbbüsünün bir sıra yeni sənədləri və praktiki alətləri də təqdim olunub. Tədbirdə həmçinin bu il mayın 11-də keçirilmiş "3-cü BMT Virtual Dünyalar Günü"nün nəticələri müzakirə edilib. Çıxışlarda süni intellekt, rəqəmsal əkizlər, virtual mühitlər, məkan intellekti və agentəsaslı sistemlərin şəhər idarəçiliyi və dayanıqlılıq strategiyalarında tətbiq imkanlarına toxunulub.

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov çıxışında Azərbaycanın süni intellekt və data mərkəzləri sahəsində regional hab kimi mövqeyini gücləndirməyi planlaşdırdığını bildirib. Onun sözlərinə görə, Qafqaz, Mərkəzi Asiya və qonşu bazarlarda data mərkəzlərinə tələbat təxminən 850 meqavat həcmində qiymətləndirilir, halbuki mövcud regional təklif cəmi 30 meqavat təşkil edir. Nazir müavini qeyd edib ki, Azərbaycanın üstünlükləri sırasında 2 giqavatdan çox artıq enerji gücü, inkişaf mərhələsində olan 10 giqavatlıq "yaşıl enerji" layihələri, rəqabətqabiliyyətli elektrik tarifləri, tam fiber-optik şəbəkə əhatəsi və Avropanın əsas internet mübadilə nöqtələrinə çıxış yer alır.

Samir Məmmədov əlavə edib ki, uzunmüddətli perspektivdə Azərbaycanda 30-50 min qrafik prosessor (GPU) yerləşdirilməsi nəzərdə tutulur və bu istiqamətdə aparıcı qlobal texnologiya şirkətləri ilə müzakirələr aparılır.

Beynəlxalq Telekommunikasiya İttifaqının Telekommunikasiya Standartlaşdırma Bürosunun direktoru Seizo Onoe isə bildirib ki, süni intellektin uğurlu tətbiqi effektiv dövlət idarəçiliyi, innovasiya, etibarlı standartlar və qarşılıqlı fəaliyyət sistemlərindən asılıdır.

"İnnovasiyalarda irəliləyiş və texnologiyaların effektiv işləməsi üçün şirkətlər, biznes tərəfdaşları və hökumətlər arasında səmərəli kommunikasiya tələb olunur. Bu gün bunun əhəmiyyəti əvvəlkindən daha da artıb", - deyə o vurğulayıb.

BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax isə çıxışında şəhərlərdə mənzil böhranı və iqlim dəyişmələri fonunda rəqəmsal texnologiyalar və süni intellektin mühüm rol oynadığını bildirib. O qeyd edib ki, "ağıllı şəhər" yanaşmaları insan mərkəzli olmalı, insan hüquqları, inklüzivlik və bərabərlik prinsiplərinə əsaslanmalıdır.

Sessiyada həmçinin ICLEI təşkilatının direktoru Metyu Bax, Moskva hökumətinin müşaviri Dmitri Ontoyev və Quançjou Şəhər İnnovasiyaları İnstitutunun icraçı direktoru Nikolas Yu iştirak ediblər.

# WUF13 çərçivəsində qlobal mənzil böhranına dair müzakirələr aparılıb

Bakıda davam edən BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində "Qlobal mənzil böhranı: Plan nədir? Həlləri həqiqətən dünyanı özündə birləşdirə biləcək sistemlərə necə çevirə bilərik?" adlı dialoq sessiyası keçirilib.

AZƏRTAC xəbər verir ki, qlobal media brendi "Monocle"nin baş xarici müxbiri Karlota Miqel Karreyra Rebelonun moderatorluğu ilə keçirilən sessiyada BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax qlobal mənzil böhranının həlli istiqamətində konkret müzakirələrin vacibliyini bildirib.

Mənzilə əlçatanlıqla bağlı problemin hazırda dünyada üç insandan birini əhatə etdiyini bildirən Anaklaudia Rossbax əlavə edib: "Yəni bu, qlobal böhrandır, sistemli çatışmazlıqdır. Mənzil təminatı şəhərlər üçün çox önəmlidir. Şəhərlər yaxşı yerləşdirilmiş xidmətlər təmin etməli, daha məhsuldar, rəqabətli və inklüziv olmalıdır. Ailələr gəlirlərinin üçdəbirini məhz mənzil üçün xərcləyir. Bu parametr təbii ki, bütün coğrafiyalar üçün eyni deyil. Hazırda iki milyard insan şəhərlərdə yaşayır". O qeyd edib ki, dünyada 2 milyarddan çox insanın təhlükəsiz içməli suya çıxışında problem var. Eyni zamanda kanalizasiya problemi yaşayan insanların da sayı həddindən artıq çoxdur.

"2050-ci ilədək dünya əhalisinin artacağını bilirik. İki milyard insan şəhərlərə gəlir və şəhərlər ətrafında yerləşir. Bunu əsasən Asiya və Afrikada görürük. İnkişafın və artımın yarısı məhz şəhərlərdə baş verir. Bu, yumşaq keçid deyil, əslində, şəhərsalma və urbanizasiyanın ən sürətli prosesidir", - deyə icraçı direktor bildirib.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Aparat rəhbərinin müavini, WUF13-ün milli əlaqələndiricisinin müavini Gülşən Rzayeva mənzil təminatında inteqrasiya olunmuş şəhərsalma planlaşdırmasının vacibliyini qeyd edib. O, mənzil məsələsinin hazırda qlobal böhran olduğunu, bu istiqamətdə təhlükəsiz və dayanıqlı sistemin əhəmiyyətini önə çəkib, böhranın həllində maliyyə institutlarının dəstəyinin mühüm rolunu qeyd edib.

Gülşən Rzayeva Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən "Böyük qayıdış" proqramının əhəmiyyətindən danışıb, bu prosesin Yeni Şəhər Gündəliyinin prinsiplərinin tətbiqinə dair ən güclü nümunələrdən biri olduğunu deyib.



Avropa İttifaqının enerji və mənzil siyasəti üzrə komissarı Dan Yorgensen sessiya iştirakçılarına videomüraciətində deyib: "Mənzil böhranı insanların rəqabətinə təhdid yaradır, təhsilinə və tədrisinə problem yaradır. Gənclər yeni ailə qurmaq üçün evini tərk edə, yeni evə sahib ola bilmirlər. Qlobal mənzil böhranından ən çox əziyyət çəkən gənclərdir. Onların sosial evlərə çıxışı olmur, həmçinin işsizlərin sayı artır. Avropa İttifaqı ölkələrində milyonlarla evsiz insan var. Onların 35 faizi gənclərdir. Bu rəqəmlər həqiqətdir və qəbuledilməzdir".

Mənzilə çıxış üçün aşağı gəlirin baryer olmamasının vacibliyini qeyd edən Dan Yorgensen bildirib ki, Avropa İttifaqının da bu böhranın həlli istiqamətində oynayacağı rol var: "Biz axını müsbət istiqamətdə dəyişə bilərik. Hər kəsin mənzillə təmin olunması üçün plan həyata keçirməyə çalışırıq. Biz keyfiyyətli mənzilə fokuslanırıq. Çünki insanların həyatı önəmlidir. Həmçinin biz yaxşı icmalar qurmalıyıq. Tələbələr və evsiz insanlar bu böhrandan ən çox əziyyət çəkənlərdir. Biz bu böhranı birlikdə həll edə və dəyişikliklərə nail ola bilərik. Çünki bütün dünyada mənzil problemi həll olunmalıdır".

BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı Volker Türk isə videomüraciətində WUF13-ün impuls yaratmaq və dünyamızı daha dayanıqlı yerə çevirmək üçün fürsət olduğunu deyib. Qeyd edib ki, bütün dövlətlər, yerli hakimiyyət orqanları insan hüquqlarına hörmət edərək bunları etməlidirlər. Mənzil təminatı siyasətləri daha dayanıqlı və daha inklüziv cəmiyyətlər üçün çalışmalıdırlar. İnsanların qərarvermə prosesində iştirakı təmin edilməlidir. Çünki insan hüquqları bir lüks deyil. İnsanlar hər şeydən qorunmalıdırlar.

"İqlim böhranı artdığı üçün biz infrastrukturları buna uyğun qurmalıyıq. Biz həmçinin infrastrukturlar üçün lazımi maliyyə strukturlarını yaratmalıyıq. Siyasi iradə, bir yerdə işləmək istəyi hər yerdə insanlar üçün həll yolları tapmağa kömək edə bilər", - deyə o əlavə edib.

Panel müzakirələrdə Kolumbiya Universitetinin professoru, Davamlı Həllər Şəbəkəsinin direktoru Cefri Devid Saks, BMT-nin adekvat mənzil hüququ üzrə xüsusi məruzəçisi Koldo Kasla, "Pontificia Universidad Catolica de Chile"nin professoru Marqarita Qrin, Beynəlxalq Habitat Koalisiyasının prezidenti Qreys Çikumo-Mtonqanın mövzu ilə bağlı məruzələri dinlənilib.

Sessiya çərçivəsində tarixçi və tədqiqatçı Fuad Axundov Bakı tarixi və memarlığı üzrə təqdimatla çıxış edib.

Qeyd edək ki, 162 ölkədən əyani və onlayn formatda 25 mindən çox iştirakçını bir araya gətirən WUF13 dünyanın ən iri Ümumdünya Şəhərsalma forumlarından biri kimi qiymətləndirilir. WUF13 müxtəlif region və sektorlar üzrə geniş beynəlxalq iştirakı ilə davamlı şəhər inkişafı sahəsində dialoq və fəaliyyət üçün aparıcı qlobal platforma rolunu bir daha təsdiqləyir.

# WUF13-də BMT-nin Məskunlaşma Proqramının "World Cities Report 2026" hesabatı təqdim olunub

Mayın 19-da Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF 13) çərçivəsində BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) tərəfindən "World Cities Report 2026" hesabatının təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirə UN Habitat-ın nümayəndəsi Edlam Yemeru moderatorluq edib.



Sonra BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Anaklaudia Rossbax "dəyirmi masa"da videoformat şəklində çıxış edib. Bildirib ki, dünyada baş verən bir sıra proseslər məskunlaşma kasadlığına gətirib çıxarır: "Qlobal məskunlaşma onilliklər ərzində yaranan problemdir. Milyonlarla insan qeyri-təhlükəsiz şəraitdə yaşayır. Onların ən elementar xidmətlərə belə əlçatanlılığı yoxdur. Hazırda 123 milyon insan qaçqın və məcburi köçkün halına düşüb. Bu da yerli əhalinin yoxsulluğuna gətirib çıxarır. Hər bir kəsin adekvat məskunlaşmağa nail olması yoxsulluğun azaldılmasına gətirib çıxara bilər. Bu hesabat bizə Yol Xəritəsi təqdim edir ki, hansı işləri həyata keçirə bilərik".

UN-Habitatın bölmə rəhbəri Benedikt Arimah bildirib ki, hazırlanmış hesabat qlobal məskunlaşma böhranına həsr olunub və burada əsas diqqət konkret həll yollarına yönəldilib: "Hesabatda qlobal məskunlaşma sahəsində mövcud olan böhran, problemlər və çətinliklər, eləcə də bu prosesə uyğun tərəfdaşların və əməkdaşların necə cəlb olunmalı olduğu ətraflı şəkildə təhlil edilir. Biz hesabat çərçivəsində beş əsas meyar üzərində dayanmışıq. Bunlar mənzil əlçatanlığı, qeyri-formal məskunlaşma, iqlim riskləri və dayanıqlılıq, iqlim dəyişikliklərinin təsiri, həmçinin inklüziv şəhərlərin formalaşdırılmasıdır. Bundan əlavə, hesabat daha yeddi əlavə göstəricini də özündə ehtiva edir. Hesabatın birinci bölməsində əsas diqqət mövcud böhranın mahiyyətinə və səbəblərinə yönəlib. İkinci bölmədə bu sahədə qəbul olunmuş siyasətlər və tətbiq edilən yanaşmalar təhlil olunur. Üçüncü bölmədə isə böhranın əsas göstəriciləri, hökumətlərin bu problemlərə hansı yollarla həll tapa biləcəyi, maliyyə mexanizmləri və digər çıxış yolları araşdırılır. Araşdırmaların nəticələrinə görə, hazırda 3,4 milyard insan adekvat məskunlaşma imkanlarından məhrumdur. Bu, qlobal səviyyədə olduqca ciddi problemdir. Bir çox halda əhalinin gəlirinin 30 faizi mənzil xərclərinə sərf olunur və bəzi hallarda bu göstərici 50 faizə qədər yüksəlir. Bəzi ölkələrdə isə insanların gəlirlərinin 11 faizi yalnız mənzil xərclərinə yönəlir. Mərkəzi və Cənub-Şərqi Asiya regionlarında bu göstərici 56 faizə çatır. 2010-cu ildən etibarən milyonlarla insan bu problemlərlə üzləşir, bir çox insan isə qaçqın həyatı yaşayaraq məskunlaşma çətinlikləri ilə qarşılaşır. Proqnozlara əsasən, 2040-cı ilə qədər təbii fəlakətlərin vuracağı iqtisadi zərər 280 milyard dollara çatacaq və bu vəziyyət insanların mənzil əldə etməsini daha da çətinləşdirəcək. Həmçinin 1,4 milyard insan qeyri-formal məskunlaşmaqdadır. Bütün bu rəqəmlər narahatlıq doğurur".

Meksikanın Milli Elm və Texnologiya Şurasının tədqiqatçısı Hector Becerril Miranda problemləri həll etmək üçün ilk növbədə, hüquqi tənzimləməyə baxılmalı olduğunu vurğulayıb. O, şəhər əhalisinin kollektiv hüquqlardan necə faydalanmalı olduğuna və birgə fəaliyyətin vacibliyinə toxunub. Vahid tənzimləmə prosesinin əhəmiyyətinə toxunaraq, şəhərsalma proseslərinin qanunauyğun şəkildə həyata keçirilməsindən söz açıb. Niderlandın Erasmus Rotterdam Universitetinin Mənzil və Şəhər İnkişafı Araşdırmaları İnstitutunun baş direktoru David Dodman hesabatda məskunlaşma ilə bağlı problemin əhatəli qeyd olunduğunu deyib. O, adekvat mənzil gündəliyinin iqlim baxımından dayanıqlı struktura çevirməyin vacibliyinə toxunub. Mənzillərin harada yerləşməsinə və hansı risklərə məruz qalmasına diqqət çəkib. Həmçinin mənzillərin tikintisinin iqlim risklərinə tab gətirməsinin vacibliyindən danışıb.

Böyük Britaniyanın Liverpool Universitetinin professoru Taibat Lawanson çıxışı zamanı mənzil təminatının yalnız tikinti prosesi deyil, kompleks yanaşma tələb edən mühüm sosial-iqtisadi məsələ olduğunu bildirib. Onun sözlərinə görə, bu sahədə həm satış və tikinti mərhələləri, həm də sonrakı sosial və iqtisadi təsirlər diqqətlə nəzərə alınmalıdır: "Biz mənzil təminatına bütöv bir proses kimi baxmalıyıq. Mənzillər elə şəkildə təmin olunmalıdır ki, insanlar sonradan məcburi köçürülmə və digər çətinliklərlə üzləşməsinlər. Bunun üçün şəhərlərin inkişaf parametrləri nəzərə alınmalı, yerli və bələdiyyə orqanları isə imkanları düzgün prioritetləşdirməlidirlər. Əsas məqsəd insanların mənzil təminatı zamanı çətinliklərlə qarşılaşmasının qarşısını almaqdır".

Pakistanın Pəncab əyalətinin Əlçatan Mənzil Proqramının direktoru İmran Ali Sultan dünyada mənzil böhranının dərinləşməsinə diqqət çəkib. Məhkəmə və bank sektorunun mənzil böhranı zamanı oynadığı rola toxunub. Qeyd edib ki, bəzən məskunlaşma ilə bağlı qanunun qəbul edilməsi üçün 3 ilə yaxın vaxt tələb olunur: "Həll yolunu hazırlamağa çalışanda reallığı daha çox nəzərə alırıq. Elə həll yolu tətbiq etməliyik ki, elastiklik nəzərə alınsın".

Çinin Şəhər və Ətraf Mühit Araşdırmaları Mərkəzinin universitet tədqiqatları üzrə direktoru Yunqing Xu qeyd edib ki, hazırlanan qlobal hesabat yalnız qlobal meyilləri əks etdirmir, həmçinin yerli kontekstlərə uyğunlaşdırılması ilə də diqqəti cəlb edir. Onun sözlərinə görə, bu məsələdə əsas məqam düşüncə tərzinin dəyişməsidir: "Məskunlaşma hər kəs üçün vacib məsələdir. Məqsəd insanların istənilən böhran vəziyyətində həyat şəraitinin yaxşılaşdırılmasına dəstək göstərməkdir. Hər kəs anlamalıdır ki, bu məsələ olduqca kompleks xarakter daşıyır və əgər bu, nəzərə alınmasa, mövcud böhran daha da dərinləşə bilər. Buna görə də mümkün qədər çox insanın bu dialoqa cəlb olunması vacibdir", - deyə o vurğulayıb.

Tədbir sual-cavab sessiyası ilə başa çatıb.

# WUF13-də Dayanıqlı İnkişaf Məqsədlərinin maliyyələşdirilməsinin lokallaşdırılması mövzusunda sessiya keçirilib

Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində "Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı - Yerli Maliyyələşdirmə Çərçivələri və Alətlərinin İnteqrasiyası Vasitəsilə Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) Maliyyələşdirilməsinin Lokallaşdırılması (Yerli 2030 Koalisiyası)" mövzusunda sessiya keçirilib.




AZƏRTAC xəbər verir ki, Yerli 2030 Koalisiyasının 2-ci İşçi Qrupunun DİM-lərin Lokallaşdırılmasının Maliyyələşdirilməsi tərəfindən təşkil olunan sessiyada yerli və regional hökumətlərə DİM-lər üçün maliyyənin lokallaşdırılmasını sürətləndirmək məqsədilə İnteqrasiya Olunmuş Yerli Maliyyələşdirmə Çərçivələrini (ILFF) və Alətlərini tətbiq etməkdə dəstək olan qrupun və onun üzvlərinin fəaliyyəti nümayiş etdirilib.

Yerli 2030 Koalisiyasının sədrinin müavini İnyigo Arbiolun moderatorluğu ilə keçən sessiyada inteqrasiya olunmuş maliyyələşdirmə yanaşmalarının artıq tətbiq olunduğu konkret ölkə təcrübələri təqdim edilib.

Çıxışçılar İLFF-lərin və maliyyə alətlərinin tətbiqi sahəsindəki tərəqqini, bunun təsiri ilə bağlı araşdırmaların nəticələrini açıqlayıblar.

Videomüraciətlə çıxış edən İspaniyanın Xarici İşlər, Avropa İttifaqı və Əməkdaşlıq Nazirliyinin davamlı inkişaf siyasətləri üzrə baş direktoru Serxio Kolina maliyyələşmədə lokal aktorların rolunu, şəhərsalmada bu məsələlərin nəzərə alınmasının önəmini qeyd edib. Maliyyələşmədə yerli qurumların cəlbinin əhəmiyyətini vurğulayan natiq koordinasiya platformasının faydası barədə danışıb.

BMT-nin İnkişaf Proqramının siyasət və proqram dəstəyi bürosunun direktor müavini Francine Pickup çıxışında DİM-in və digər qlobal öhdəliklərin reallığa çevrilməsi üçün maliyyələşmə, struktur islahatları və beynəlxalq əməkdaşlığın rolunu vurğulayıb. Qeyd edib ki, 2030-cu ilə qədər qarşıya qoyulan hədəflər, sadəcə, tövsiyə deyil, dövlətlər, şəhərlər və əyalətlər səviyyəsində yerinə yetirilməli olan ciddi öhdəliklərdir. İnteqrasiya Olunmuş Milli Maliyyə Çərçivələri (INFF) dövlət və özəl sektor arasında əməkdaşlıq qurur, vergi siyasətini uyğunlaşdırır və lazımi prioritetlərə investisiya yatırılması üçün mexanizm rolunu oynayır. Prosedurların uğurlu olması üçün məsələlərə təkcə kiçik layihələr səviyyəsində deyil, güclü siyasi iradə nümayiş etdirərək sistemli şəkildə yanaşılmalı və milli maliyyə mexanizmləri qurulmalıdır.

Pakistandan olan nümayəndə Muhammed Mahmeed qeyd edib ki, ölkəsi yerli səviyyədə idarəetməni iqlim dəyişikliklərinə uyğunlaşdırıb: "Bununla bağlı bələdiyyənin gücləndirilməsi, DİM və inteqrativ yanaşma ətraf mühitlə bağlı məsələləri dayanıqlı şəkildə aparmağa imkan verir. Məqbul qiymətə yaşayış, inklüziv modellərin olması yeni şəhər mühitinə uyğunlaşmağa imkan verəcək".

Meksikanın Nuevo Leon ştatının texniki məsələlər üzrə katibi Anna Fernanda Hierro bunları deyib: "Bizim müəyyən maliyyə çərçivələrimiz mövcuddur. Halbuki bizim hələ də maliyyə problemlərimiz mövcuddur və hökumətin illik dəstəyə ehtiyacı var. Biz sosial və akademik sektorları dəstəkləyirik. Bizim yeni strategiyamız olmalıdır ki, təcrübələr əldə edə bilək".

BMT-nin Ətraf Mühit Proqramının Submilli İqlim Fəaliyyəti rəhbəri Şeron Gil çıxışında qeyd edib ki, sözügedən proqramın əsas vəzifəsi ətraf mühitin gündəliyində boşluqları və çağırışları müəyyən etməkdir: "Biz həmkarlarımızla sıx əməkdaşlıq edirik və ətraf mühitin qorunmasını necə effektiv maliyyəşdirməklə bağlı imkanları nəzərdən keçiririk, müxtəlif proqramları icra edirik. Onlardan biri "İstiliyə qalib gəl" proqramıdır. Bu proqramı 230 şəhər dəstəkləyir".

Qeyd olunub ki, yerli maliyyə alətləri və yerli maliyyələşdirmə kanallarını gücləndirmək üçün innovativ metodologiyalar şəhər və regional hökumətlər tərəfindən qəbul edilir, tətbiq olunur və genişləndirilir.

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM




# Azərbaycanın inkişaf və quruculuq modeli dünya üçün örnəkdir

## Prezident İlham Əliyev "Euronews" televiziyasına müsahibəsində ölkəmizin unikal tərəqqi formulunu və uğurlarını dünyaya təqdim etdi

Qlobal miqyaslı təşəbbüslərin müəllifi kimi çıxış edən Azərbaycan növbəti dəfə planetin mühüm müzakirə məkanına çevrilib. COP29-un böyük uğurlarından sonra rəsmi Bakının evsahibliyi etdiyi Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası ölkəmizin beynəlxalq arenadakı nüfuzunu və qərarverici çəkisini bir daha təsdiqləyir. Beynəlxalq medianın, xüsusilə siyasi-iqtisadi elitanın diqqət mərkəzində olan bu tədbir rəsmi Bakının strateji mesajlarının dünya ictimaiyyətinə birbaşa çatdırılması baxımından önəmli tribuna rolunu oynayır.

Bu kontekstdə Azərbaycan Prezidenti İlham Əliyevin mayın 18-də dünyanın nüfuzlu kanallarından olan "Euronews" televiziyasına verdiyi eksklüziv müsahibə böyük maraq doğurur. Müsahibədə dövlətimizin başçısının şəhərsalma innovasiyalarından Qarabağın sıfırdan bərpasına, Avropanın enerji təhlükəsizliyindən Yaxın Şərqdəki böhrana qədər bir çox mühüm regional və qlobal məsələyə dair prinsipial mövqeyi əksini tapıb.

Qeyd edək ki, geniş auditoriyaya malik "Euronews" televiziya kanalı dünyanın aparıcı informasiya şəbəkələrindən biridir. Televiziya hadisələrə obyektiv prizmadan yanaşdığı üçün izləyici kütləsinin böyük qismini qərarverici şəxslər, dövlət rəsmiləri, diplomatlar, iş adamları, analitiklər və beynəlxalq təşkilatların nümayəndələri təşkil edir. Dövlətimizin başçısının müxtəlif dövrlərdə bu kanala verdiyi müsahibələrin hər biri strateji mesajlarla zəngindir.

### WUF13 ölkəmizin beynəlxalq arenadakı nüfuzunun əyani sübutudur

Prezident İlham Əliyevin müsahibəsində diqqət mərkəzinə gətirilən mühüm məqam Azərbaycanın humanitar və ekoloji platformaların əsas mərkəzinə çevrilməsi reallığıdır. Dövlətimizin başçısı WUF13-ün əhəmiyyətini və Azərbaycanın qlobal arenadakı nüfuzunu belə şərh edib: "Əlbəttə, WUF13-ə evsahibliyi etmək bizim üçün böyük şərəfdir. Burada 182 ölkə təmsil olunur. Bu isə Azərbaycana göstərilən hörmətin bariz nümunəsidir. Bildiyimə görə, iştirakçıların sayı rekord həddə çatıb. Bu da həm mövzunun nə qədər mühüm olduğunu, həm də ev sahibi ölkənin geniş beynəlxalq əlaqələrə malik olduğunu nümayiş etdirir".

Azərbaycan Prezidenti vurğulayıb ki, bu forum indiyədək görülən işlər və gələcək planlar barədə auditoriyaya və beynəlxalq ictimaiyyətə məlumat vermək baxımından da bir fürsətdir: "Çünki iştirak səviyyəsi, dövlət və hökumət başçılarının sayı göstərir ki, bu gün şəhərsalma məsələləri bir çox dünya liderlərinin diqqət yetirdiyi mövzulardan biridir".

Dövlətimizin başçısının bəyan etdiyi kimi, Azərbaycanın WUF13-ə evsahibliyi etməsi ölkəmizin beynəlxalq arenadakı artan nüfuzunun və böyük miqyaslı tədbirləri yüksək səviyyədə təşkil etmək bacarığının növbəti əyani sübutudur. Forumda bu dərəcədə geniş coğrafiyanın və yüksəksəviyyəli rəsmi heyətlərin təmsil olunması mahiyyət etibarilə beynəlxalq birliyin Azərbaycana olan etimadının və hörmətinin göstəricisidir. Ən önəmlisi odur ki, bu platforma ölkəmizin dayanıqlı inkişaf sahəsində qazandığı uğurları və gələcək vizyonunu dünya ictimaiyyətinə təqdim etmək baxımından əvəzsizdir. Forum çərçivəsində Azərbaycan indiyədək reallaşdırdığı genişmiqyaslı layihələri nümayiş etdirir, həmçinin xarici tərəfdaşların qabaqcıl təcrübəsindən faydalanmaq imkanı qazanır.

Müsahibədə şəhərlərin gələcək inkişaf konseptinə toxunan ölkə rəhbəri urbanizasiya prosesində milli-memarlıq ənənələrinin qorunmasının vacibliyini önə çıxarıb. Azərbaycanın bu sahədəki yanaşması ondan ibarətdir ki, müasirləşmə və texnoloji yeniliklər şəhərlərin tarixi simasını, mədəni irsini kölgədə qoymamalıdır. Əksinə, tarixi-memarlıq irsinin qorunması ilə müasir infrastruktur quruculuğu bir-biri ilə harmoniya təşkil etməlidir.

### Azərbaycanın sıfırdan quruculuq modeli

Azərbaycan dünyaya özünün unikal şəhərsalma təcrübəsini təqdim edir. Prezident İlham Əliyev Qarabağ və Şərqi Zəngəzurda tətbiq olunan "ağıllı və yaşıl model"in dünya üçün əhəmiyyəti barədə bunları vurğulayıb: "Düşünürəm ki, biz bu günədək şəhər və kəndlərin sıfırdan qurulması ilə bağlı misilsiz təcrübə formalaşdırmışıq. Təəssüf ki, işğal altında olmuş ərazilərin genişmiqyaslı dağıntılara məruz qalması bizi buna vadar etdi. Mərhələli yanaşma, bəzi hallarda isə paralel inkişaf nəticəsində beş ilə artıq 85 min insanın doğma torpaqlarına qayıdışını təmin etmişik". Dövlətimizin başçısı diqqətə çatdırıb ki, yenidənqurmanın ilk illərində əsas sərmayə infrastrukturun yaradılmasına yatırılıb: "Hazırda isə əsas sərmayələrimiz yaşayış sahələrinin tikintisinə yönəldilib - şəhərlərin Baş planları, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları üzrə layihələr həyata keçirilir. Hər bir kənd üzrə planlar icra edilir. Beləliklə, hesab edirəm ki, bizim təcrübəmiz bənzər problemlərlə üzləşmiş ölkələrə yenidənqurma üçün bir nümunə ola bilər".

Qarabağ və Şərqi Zəngəzur bölgələrində həyata keçirilən irimiqyaslı bərpa-quruculuq işləri müasir şəhərsalma tarixində tamamilə yeni səhifə açır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, işğal dövründə yerlə yeksan edilmiş böyük bir regionun sıfırdan qurulması istiqamətində ölkəmiz misilsiz təcrübə formalaşdırıb. Azərbaycanın nümayiş etdirdiyi idarəetmə və çevik icra mexanizmi analoqu olmayan uğur hekayəsidir. Beş il kimi qısa müddət ərzində əldə olunan göstəricilər postmünaqişə dövründə əhalinin reinteqrasiyası baxımından mühüm meyardır.

İşğaldan azad edilmiş ərazilərin bərpası eyni zamanda regional ekosistemin qorunması yanaşmasına əsaslanır. Bölgədə 307 meqavat gücündə hidroenerji potensialı tam işə salınıb. Bununla paralel olaraq, 340 meqavat gücündə Günəş enerjisi stansiyalarının inşası sürətlə davam edir. Bərpa prosesi təsdiq olunmuş baş plan, eləcə də "ağıllı şəhər" konsepsiyaları əsasında aparılır. Dəmir yolları, müasir xəstəxanalar, məktəblər və rəqəmsal idarəetmə sistemləri sinxron şəkildə vəhdət təşkil edir. Azərbaycanın tətbiq etdiyi bu mükəmməl model bənzər humanitar və infrastruktur böhranları ilə üzləşmiş hər bir ölkə üçün unikal yol xəritəsidir.

### Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır

Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rol dünya iqtisadiyyatının ən mühüm reallıqlarından biridir. Prezident İlham Əliyev müsahibəsində bu əməkdaşlığın tarixi köklərinə, xüsusilə son illərdə qazandığı böyük dinamikaya diqqət çəkib: "Biz Avropa ilə enerji sahəsində əməkdaşlığa müəyyən müddət əvvəl başlamışıq. Xüsusilə 2020-ci ildən sonra - "Cənub qaz dəhlizi"nin istifadəyə verilməsi ilə bu proses daha da sürətlənib. Hazırda həmin dəhliz vasitəsilə 16 ölkəyə təbii qaz ixrac olunur. Boru kəmərləri vasitəsilə qaz tədarük etdiyimiz ölkələrin sayına görə biz dünyada birinci yerdəyik. Bu rəqəm artmaqdadır. Avropa İttifaqının 10 üzv dövləti bizim müştərimizdir. Ümumilikdə isə 12 Avropa ölkəsi Azərbaycandan qaz alır. Ölkələrin sayı artır. Bizimlə əməkdaşlığa başlamaq istəyən ölkələrin müraciətlərinin sayı da artmaqdadır".

Bu gün Azərbaycan Avropanın enerji mənbələrini real və etibarlı şəkildə şaxələndirən əsas qlobal oyunçulardan biridir. Azərbaycan boru kəmərləri vasitəsilə qaz nəql etdiyi tərəfdaş ölkələrin coğrafi şaxələndirilməsinə və sayına görə dünyada birinci yerə yüksəlib. Bu da ölkəmizin beynəlxalq enerji müqavilələrindəki önəmini göstərir. Bakı ilə enerji sahəsində tərəfdaşlığa başlamaq və ya mövcud idxal həcmlərini artırmaq istəyən dövlətlərin sayı davamlı olaraq artır. Çünki geopolitik böhranlar şəraitində Avropa üçün Azərbaycan siyasi cəhətdən etibarlı, öhdəliklərinə hər zaman sadiq qalan əvəzsiz tərəfdaşdır.

### Tezliklə müjdəsi veriləcək yeni qaz yatağı

Dövlətimizin başçısı vurğulayıb ki, Azərbaycan boru kəməri infrastrukturunu zamanında qurub: "Xoşbəxtlikdən biz boru kəməri infrastrukturu və hasilat sahəsində ev tapşırığımızı vaxtında həyata keçirmişik. Hazırda istehsal səviyyəsi artmaqdadır. Tezliklə, yəqin ki, gələn ayın əvvəlində yeni yataqdan qaz hasilatına başlanılması ilə bağlı məlumat verəcəyik". Prezident İlham Əliyevin "ev tapşırığımızı vaxtında həyata keçirmişik" ifadəsi dövlətimizin başçısının strateji uzaqgörənliyini və planlı idarəetməni mükəmməl şəkildə xarakterizə edir. Avropanın enerji qıtlığı ilə üzləşdiyi bir dövrdə Azərbaycanın dərhal alternativ tədarükçü kimi irəli çıxması təsadüfi deyil. Bu, rəsmi Bakının zamanında nəhəng boru kəmərləri şəbəkəsini inşa etməsi sayəsində mümkün olub.

Müsahibədə mühüm anonslardan biri də gələn ayın əvvəlində yeni yataqdan qaz hasilatına başlanılacağı ilə bağlı bəyanatdır. Yeni yatağın istismara verilməsi Azərbaycanın daxili istehsal balansını gücləndirməklə yanaşı, Avropa İttifaqına yönələn mavi yanacağın həcmini planlı şəkildə artırmağa xidmət edəcək. Yeni mənbələrin dövriyyəyə daxil edilməsi Azərbaycanın qlobal enerji zəncirindəki etibarlı tərəfdaş statusunu daha da möhkəmləndirəcək, uzunmüddətli xammal təminatını zəmanət altına alacaq. Həmçinin ölkə iqtisadiyyatına əlavə valyuta axınını təmin edəcək.

Beləliklə, Prezident İlham Əliyevin "Euronews" televiziyasına verdiyi müsahibə Azərbaycanın regional və qlobal miqyasda artan çəkisini bir daha ortaya qoydu. Ölkəmizin şəhərsalma innovasiyalarından tutmuş enerji diplomatiyasına qədər nümayiş etdirdiyi uzaqgörən siyasət rəsmi Bakının gələcəyin qlobal reallıqlarını formalaşdıran əsas güc mərkəzlərindən birinə çevrildiyini sübut edir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Azərbaycan WUF13-lə yenidən dünyanın mərkəzinə çevrilib

## Bakı bu günlərdə şəhərlərin gələcəyini müzakirə edən minlərlə mütəxəssis üçün ümid və inkişaf mayakı rolunda çıxış edir



Son illər Azərbaycan beynəlxalq aləmdə təkcə regionun deyil, dünyanın əsas siyasi və mədəni görüş yerlərindən biri kimi özünü təsdiqləyib.

Bu gün Bakı, sadəcə, bölgənin aparıcı şəhəri deyil, həm də bəşəriyyətin gələcək inkişaf yollarının müzakirə edildiyi mühüm mərkəzdir. Azərbaycanın COP29 iqlim sammitində göstərdiyi yüksək təşkilatçılıq və əldə etdiyi tarixi uğurlar ölkəmizə olan beynəlxalq inamı ən yüksək səviyyəyə qaldırıb. Məhz bu böyük etimadın nəticəsidir ki, dünyanın şəhərsalma üzrə ən böyük platformalarından olan Ümumdünya Şəhərsalma Forumu (WUF13) Bakıda keçirilir. COP29-un uğurlarından dərhal sonra belə nəhəng bir forumun ölkəmizə həvalə edilməsi Azərbaycanın dünyada etibarlı tərəfdaş və qlobal lider imicini bir daha sübut edir.

### Beynəlxalq diqqət

Mayın 18-də açılışı olan WUF13 miqyasına görə şəhərsalma tarixində yeni bir səhifə açdı. Prezident İlham Əliyevin tədbirin açılış mərasimində bildirdiyi kimi, forum qeydiyyatdan keçmiş iştirakçıların sayına görə mütləq rekord müəyyən edib. Belə ki, Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasında iştirak üçün 182 ölkədən 45 mindən artıq iştirakçı qeydə alınıb.

Bu rəqəmlər həm foruma olan qlobal marağı, həm də Azərbaycanın beynəlxalq platforma kimi cəlbediciliyini nümayiş etdirir. Belə ki, indiyədək heç bir sessiya Bakıdakı qədər geniş və müxtəlif auditoriyanı bir araya gətirməyib.

Prezident İlham Əliyevin uzaqgörən və milli maraqlara söykənən rəhbərliyi sayəsində regionun aparıcı dövlətinə çevrilən Azərbaycan həm də qlobal miqyasda sülhün, multikulturalizmin və dayanıqlı inkişafın əsas strateji mərkəzlərindən biri kimi qəbul edilir. Rəsmi Bakı Cənubi Qafqazda başlatdığı sülh erası ilə həm də ədalətə və beynəlxalq hüquqa söykənən yeni dünya nizamının formalaşmasına əhəmiyyətli töhfələr verir. Bakı hazırda beynəlxalq siyasətin formalaşdırıldığı və strateji qərarların qəbul olunduğu qlobal paytaxt rolunu oynayır. Bu mənada COP29 və WUF13 kimi qlobal miqyaslı tədbirlərin bu memarlıq incisi olan şəhərdə keçirilməsi təsadüfi deyil.

Azərbaycanın coğrafi yerləşməsi onun memarlıq simasında da dərin izlər qoyub. Dövlətimizin başçısının sərəncamı ilə ölkədə "Şəhərsalma və Memarlıq İli" elan edilməsi respublikamızın bu sahəyə verdiyi strateji önəmin sübutudur. Bakı həm qədimliyi, həm də müasirliyi özündə birləşdirən nadir paytaxtlardandır. Bu gün Bakı küçələrində gəzən hər bir qonaq Şərq və Qərb mədəniyyətinin harmoniyasını, sürətli urbanizasiya ilə tarixi irsin qorunması arasındakı balansı öz gözləri ilə görür. Eləcə də digər Azərbaycan şəhərləri özünəməxsus memarlığı ilə seçilir.

Ölkəmizin rəhbəri forumun açılışında bu məqamı belə diqqətə çatdırıb: "Bu gün qlobal toplantını təşkil edərək, biz şəhərsalmaya, onun inkişafına, insanların həyatını yaxşılaşdırmaq gündəliyinə və onların özlərini rahat hiss etmələri üçün əhalimizin bütün lazımi şəraitlərlə təmin olunmasına güclü sadiqliyimizi bir daha nümayiş etdiririk. Nəinki Bakı, o cümlədən Azərbaycanın bir çox qədim şəhərləri öz memarlığı ilə fərəhlənə bilər".

Azərbaycanın bu miqyasda tədbirə layiqli evsahibliyi UN-Habitat rəhbərliyi tərəfindən də təqdir olunur. WUF13-ün açılış mərasimində UN-Habitat Assambleyasının prezidenti Nqa Kor Minq vurğulayıb: "Mən böyük şərəf hissi ilə tarixi Bakı şəhərində sizin qarşınızda dayanmışam. Burada - qədim İpək yolunun üzərində və Xəzər dənizinin sahilində yerləşən şəhərdə sizin qarşınızda çıxış edirəm. Mən ən səmimi salamlarımı Azərbaycan hökumətinə və Azərbaycan xalqına çatdırıram. Bizə göstərilmiş səmimi qonaqpərvərliyə və bu tədbirin keçirilməsinə görə təşəkkürümü bildirirəm".

### Daha yaşıl, davamlı və inklüziv şəhərlərin yol xəritəsi

WUF13 həm də Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması baxımından vacib platformadır. O cümlədən dövlətimizin Qarabağ və Şərqi Zəngəzurda həyata keçirdiyi misilsiz quruculuq işlərini dünyaya təqdim etmək üçün mühüm fürsətdir.

Torpaqlarımızın azadlığından ötən qısa müddət ərzində bu ərazilərdə 70 kilometr uzunluğunda tunellər, 435 körpü, 3 beynəlxalq hava limanı və müasir dəmir yolları inşa edilib. 85 mindən çox keçmiş məcburi köçkün artıq öz doğma yurdlarına qayıdıb ki, bu da hökumətin sosial və iqtisadi siyasətinin mərkəzində insanların rifahının yüksəldilməsinin dayandığını göstərir.

Prezident İlham Əliyev WUF13-ün açılışındakı çıxışında 30 illik işğalın fəsadlarını və bugünkü intibahı müqayisəli şəkildə diqqətə çatdırıb: "İndi hökumətimizin qarşısında duran əsas vəzifələrdən biri Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulmasıdır. Bu ərazi 30 il müddətində erməni işğalı altında idi və tamamilə dağıdılaraq məhv edilmişdir. Beynəlxalq müşahidəçilər və ziyarətçilər Ağdamı Xirosima ilə müqayisə edirdilər, onlar Ağdamı "Qafqazın Xirosiması" adlandırırdılar. Çünki şəhər, sadəcə, mövcud deyildi. Şəhər tamamilə yerlə yeksan edilmişdir və o, Xirosimadan fərqli olaraq, atom bombasının atılması nəticəsində bir günə bu vəziyyətə düşməmişdir. Bu, 30 illik işğal ərzində edilmişdir və bu zaman binalar, tarixi binalar və ictimai binalar, evlər tamamilə sökülərək dağıdılmışdır".

Prezident əlavə edib ki, hazırda "Böyük qayıdış" proqramı uğurla həyata keçirilir. WUF13-ün uğuru həm də COP29-da əldə edilən nailiyyətlərin məntiqi davamıdır. 2024-cü ildə 196 ölkədən 70 mindən çox iştirakçının toplandığı Bakı dünyanın ekoloji gələcəyinin müəyyənləşdiyi mərkəzə çevrildi. İşinə başladığı ilk gündən COP29 iqlim dəyişmələrinin yaratdığı fəsadlardan qurtulmaq üçün gerçək həll yollarının təklif edildiyi platforma oldu.

Qlobal tədbirdə əldə edilən tarixi "Bakı razılaşmaları", iqlim maliyyəsi sahəsində ildə ən azı 300 milyard dollar vəsaitin səfərbər olunması öhdəliyi Azərbaycanı bəşəri problemlərin həllində vacib aktor kimi tanıdır. COP29 həm də Azərbaycanın "yaşıl enerji" gündəliyinin dünya tərəfindən qəbul edildiyini və ölkəmizin bəşəri problemlərin həllində etibarlı tərəfdaş olduğunu göstərdi.

Ümumdünya Şəhərsalma Forumu da ekoloji gündəliyə sadiq qalaraq şəhərlərin daha yaşıl, davamlı və inklüziv olması üçün yeni yol xəritələri təklif edir.

WUF13-ün açılışındakı nitqində Azərbaycan Prezidenti də vurğulayıb ki, bu, ilyarım əvvəl Azərbaycanda keçirilmiş COP29-dan sonra ikinci ən böyük beynəlxalq tədbirdir və ümid edir ki, Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının nəticəsi COP29 qədər uğurlu olacaq.

WUF13 sessiyası bir daha təsdiq edir ki, Azərbaycan təkcə tədbir keçirən ölkə deyil, həm də bəşəriyyəti narahat edən problemlərə innovativ həllər təklif edən strateji tərəfdaşdır.

Bakı bu günlərdə şəhərlərin gələcəyini müzakirə edən minlərlə mütəxəssis üçün ümid və inkişaf mayakına çevrilib. Bu forumun nəticələri şəhərsalmada yeni standartlar müəyyən edəcək və Azərbaycanın qlobal idarəçilikdəki çəkisini daha da artıracaq.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

# Prezident İlham Əliyev Azərbaycanın universal həll modellərini təqdim etdi



Prezident İlham Əliyevin mayın 18-də dünyanın aparıcı informasiya nəhənglərindən olan "Euronews" televiziyasına verdiyi müsahibə rəsmi Bakının akademik savadla siyasi qətiyyətin ifadə olunduğu, dövlət maraqlarının qorunmasında hüquqi sipər rolunu oynayan dinamik və intellektual bir lider üslubunda növbəti xarici siyasət uğuru olmaqla yanaşı, həm də müasir beynəlxalq münasibətlər sistemində ölkəmizin artan strateji çəkisini nümayiş etdirən fundamental bir audiovizual materialdır. Dövlət başçısı özünəməxsus dərin siyasi zəka, sarsılmaz məntiq və hüquqi-analitik dəqiqliklə zəngin olan cavabları vasitəsilə bəşəriyyətin qarşılaşdığı qlobal çağırışlara Azərbaycanın universal həll modellərini təqdim edib. İlk növbədə onu qeyd edək ki, hər bir tezisində milli maraqlarımızın müdafiəsi müstəvisində beynəlxalq hüququn aliliyini rəhbər tutmaqla yeni reallıqların və qlobal gündəliyin uğurlu strateji təhlili Azərbaycanın hücum diplomatiyasının və xarici siyasət strategiyasının növbəti təntənəsi sayıla bilər.

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qəzetimizə açıqlamasında deyib ki, müsahibədə ilk olaraq 182 ölkədən 40 mindən çox iştirakçının qatıldığı Ümumdünya Şəhərsalma Forumuna Azərbaycanın evsahibliyi etməsi faktını ön plana çıxaran Prezident haqlı olaraq bu irimiqyaslı tədbiri Azərbaycan xalqına və dövlətinə bəşəri miqyasda göstərilən hörmətin bariz nümunəsi kimi xarakterizə etdi: "Heç şübhəsiz ki, COP29-dan dərhal sonra belə bir nəhəng foruma - BMT-nin ikinci böyük platformasına evsahibliyi etmək rəsmi Bakının beynəlxalq miqyaslı güc potensialını və təşkilatçılıq qabiliyyətini nümayiş etdirir. Hüquqi baxımdan bu reallıq bəzi imperialist və şovinist Qərb mərkəzlərinin Azərbaycana qarşı yürütməyə çalışdığı təcrid siyasətinin və qərəzli kampaniyaların beynəlxalq hüquq müstəvisində tamamilə iflasa uğradığını əyani formada sübut edir. Tədbirin məzmununa gəldikdə isə, təbii ki, Azərbaycan Prezidentinin həm bu nəhəng platformada, həm də WUF-un özündə danışmağa sözü var və təsadüfi deyil ki, cənab İlham Əliyev forum vasitəsilə dünyaya unikal bir dövlətçilik təcrübəsi təqdim etdi: "İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda sıfırdan qurulan "ağıllı şəhər" və "ağıllı kənd" layihələri, "yaşıl enerji" zonaları, sadəcə, regional uğur deyil. Bu bərpa modeli mütərəqqi urbanizasiya hüququ baxımından müharibə və dağıntılardan əziyyət çəkmiş digər dövlətlər üçün artıq beynəlxalq səviyyədə universal inkişaf etalonu kimi qəbul olunur. Ən azı ona görə ki, işğaldan azad edilmiş ərazilərdə yenidənqurma dünyaya təqdim edilən unikal hüquqi və postkonflikt innovasiya modelidir. Bu model mahiyyət etibarilə beynəlxalq humanitar hüququn və dövlət quruculuğu elminin yeni bir manifesti, ölkəmizin rəhbərinin vurğuladığı "tarixi və memarlıq irsinin qorunması ilə müasirləşmənin uzlaşdırılması" formulu isə müasir urbanizasiya hüququnun və fəlsəfəsinin ən mütərəqqi tezislərindən biridir".

Deputat qeyd edib ki, müxbirin Azərbaycanın postmünaqişə dövründə Qarabağ və Şərqi Zəngəzurda həyata keçirdiyi layihələrə dair sualına cənab Prezidentin verdiyi cavab, sözün əsl mənasında, faktoloji sarsılmazlıq nümunəsi kimi göründü. Prezident İlham Əliyev cəmi 5 il ərzində 85 min insanın doğma torpaqlarına qaytarılmasını, 307 meqavatlıq hidroenerji gücünün yaradılmasını, böyük faiz nisbəti qısa müddət ərzində tikintisi başa çatmış yüzlərlə körpü və tunelləri konkret rəqəmlərlə diqqətə çatdırmaqla, heç bir ritorik mübaliğəyə yol vermədən burada dövlətin gücünü, iqtisadi suverenliyinə və "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyalarının hüquqi dayanıqlılığına nail olan real güc obrazı ortaya qoymuş oldu. Ölkə rəhbəri çox haqlı olaraq açıq şəkildə bəyan etdi ki, 30 illik dağıntılardan sonra Azərbaycanın sıfırdan yaratdığı bu infrastruktur bənzər problemlərlə üzləşmiş digər ölkələr üçün beynəlxalq səviyyədə universal inkişaf modeli rolunu oynayır. Daha konkret desək, Prezident İlham Əliyev WUF13 platformasında Azərbaycanın yalnız ənənəvi enerji resurslarının tədarükçüsü kimi deyil, bəşəriyyətin gələcək şəhərsalma innovasiyalarını və modern inkişaf fəlsəfəsini formalaşdıran qlobal strateji aktor kimi mövqeləndiyini bəyan etmiş oldu ki, bu da postkonflikt reabilitasiyası tarixində analoqu olmayan bir təcrübədir. "Heç şübhəsiz ki, Qərbin media nəhəngi Avropanın enerji təhlükəsizliyi mövzusunu kənarda saxlaya bilməzdi və cənab İlham Əliyevin siyasi şantajdan uzaq, qarşılıqlı faydaya əsaslanan tərəfdaşlıq modeli bu müsahibənin də vacib elementlərindən birinə çevrildi. Məhz bu çərçivədə Avropanın enerji şaxələndirilməsində Azərbaycanın rolu barədə danışarkən dövlətimizin başçısı xarici siyasətimizin etibarlılıq və şəffaflıq prinsiplərini xüsusi qabardaraq "Cənub qaz dəhlizi" vasitəsilə 16 ölkəyə, o cümlədən Avropa İttifaqının 10 üzvünə qaz ixrac edilməsi faktlarına toxunmaqla, ölkəmizin qlobal iqtisadiyyatdakı imperativ statusunu bir daha faktoloji əsaslarla bəyan etmiş oldu. Üstəlik, bir daha göründü ki, Azərbaycanın enerji diplomatiyası təzyiq vasitəsi deyil, cənab Prezidentin qeyd etdiyi kimi, "win-win" prinsipinə - "qarşılıqlı faydaya əsaslanan əməkdaşlıq" alətidir. Məntiq isə çox sadə və praqmatikdir. Cənab İlham Əliyevin təbirincə desək, "Bizim premium bazara, Avropanın isə etibarlı alternativ mənbəyə ehtiyacı var". Dövlətimizin başçısının növbəti ayın əvvəlində yeni yataqdan hasilatın başlayacağı müjdəsini verməsi isə Azərbaycanın qlobal enerji təchizatçısı kimi mövqelərinin hələ uzun onilliklər ərzində sarsılmaz qalacağının hüquqi-iqtisadi zəmanətini verməklə və Bakının ehtiyatlarının tükəndiyini iddia etməklə, investorlarda şübhələr oyatmaq istəyən qərəzli dairələrə hətta sarsıdıcı da yox, məhz ölümcül zərbə oldu", - deyə o əlavə edib.

B.Məhərrəmov bildirib ki, beynəlxalq proseslərlə, xüsusən Yaxın Şərqdə və İran körfəzində cərəyan edən gərginliklərlə bağlı jurnalistin sualına cənab İlham Əliyevin cavabı da, əslində, əvvəlki cümlədə səslənən tezisin uğurlu davamı sayıla bilər. Yaxın Şərqdə, xüsusilə Hörmüz boğazında yaşanan geosiyasi böhranların qlobal bazarlara təsirindən bəhs edən Prezident İlham Əliyev Azərbaycanın bu cür kataklizmlərə qarşı nə dərəcədə dayanıqlı bir immunitet formalaşdırdığını analitik şəkildə əsaslandırdı. Azərbaycanın bu böhranlardan sığortalanmasının səbəbini dövlət başçısı "vaxtında edilmiş ev tapşırığı" və çoxtərəfli uğurlu diplomatiya ilə izah etdi. İstehsalçı, tranzit ölkə və istehlakçı arasında yaradılan hüquqi konsensus və qonşularla qurulan balanslaşdırılmış münasibətlər zənciri Azərbaycanı bir istiqamətdən asılı qalmayan çoxşaxəli münasibətlərə və seçim imkanına malik regional təhlükəsizlik vahidinə çevirib. Üstəlik, Prezidentin vurğuladığı kimi, böhrandan sonra formalaşacaq yeni dünya nizamında Azərbaycanın coğrafiyası və resursları daha böyük tələbata sahib olacaqdır. Yəni Azərbaycan bəzi populist mövqelərin tam əksinə, münaqişələr hesabına neft və digər enerji resurslarının qiymətlərinin artmasına uğur əmsalı kimi baxmır. Dövlət başçısı qeyd etdi ki, neft qiymətlərinin artması ilkin baxışda gəlirli görünsə də, qlobal fond və səhm bazarlarının çökməsi nəticəsində investisiya itkilərinə yol açır. Yəni daha etibarlı üsul şaxələndirilmiş nəqliyyat-kommunikasiya imkanlarına sahib olmaqdır ki, Prezident İlham Əliyev də bu reallığa və dinamikaya nail olub. Bu konsepsiyanın formulu isə çox sadə, lakin siyasi qətiyyətə əsaslanan reallıqlara söykənir - Azərbaycanın enerji strategiyası siyasi şərtlərdən uzaqdır, tamamilə iqtisadi məntiqə, qarşılıqlı faydalılığa əsaslanır ki, bu status da ölkəmizin beynəlxalq arenadakı diplomatik manevr imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir.

Deputat vurğulayıb ki, Prezident İlham Əliyevin "Euronews" kanalına verdiyi müsahibə dövlətimizin beynəlxalq münasibətlərdə həm bir hüquq aktoru, həm də qlobal şəbəkələrin mərkəzi qovşağı olduğunu növbəti dəfə təsdiqlədi: "Cənab İlham Əliyevin qlobal miqyaslı güc imkanı və nüfuzu Azərbaycanın adını qlobal iqlim fəaliyyətinin ardınca, cəmi il yarım sonra modern şəhərsalma fəlsəfəsinin ehtiva olunduğu dünyanın ən mütərəqqi platformalarının zirvəsinə yazmağı bacardı. Daha dəqiq desək, dövlətimizin başçısı "Euronews" platformasında öz yüksək intellektual potensialı, sarsılmaz siyasi iradəsi və qlobal reallıqları düzgün qiymətləndirmək məharəti ilə regionda diktə və təzyiq dili ilə danışmağa adət etmiş qüvvələrə növbəti dəfə hüquq və məntiq dərsi verməklə Azərbaycan dövlətinin suveren inkişaf strategiyasının geridönməzliyini ali formada nümayiş etdirdi".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Azərbaycanın WUF13-ü yüksək səviyyədə təşkil etməsi alqışa layiqdir

## Emin AĞALAROV: "Sea Breeze" müasir və ekoloji şəhərsalmanın parlaq nümunəsidir"

"Bakının evsahibliyi etdiyi Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) COP29-dan sonra ölkəmizdə təşkil olunan ən mötəbər qlobal tədbirlərdən biridir. Dünyanın müxtəlif ölkələrindən minlərlə mütəxəssisi, rəsmiləri və beynəlxalq qurumların rəhbərlərini bir araya gətirən bu platforma mühüm əhəmiyyətə malikdir".



Bu fikirləri "Agalarov Development" şirkətinin prezidenti Emin Ağalarov WUF13-dəki "Sea Breeze" pavilyonunda jurnalistlərə açıqlamasında deyib.

Forum çərçivəsində qurulan "Sea Breeze" pavilyonunda jurnalistlərin suallarını cavablandıran iş adamı bildirib ki, bu tədbir dayanıqlı şəhər mühiti sahəsindəki yenilikləri göstərmək üçün unikal fürsətdir. Layihənin qlobal miqyasda böyük maraq doğurduğunu deyən Emin Ağalarov qeyd edib: "Biz bu forum vasitəsilə "Sea Breeze"in baş planını, inkişaf strategiyasını və gələcək modelini geniş auditoriyaya çatdıra bildik. Bura təmiz ekologiyası və rahatlığı ilə seçilən yeni nəsil şəhərlərin real nümunəsidir".

Sahibkar tikinti işlərinin miqyasından da söz açıb. O, indiyədək milyonlarla kvadratmetr sahənin istifadəyə verildiyini, daha 4 milyon kvadratmetrlik ərazidə isə işlərin sürətlə davam etdiyini diqqətə çatdırıb. Dünyanın ən yaxşı memarları ilə əməkdaşlıq etdiklərini bildirən şirkət rəhbəri əsas hədəflərinin sakinlərin və qonaqların rahatlığını maksimum səviyyəyə çatdırmaq olduğunu vurğulayıb.

Yay mövsümünə hazırlıqlardan danışan E.Ağalarov "Sea Breeze" ərazisində gəzinti zonalarının, hovuzların, yaşıl sahələrin və infrastrukturun xeyli genişləndirildiyini bildirib. "İnsanların burada yüksək xidmət görməsi, gözəl dizayn olunmuş və təmiz bir mühitdə özlərini xoşbəxt hiss etmələri bizim üçün ən vacib şərtdir", - deyə o əlavə edib.

### Sanjay KULSHRESTHA: "WUF13 təcrübə mübadiləsi üçün vacib platformadır"

"Ümumdünya Şəhərsalma Forumu mənzil və şəhər infrastrukturu sahəsində ölkələr arasında təcrübə paylaşımı üçün vacib platformadır".



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Hindistanın "Housing and Urban Development Corporation Limited" şirkətinin sədri və idarəedici direktoru Sanjay Kulshrestha deyib.

O qeyd edib ki, bu forum müxtəlif dövlətlərin mənzil siyasətinin və şəhərsalma sahəsində qazandığı təcrübələrin müzakirəsinə geniş imkan yaradır. S.Kulshrestha diqqətə çatdırıb ki, hazırda "ağıllı şəhər" anlayışı xüsusi aktuallıq daşıyır.

Hindistan nümayəndəsi həmçinin Bakının şəhər inkişafını və müasir görünüşünü yüksək qiymətləndirib.

### Sfiso MKHİZE: "WUF13 beynəlxalq əməkdaşlığa töhfə verir"

"Ümumdünya Şəhərsalma Forumu (WUF13) ölkələr arasında təcrübə və yeni ideyalar paylaşmaq üçün böyük fürsətdir. Bu forum şəhərlərin inkişafı və mənzil məsələləri üzrə ölkələrin bir-biri ilə təcrübə paylaşdığı əhəmiyyətli platformadır".



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Cənubi Afrika Respublikasının Durban şəhərini əhatə edən eThekwini Metropolitan Bələdiyyəsinin İnsan Məskunlaşmaları və İnfrastruktur Komitəsinin sədr müavini Sfiso Mkhize bildirib.

O qeyd edib ki, rəhbərlik etdiyi qurum sosial mənzillərin tikintisi ilə məşğuldur və hər il çox sayda evlər tikilərək sakinlərin istifadəsinə verilir. Onun fikrincə, WUF13 forumu ölkələrə müasir həll yollarını mübadilə etmək imkanı verir.

Sfiso Mkhize əlavə edib ki, forumda "ağıllı şəhər" layihələri və qeyri-rəsmi yaşayış ərazilərinin problemlərinin həlli kimi mövzuların müzakirəsi böyük əhəmiyyət daşıyır.

### Pamtam Vendpanqa OMAR: "WUF13 gələcəyin şəhərlərini müzakirə etmək üçün əla fürsətdir"

"Ümumdünya Şəhərsalma Forumu (WUF13) şəhərlərin gələcək inkişaf modelini və bu istiqamətdəki innovativ yanaşmaları müzakirə etmək üçün əla fürsətdir".

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Burkina-Faso nümayəndəsi Pamtam Vendpanqa Omar deyib.

O, hazırda dünyanın ən böyük problemlərindən birinin nizamsız məskunlaşma olduğunu vurğulayıb: "Bu məsələ artıq kritik həddə çatıb və özbaşına salınmış yaşayış məntəqələrinə nəzarət etmək çətinləşib. Lakin həm sakinlərin, həm də aidiyyəti qurumların birgə iştirakı ilə bu cür plansız ərazilər üçün ən doğru həll yollarını tapmaq mümkündür".



Nümayəndə onu da vurğulayıb ki, plansız məskunlaşma şəhərlərin sağlam və nizamlı gələcəyinə birbaşa zərbə vurur.

### Anita ÇİNNALA: "WUF13 faydalı təcrübələrin paylaşılması üçün unikal məkandır"

"Bakıda təşkil olunan Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) ölkələr arasında tərəfdaşlığın gücləndirilməsi və faydalı təcrübələrin paylaşılması üçün unikal məkandır".

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Hindistan təmsilçisi Anita Çinnala deyib.

Forum çərçivəsində keçirilən panellərin onun üçün böyük əhəmiyyət kəsb etdiyini deyən qonaq bəzi vacib məqamlara toxunub: "Müzakirələrdə xüsusilə qadınların cəmiyyətdəki rolu və sosial rifah mövzuları ön plana çıxır. Bundan əlavə, ekoloji böhran, tullantıların idarə edilməsi və su ehtiyatlarından səmərəli istifadə müasir şəhərsalmanın əsas hədəfləridir. Azərbaycanın belə nəhəng bir tədbiri yüksək səviyyədə təşkil etməsi alqışa layiqdir".



### Piter Deon ANDERSON: "Bakıya fərqli yanaşmaları öyrənmək üçün gəlmişik"

"Bakıya fərqli yanaşmaları öyrənmək və öz ideyalarımızı bölüşmək üçün gəlmişik. İnanırıq ki, bu müzakirələr gələcəkdə şəhərlərin tərəqqisinə və sakinlərin rifahına yönəlmiş yeni maliyyə mexanizmlərinin yaranmasına rəvac verəcək".

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Ümumdünya Şəhərsalma Forumunun (WUF13) Esvatinidən olan iştirakçısı Piter Deon Anderson deyib.

O, Bakı forumunun qlobal miqyasda şəhərsalma sahəsindəki ən uğurlu təcrübələrin bir araya gətirilməsi baxımından böyük əhəmiyyət daşıdığını bildirib.



P.Anderson dayanıqlı gələcəyin maddi təminatdan asılı olduğunu xüsusi vurğulayıb: "Şəhər mühitinin müasirləşdirilməsi və qorunub saxlanılması üçün pul vəsaitlərinin cəlb olunması ən mühüm şərtdir. Lazımi maliyyələşmə olmadan şəhərlərin dayanıqlı bərpasını təmin etmək qeyri-mümkündür".

### Asya Abdel YAQİ: "Məqsədimiz kağız üzərindəki planları real layihələrə çevirməkdir"

"Bakının evsahibliyi etdiyi Ümumdünya Şəhərsalma Forumu (WUF13) insan haqları və şəhərlərin ekoloji tərəqqisi istiqamətində qlobal addımların uzlaşdırılması üçün əvəzsiz məkandır".

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında İordaniya Senatının üzvü, "Mən insanam" adlı əlilliyi olan şəxslərin birliyinin rəhbəri Asya Abdel Yaqi bildirib.

Senator xüsusilə münaqişələrdən və ekoloji böhranlardan zərər çəkən bölgələr üçün belə müzakirələrin mühüm əhəmiyyət daşıdığını vurğulayıb: "Forum fərqli ölkələrin praktiki təcrübələrini öyrənmək üçün zəngin məlumat mənbəyidir".



Şəhərlərin qurulmasında hamı üçün bərabər imkanların yaradılmasının vacibliyinə toxunan A.A.Yaqi qəbul edilən qərarların icrasına diqqət çəkib: "Hazırlanan strategiyalar, sadəcə, sənəd mətni olaraq qalmamalı, real həyatda tətbiqini tapmalıdır. Əsas hədəf hər bir fərdin sağlam və rahat bir mühitdə yaşamasını təmin etməkdir".

***Təhminə VERDİYEVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

## *Teboho MOKOENA:* "WUF13 şəhərlərin təcrübə mübadiləsi və ortaq həllər üçün mühüm imkan yaradır"



"Bu gün şəhərlərin əsas problemlərindən biri kənd yerlərindən şəhərlərə artan miqrasiyadır. Bu isə mənzil təminatı, qeyri-rəsmi yaşayış sahələri, su, yol və ictimai nəqliyyat infrastrukturu üzərində ciddi təzyiq yaradır".

Bunu AZƏRTAC-a açıqlamasında Cənubi Afrika Respublikasının Free State əyalətində İnsan Məskunlaşması və Yerli İdarəetmə üzrə icra şurasının üzvü Teboho Mokoena deyib.

O qeyd edib ki, insanlara layiqli yaşayış şəraiti və keyfiyyətli xidmətlərin göstərilməsi üçün sürətli həll yollarına ehtiyac var.

"WUF13 kimi platformalar şəhərlərin təcrübə mübadiləsi aparması və ortaq həll yolları tapması baxımından çox önəmlidir. Burada əldə etdiyimiz bilik və təcrübə problemlərin həllinə və daha yaxşı yaşayış şəraitinin qurulmasına kömək edəcək", - deyə Teboho Mokoena əlavə edib.

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

# Azərbaycanın formalaşdırdığı nümunəvi və unikal təcrübə

## Respublikamızın həyata keçirdiyi yenidənqurma və məskunlaşma layihələri beynəlxalq səviyyədə böyük maraq doğurur

Azərbaycan uzun müddətdir genişmiqyaslı və qlobal xarakterli tədbirlərin keçirildiyi mühüm mərkəzlərdən birinə çevrilib. Prezident İlham Əliyevin strateji yanaşması nəticəsində qlobal miqyasda narahatlıq doğuran məsələlərin məhz Bakıda müzakirəsi üçün əlverişli şərait yaradılıb. BMT çərçivəsində keçirilən COP29-un və qısa müddət sonra təşkil olunan Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının (WUF13) Bakıda baş tutması klassik diplomatiya deyil, həm də ictimai və mədəni diplomatiya baxımından xüsusi əhəmiyyət daşıyır. Bu, dövlətimizin artan nüfuzunun və beynəlxalq mövqeyinin möhkəmlənməsinin göstəricilərindəndir.

WUF13-ə qatılan iştirakçıların geniş coğrafiyanı əhatə etməsi də bunu təsdiqləyir. 182 dövlətdən 45 mindən çox müxtəlif peşə və səlahiyyət sahiblərindən ibarət nümayəndə heyəti Bakıdadır. Bu maraq eyni zamanda tədbirlərin keçirildiyi məkana - Bakıya olan etimadın göstəricisidir. Paytaxtın müasir infrastrukturu, yeni şəhərsalma layihələri, memarlıq nümunələri, mədəni potensialı və beynəlxalq tədbirlərin təşkilində qazandığı təcrübə Azərbaycanın bu sahədə güclü bir mərkəzə çevrildiyini nümayiş etdirir.

Xüsusilə qeyd edilməlidir ki, Ümumdünya Şəhərsalma Forumu regionda və türk dünyasında ilk dəfə məhz Azərbaycanda keçirilir. Bu isə Azərbaycanın artıq yalnız regional deyil, qlobal səviyyədə də mühüm dialoq və əməkdaşlıq məkanına çevrildiyini göstərir.

Dünya miqyasında belə bir etimad formalaşıb ki, Azərbaycan və onun rəhbərliyi qlobal əhəmiyyətli məsələlərin müzakirəsi üçün həm təhlükəsiz, həm də yüksək səviyyədə təşkilati imkanlara malik platforma təqdim etmək iqtidarındadır. Bu yanaşma göstərir ki, Azərbaycan yalnız milli səviyyədə problemlərin həlli ilə məşğul olmur, eyni zamanda qazandığı təcrübəni beynəlxalq ictimaiyyətlə bölüşməyə və təcrübə mübadiləsinə açıqdır. Bununla yanaşı, müxtəlif sahələr üzrə aidiyyəti qurumların prosesə cəlb olunması da xüsusi əhəmiyyət daşıyır. Bu mənada müxtəlif mövzularda çoxsaylı assambleyaların baş tutduğu WUF13 bunun bariz nümunəsidir.

Forumun tarixi 2001-ci ildə BMT Baş Assambleyasının qəbul etdiyi qərara gedib çıxır. Tədbirin ilk sessiyası 2002-ci ildə Keniyanın paytaxtı Nayrobidə keçirilib. O vaxtdan etibarən forum iki ildən bir təşkil olunur və urbanizasiya məsələlərinə həsr edilir. Bu mənada Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası üçün yüzlərlə böyük şəhər arasında məhz Bakının seçilməsi təqdirəlayiqdir.

Bəs urbanizasiya niyə bu qədər aktual və narahatedici mövzu hesab olunur? Bunun əsas səbəbi dünya əhalisinin sürətlə artması və şəhərlərdə məskunlaşmanın genişlənməsidir. Hazırda dünya əhalisinin yarıdan çoxu şəhərlərdə yaşayır. BMT-nin rəsmi proqnozlarına görə, yaxın 25 il ərzində bu göstərici 68-70 faizə çatacaq. Bu isə şəhərlərin daha da yüklənməsi, kənd yerlərinin boşalması, təchizat zənciri və ərzaq təhlükəsizliyi ilə bağlı problemlərinin dərinləşməsi deməkdir.

Digər mühüm məqam isə sənaye ilə bağlı məsələləri əhatə edir. Şəhərlərdə böyük konqlomeratların, iri sənaye müəssisələrinin cəmləşməsi də urbanizasiyanın yaratdığı problemləri daha da dərinləşdirir. Belə ki, dünya ölkələrinin ümumi daxili məhsulunun təxminən 60 faizi şəhərlərdə istehsal olunur. Bununla yanaşı, ətraf mühitə atılan karbon qazı emissiyalarının da təxminən 70 faizi şəhərlərin payına düşür. Digər tərəfdən ətraf mühitə atılan karbon qazının 34 faizi qlobal səviyyədə tikinti sektoru və tikililərin istismarının payına düşür. Bu səbəblərdən urbanizasiya, iqlim dəyişikliyi, infrastruktur, nəqliyyat və dayanıqlı inkişaf məsələləri kompleks şəkildə qlobal gündəliyin əsas mövzularına çevrilib.

Bu müəssisələrin əksəriyyəti şəhərlərdə və ya onların ətrafında yerləşdiyi üçün ətraf mühitə təsir artır, emissiyalar yüksəlir və ekoloji tarazlıq pozulur. 1990-2020-ci illəri əhatə edən dövrdə şəhərlərin fiziki genişlənməsi əhali artımını üstələyib ki, bu da plansız urbanizasiya risklərini artırır. Şəhərlərdə yaşıl zonaların payı 1990-cı ildə 19,5 faizdən 2020-ci ildə 13,9 faizə düşüb. 2025-ci ilin statistikasına əsasən, dünyada təxminən 1 milyard insan ciddi daşqın riski olan ərazilərdə yaşayır və onların yarısı şəhərlərdədir.

Hazırda dünyada 8 milyarddan çox insan yaşayır. Lakin bu insanların böyük bir hissəsi qeyri-qənaətbəxş mənzil şəraitində həyat sürür. Təxminən 2,8 milyard insanın yaşayış şəraiti normal standartlara və tələblərə cavab vermir. 300 milyon insanın, ümumiyyətlə, daimi yaşayış yeri, mənzili yoxdur. Təxminən 1,1 milyard insan isə gecəqondularda, infrastruktur baxımından zəif yaşayış məntəqələrində məskunlaşıb. Bu rəqəmlər urbanizasiya probleminin nə qədər ciddi miqyas aldığını göstərir. Çünki yaşayış şəraitinin aşağı olması insanların yalnız mənzil problemi ilə üzləşməsi demək deyil. Bu, eyni zamanda səhiyyə, təhsil, ərzaq təhlükəsizliyi, sanitariya və sosial rifahla bağlı çoxsaylı problemləri də özü ilə gətirir.



Hətta nəqliyyatla bağlı statisitika da həyəcan doğurur. 2023-cü ilin məlumatlarına görə, dünya üzrə şəhər əhalisinin yalnız 60 faizi rahat ictimai nəqliyyata çıxış imkanına malikdir. Ən az inkişaf etmiş ölkələrdə bu göstərici təxminən 40 faizdir.

Məhz sadalanan səbəblərə görə, BMT urbanizasiya, təhlükəsiz və dayanıqlı məskunlaşma məsələlərini prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirib. İki ildənbir keçirilən WUF sessiyalarında bu məsələlər geniş şəkildə müzakirə olunur. Bu ilin forumunda da əsas diqqət təhlükəsiz və dayanıqlı şəhərlərin, yaşayış məskənlərinin formalaşdırılmasına yönəlib.

Bununla yanaşı, BMT-nin müəyyən etdiyi 17 Dayanıqlı İnkişaf Məqsədindən biri də məhz dayanıqlı şəhərlər və icmaların qurulması ilə bağlıdır. Bu məqsəd insanların təhlükəsiz, inklüziv və dayanıqlı yaşayış mühitində yaşamasını təmin etməyə hesablanıb. Azərbaycan BMT-nin 17 Dayanıqlı İnkişaf Məqsədi çərçivəsində uzun illərdir əməkdaşlığını davam etdirir və bu istiqamətdə milli səviyyədə müxtəlif proqramlar həyata keçirir. Ölkəmiz bu məqsədləri qəbul etməklə yanaşı, hətta milli səviyyədə əlavə olaraq 18-ci Dayanıqlı İnkişaf Məqsədini də irəli sürüb. Bu məqsəd humanitar minatəmizləmə ilə bağlıdır. Belə ki, bu gün Azərbaycan ərazilərinin 13 faizə yaxını yüz minlərlə mina və digər partlamamış hərbi sursatla çirkləndirilmiş vəziyyətdədir.

Azərbaycan hazırda BMT və digər beynəlxalq platformalarda fəaliyyət aparır ki, humanitar minatəmizləmə ayrıca bir Dayanıqlı İnkişaf Məqsədi kimi qəbul edilsin. Bu, olduqca vacib və aktual təşəbbüsdür. Çünki təhlükəsiz yaşayış mühitinin formalaşdırılmasının əsas şərtlərindən biri məhz insanların mina təhlükəsindən uzaq, təhlükəsiz ərazilərdə yaşamasıdır. Ümumiyyətlə, Azərbaycan qlobal çağırışlara cavab olaraq beynəlxalq səviyyədə qəbul edilən təşəbbüsləri milli şəraitə uyğunlaşdıraraq tətbiq edir. Bu istiqamətdə dövlət proqramları, hökumət layihələri həyata keçirilir və ölkənin öz təcrübəsi ilə bu proses daha da zənginləşdirilir. Humanitar minatəmizləmə ilə bağlı irəli sürülən 18-ci məqsəd də bunun ən uğurlu nümunələrindən biridir.

Azərbaycan münaqişələrin və müharibələrin yaratdığı problemlərə xüsusi diqqət çəkir. Hazırda dünyada onlarca aktiv münaqişə ocağının sayı ilə bağlı müxtəlif statistikalar təqdim olunur, amma 50-dən artıq olması daha geniş yayılmış statistik göstəricidir. Bu münaqişələr yalnız humanitar böhran yaratmır, eyni zamanda ətraf mühitə ciddi zərər vurur, karbon emissiyalarını artırır və iqlim dəyişikliklərinə mənfi təsir göstərir.

Digər mühüm problem isə məcburi köçkünlük və qaçqınlıq məsələsindən irəli gələn məsələlərdir. Bu problem də dövlət və cəmiyyət olaraq bizə yaxından tanışdır. Son illərin statistikasına görə, dünyada 120 milyondan çox insan məcburi köçkün və qaçqın vəziyyətində yaşayır. Problem ondadır ki, bu insanların da 60 faizi məhz şəhərlərdə məskunlaşıb. Ekspertlərin proqnozlarına əsasən, əgər münaqişələr davam edərsə, 2040-cı ilə qədər bu rəqəmə daha milyonlarla insan əlavə oluna bilər. Bu isə urbanizasiya, şəhərlərin yüklənməsi və sosial problemlərin daha da dərinləşməsi deməkdir.

Azərbaycanın milli səviyyədə qazandığı təcrübənin qlobal miqyasda təqdim olunması da xüsusi əhəmiyyət daşıyır. Məsələn, torpaqlarımızın işğaldan azad edilməsindən sonra Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı məskunlaşma və yenidənqurma proqramları həyata keçirilir. Bu proses əsasən Azərbaycanın milli resursları hesabına maliyyələşdirilir. Təkcə son beş il ərzində işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması üçün dövlət büdcəsindən 22 milyard manatdan çox vəsait ayrılıb. Ötən il keçirilən büdcə müzakirələri zamanı isə bu istiqamət üzrə 2026-cı il üçün əlavə 3,5 milyard manatın ayrılması təsdiqlənib. Nəticədə artıq on minlərlə keçmiş məcburi köçkün 40 yaşayış məntəqəsində məskunlaşıb. Qarşıdakı 10 il ərzində isə 200-dən çox yaşayış məskəninin yenidən qurulması və dirçəldilməsi hədəflənir.

Bu rəqəmlər Azərbaycanın həyata keçirdiyi bərpa və quruculuq işlərinin miqyasını açıq şəkildə göstərir. Nəzərə almaq lazımdır ki, 30 ilə yaxın işğal dövründə 300-dən çox yaşayış məntəqəsi və 9 böyük şəhər tamamilə dağıdılıb. Bu ərazilərin sıfırdan yenidən qurulması, eyni zamanda müasir, ekoloji təmiz şəhərsalma və dayanıqlı inkişaf prinsiplərinə uyğun şəkildə bərpa olunması artıq Azərbaycanın formalaşdırdığı unikal təcrübə hesab olunur. Çünki urbanizasiya problemlərinin kökündə dayanan əsas amillərdən biri münaqişələr və onların dağıdıcı nəticələridir. Digər mühüm faktor isə iqlim dəyişiklikləridir. Hər iki məsələ təchizat zəncirinə, yaşayış mühitinə, iqtisadi və sosial proseslərə ciddi təsir göstərir. Azərbaycan isə həm işğalın nəticələrinin aradan qaldırılması, həm də postmünaqişə dövründə sülh quruculuğu və genişmiqyaslı bərpa işlərinin həyata keçirilməsi baxımından mühüm və nümunəvi təcrübə formalaşdırır.

Bütün bunlar göstərir ki, urbanizasiya və şəhərsalma diplomatiyası yalnız tikinti məsələsi deyil. Bu mövzu təhlükəsizlik, ekologiya, humanitar problemlər, miqrasiya və dayanıqlı inkişaf kimi qlobal çağırışlarla birbaşa əlaqəlidir. Məhz buna görə də "UN-Habitat" təşkilatının rəhbəri Anaklaudia Rossbax Bakıda keçirilən tədbirlər zamanı iki mühüm məqamı xüsusi vurğulayıb. Birincisi, Azərbaycanın BMT səviyyəli tədbirləri yüksək təşkilatçılıqla keçirmək bacarığıdır. İkincisi isə Azərbaycanın həyata keçirdiyi yenidənqurma və məskunlaşma təcrübəsinin beynəlxalq səviyyədə maraq doğurmasıdır. WUF13-ün mayın 18-də keçirilən açılış mərasimində Prezident İlham Əliyevin nitqində vurğuladığı kimi, "Azərbaycanın bir çox yerlərində şəhərsalma çox sürətli inkişaf edir. Birmənalı olaraq, bu cür mühüm toplantı və BMT-dən olan dostlarımızın, səfərə gələn çoxsaylı qonaqların ekspert bacarıqları bizə daha çox öyrənmək, bir-birimizdən hansısa dəyəri əldə etmək, müsbət təcrübə ilə tanışlıq üçün və həmçinin səhvlərimiz haqqında danışmaqda yardımçı olacaq".

***Rizvan NƏBİYEV,***
***Milli Məclisin deputatı,***
***siyasi elmlər doktoru***

# Azərbaycan təcrübəsini bölüşməyə hazırdır

### Prezident İlham ƏLİYEV:
### "Biz bu günədək şəhər və kəndlərin sıfırdan qurulması ilə bağlı misilsiz təcrübə formalaşdırmışıq"

WUF13-də iştirak səviyyəsi, tədbirə qatılan dövlət və hökumət başçılarının sayı göstərir ki, bu gün şəhərsalma məsələləri bütün dünyada diqqət mərkəzində olan mövzulardandır. Bu, eyni zamanda Azərbaycana göstərilən hörmətin bariz nümunəsi, eləcə də evsahibliyi edən ölkənin geniş beynəlxalq əlaqələrə malik olduğunu təsdiqləyən faktdır.

Prezident İlham Əliyevin mayın 18-də "Euronews" televiziyasına verdiyi müsahibədə məhz COP29-dan sonra Azərbaycanda keçirilən ikinci ən böyük tədbir - WUF13-lə bağlı bu fikirlər səsləndirilib.

Məlumdur ki, Azərbaycanın çoxəsrlik zəngin şəhərsalma təcrübəsi var. İndi ölkəmizdə bu sahə yeni mərhələyə qədəm qoyub. Üstəlik, işğaldan azad olunmuş ərazilərimizin sıfırdan qurulması bizdə yeni, misilsiz bir təcrübə formalaşdırıb. Azərbaycan Qarabağda və Şərqi Zəngəzurda "ağıllı şəhər" və "yaşıl enerji" layihələrini təqdim edib.

Bu layihələr qlobal şəhər innovasiyalarına necə töhfə verə bilər? Prezidentimiz bu layihələrlə bağlı danışarkən bildirib ki, mərhələli yanaşma, bəzi hallarda isə paralel inkişaf nəticəsində beş ilə artıq 85 min insanın doğma torpaqlarına qayıdışı təmin edilib.

Həmin ərazilərdə ilk növbədə elektrik enerjisi məsələsi həll olunub. İndiyədək 307 meqavatlıq hidroenerji gücü istifadəyə verilib. Hazırda isə 340 meqavat gücündə günəş enerjisi layihələri öz icrasının müxtəlif mərhələlərindədir. Bu həcm yalnız Qarabağ və Şərqi Zəngəzur üçün deyil, daha geniş ərazilər üçün də kifayət edəcək. Bununla yanaşı, elektrik şəbəkəsinin ölkənin ümumi enerji sistemi ilə inteqrasiyası təmin olunub.

Qarabağ və Şərqi Zəngəzurda böyük yollar şəbəkəsi yaradılıb, geniş sosial infrastruktur qurulub və işlər sürətlə davam edir. İndiyədək ümumi uzunluğu 75 kilometr olan tunellərin 70 kilometri artıq istifadəyə verilib, 500 körpüdən 435-i artıq tikilib. Dəmir yollarının çəkilişi, məktəblərin, xəstəxanaların inşası paralel şəkildə aparılır.

"Yenidənqurmanın ilk illərində əsas sərmayəni infrastrukturun yaradılmasına yatırmışdıq. Hazırda isə əsas sərmayələrimiz yaşayış sahələrinin tikintisinə yönəldilib - şəhərlərin baş planları, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları üzrə layihələr həyata keçirilir. Hər bir kənd üzrə planlar icra edilir. Beləliklə, hesab edirəm ki, bizim təcrübəmiz bənzər problemlərlə üzləşmiş ölkələrə yenidənqurma üçün bir nümunə ola bilər", - deyə Prezident İlham Əliyev "Euronews"a müsahibəsində bildirib.

Sözügedən müsahibədə şəhərsalma mövzusu əsas olsa da, həmişəki kimi enerji məsələlərinə də xeyli yer ayrılıb. Bu gün Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verən ölkələrdən birinə çevrildiyi vurğulanıb. Avropa enerji mənbələrini şaxələndirdiyi bir dövrdə ölkəmizin rolunun necə inkişaf edəcəyi barədə sualı cavablandırarkən dövlətimizin başçısı deyib ki, biz Avropa ilə enerji sahəsində əməkdaşlığa müəyyən müddət əvvəl başlamışıq. Xüsusilə 2020-ci ildən sonra - "Cənub qaz dəhlizi"nin istifadəyə verilməsi ilə bu proses daha da sürətlənib.

Hazırda bu dəhliz vasitəsilə 16 ölkəyə - Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, İtaliya, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya, Slovakiya, Ukrayna, Suriya, Almaniya, Avstriyaya təbii qaz ixrac olunur. Göründüyü kimi, bunların 10-u Avropa İttifaqının üzv dövlətidir. Ümumilikdə isə 12 Avropa ölkəsi Azərbaycandan qaz alır və bu, son hədd deyil. Bu barədə Prezidentimiz belə deyib: "Boru kəmərləri vasitəsilə qaz tədarük edilən ölkələrin sayına görə dünyada birinci yerdəyik. Ölkələrin sayı artır. Bizimlə əməkdaşlığa başlamaq istəyən ölkələrin müraciətlərinin sayı da artmaqdadır. Xoşbəxtlikdən biz boru kəməri infrastrukturu və hasilat sahəsində ev tapşırığımızı vaxtında həyata keçirmişik".

Hazırda qaz hasilatının artacağı da gözlənilir. Çünki yeni yataqlarımız var ki, onlar da işlənməsinin müxtəlif mərhələlərindədir. Tezliklə yeni bir yataqdan hasilata başlanılması nəzərdə tutulur.

"Burada qarşılıqlı faydaya əsaslanan əməkdaşlıq mövcuddur. Bizim premium bazara ehtiyacımız var, o da Avropadır. Avropanın isə Azərbaycan kimi alternativ təchizat mənbəyinə ehtiyacı var. Beləliklə, biz səylərimizi birləşdirdik və Avropa Komissiyası ilə çox səmərəli əməkdaşlıq qurduq", - deyə Prezident İlham Əliyev sualı ətraflı cavablandırıb.

Qaldı ki, Hörmüz böhranının regional və qlobal iqtisadiyyata təsir göstərdiyi vəziyyətə Azərbaycanın necə yanaşmasına və bunun öhdəsindən necə gəlməsinə, Prezidentimiz təchizat zənciri baxımından həmin böhranın bizə ciddi təsir göstərmədiyini bildirib: "Çünki enerji təchizatı və marşrutların şaxələndirilməsi siyasəti bizim üçün bu günün məsələsi deyil. Bu siyasət uzun illərdir həyata keçirilir və tərəfdaşlarımız, eləcə də qonşu ölkələrlə birlikdə neft, qaz, elektrik enerjisi və nəqliyyat bağlılığı üzrə şaxələndirilmiş təchizat sistemi formalaşdırmağa nail olmuşuq".

Prezident İlham Əliyev həmçinin qeyd edib ki, gec-tez bu böhran həll olunacaq və bundan sonra, yəqin ki, yeni bir vəziyyət yaranacaq. Bir çox ölkə enerji siyasətlərini və enerji ehtiyatlarının çatdırılması yollarını yenidən nəzərdən keçirəcəklər. O vaxt Azərbaycanın coğrafiyası və mövcud resursları bugünkündən daha çox tələb olunacaq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## *İspaniyalı nümayəndə:* "WUF13 çox əhəmiyyətlidir"

"Azərbaycanın evsahibliyi etdiyi Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) davamlı və dayanıqlı şəhərlərin formalaşması ilə bağlı müzakirələr aparmaq baxımından çox əhəmiyyətlidir".

Bunu AZƏRTAC-a açıqlamasında WUF13-də iştirak edən İspaniyadan olan nümayəndə Xavyer Playa bildirib.




O deyib ki, bugünkü tədbir həmçinin dünyada iqlim dəyişmələrinin yaratdığı problemlər və bütün dünya ölkələrinin yaşayış məntəqələrində insanların üzləşdiyi çətinliklərin həlli ilə bağlı adekvat strategiyaların işlənib hazırlanması və razılaşdırılması üçün də gözəl fürsətdir.

## *İtaliyalı professor:* "Qadınlar şəhərlərin gələcəyi üçün böyük ümid mənbəyidir"

"Qadınlar şəhərlərin ruhudur və bu yaşayış məntəqələrində həyata keçirilən bütün dəyişikliklər onların ehtiyaclarına uyğun qurulmalıdır. Əgər bir şəhər qadınlara uyğun şəkildə formalaşdırılıbsa, deməli, ora hər kəs üçün əlverişlidir".

Bunu AZƏRTAC-a müsahibəsində Neapol Universitetinin müəllimi, professor Tereza Bokya deyib.

O bildirib ki, çox vaxt şəhər mühitində, nəqliyyatda və ümumilikdə urbanizasiya ilə bağlı məsələlərdə qadınlar nəzərə alınmır: "Onlar görünməyən subyektlər kimi qəbul edilirlər. Eyni zamanda tez-tez qadınların həssas və zəif qrup olduğu düşünülür, amma bu, doğru deyil. Qadınlar dəyişiklik yaradan əsas qüvvədir. Onlar şəhərlərin gələcəyi üçün böyük ümid mənbəyidir. Çünki gündəlik həyatlarında qadınlar konkret fəaliyyətləri ilə davamlı inkişafın formalaşmasına töhfə verirlər. Bu baxımdan düşünürəm ki, bu kimi platformalar bütün fəaliyyətlərin mərkəzində şəhərin bütün təbəqələrinin dayanmasının vacibliyini nümayiş etdirmək üçün yaxşı imkandır. Xüsusilə də bu insanların şəhərin və ümumiyyətlə, dünyanın gələcəyinin əsas iştirakçıları kimi qəbul olunması çox önəmlidir".




## *Maykl ORAM:* "Yaşıl enerji" müasir şəhərlərin inkişafında mühüm amillərdən biridir"

"Yaşıl enerji" müasir şəhərlərin inkişafında mühüm amillərdən biridir. Xüsusilə də bugünkü dövrdə ekoloji davamlılığın təmin olunmasında "yaşıl enerji"dən istifadə böyük rol oynayır. Belə ki, bu, karbon emissiyalarının azalmasına səbəb olur".

Bu sözləri AZƏRTAC-a açıqlamasında BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında (WUF13) iştirak edən Kanadanın İpoteka və Mənzil Korporasiyasının Mənzil Bazarları Siyasəti üzrə baş menecer Maykl Oram deyib.




O diqqətə çatdırıb ki, urbanizasiyanın sürətlə yayıldığı indiki dövrdə yaşıl və təmiz enerjiyə keçid iqlim dəyişmələrinin təsirlərinin azalmasına kömək edə bilər.

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM





# Qədim şəhərsalma ənənələrindən müasir urbanizasiyaya

Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) Azərbaycanın qədim şəhərsalma ənənələrinin və müasir urbanizasiya siyasətinin beynəlxalq səviyyədə təqdimatı baxımından mühüm əhəmiyyət daşıyır. Dünyanın müxtəlif ölkələrindən olan mütəxəssislərin, memarların və şəhərsalma üzrə ekspertlərin iştirak etdiyi forum şəhərlərin dayanıqlı inkişafı, tarixi irsin qorunması və müasir texnologiyaların tətbiqi kimi məsələlərin müzakirəsinə geniş imkan yaradır.

Forum çərçivəsində səsləndirilən fikirlər bir daha təsdiq edir ki, müasir şəhərlərin inkişafı yalnız yeni binaların inşası ilə deyil, həm də tarixi-mədəni irsin qorunması ilə ölçülür. Azərbaycan da bu istiqamətdə özünəməxsus inkişaf modeli formalaşdırıb. Bir tərəfdən qədim abidələr, tarixi küçələr və milli memarlıq nümunələri qorunur, digər tərəfdən innovativ layihələr və müasir infrastruktur qurulur. Bu baxımdan WUF13 Azərbaycanın keçmişlə gələcəyi birləşdirən inkişaf strategiyasını beynəlxalq ictimaiyyətə nümayiş etdirən mühüm platformadır.

Azərbaycan xalqı qədim dövrlərdən etibarən şəhərsalma ənənələrinə malik olmuş, yaşadığı məkanları həm də mədəniyyət və ticarət mərkəzinə çevirmişdir. Qədim tarixə malik Gəncə Azərbaycan xalqının şəhərsalma mədəniyyətinin nümunələrindəndir. Tarix boyunca sənətkarlıq, elm və ədəbiyyat mərkəzi kimi tanınan bu şəhər özünün abad küçələri, karvansaraları və memarlıq abidələri ilə seçilib. Dahi Azərbaycan şairi Nizami Gəncəvinin burada yetişməsi Gəncənin qədim dövrlərdə yüksək mədəni mühitə malik olduğunu göstərir. Şəhərin yerləşdiyi əlverişli coğrafi mövqe onun həm iqtisadi, həm də siyasi əhəmiyyətini artırmışdır.

Azərbaycanın qədim şəhərlərindən olan Naxçıvan, Şamaxı və Qəbələ də xalqımızın yüksək şəhərsalma mədəniyyətini əks etdirir. Naxçıvan öz möhtəşəm türbələri və qədim yaşayış məskənləri ilə seçilir. Şamaxı əsrlər boyu Şirvanşahlar dövlətinin əsas mədəniyyət və ticarət mərkəzlərindən biri olmuşdur. Qəbələ isə qədim Qafqaz Albaniyasının paytaxtı kimi tarixdə mühüm yer tutur. Bu şəhərlərin hər biri Azərbaycan xalqının quruculuq bacarığını, zəngin mədəni irsini və sivilizasiya ənənələrini yaşadan qiymətli nümunələrdir.

Xəzər sahilində yerləşən Bakı isə əsrlər boyu Şərqlə Qərbi birləşdirən mühüm liman şəhəri kimi inkişaf edib. İçərişəhərin dar küçələri, qədim karvansaraları və müdafiə qalaları xalqımızın memarlıq düşüncəsinin zənginliyini nümayiş etdirir. Neft sənayesinin inkişafı ilə Bakı daha da böyüyərək Qafqazın ən iri şəhərlərindən birinə çevrilib. WUF13-ün açılış mərasimində çıxış edən Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan Avropa ilə Asiya arasında yerləşir və hər zaman Şərqin Qərb ilə qovuşduğu məkan olub: "Bu, həmçinin ölkəmizin memarlığında əks olunub. Beləliklə, əgər siz Bakıda İçərişəhərin qədim divarları arasında gəzsəniz, sonra bircə küçəni keçsəniz, özünüzü tamamilə müasir mühitdə hiss edəcəksiniz - vaxtilə üç kilometr olmuş Bakı bulvarı hazırda 15 kilometrdən artıq tanınmış dənizkənarı məkandır".

Azərbaycan şəhərləri yalnız memarlıq baxımından deyil, həm də elm, sənət və ticarətin inkişaf etdiyi mühüm mərkəzlər kimi tanınıb. Qədim karvan yollarının üzərində yerləşən bu şəhərlərdə bazarlar, mədrəsələr, hamamlar və sənətkarlıq emalatxanaları fəaliyyət göstərib. Şərq memarlığının incə xüsusiyyətlərini özündə birləşdirən tikililər xalqımızın estetik zövqünü və yüksək quruculuq ənənələrini nümayiş etdirib. Bu şəhərlərdə formalaşan mədəni mühit Azərbaycan xalqının zəngin mənəvi dünyasının inkişafına da böyük təsir göstərib.

Dövlətimizin başçısı çıxışında XIX əsrdə Avropa memarları tərəfindən layihələndirilmiş və tikilmiş binalarımızdan da söhbət açdı. Bildirdi ki, XIX əsrin ikinci yarısından etibarən Azərbaycanda urbanizasiya prosesi sürətlənməyə başlayıb. Xüsusilə Bakıda neft sənayesinin inkişafı yeni yaşayış məhəllələrinin, sənaye müəssisələrinin və müasir infrastrukturun formalaşmasına səbəb olub. Bununla yanaşı, Gəncə, Şamaxı və digər şəhərlərdə də iqtisadi və mədəni canlanma müşahidə edilib. Avropa memarlıq üslubunun milli memarlıq ənənələri ilə vəhdəti şəhərlərimizin simasında bu gün də özünü göstərir. Azərbaycanın qədim şəhərləri müasirləşsə də, xalqımız tarixi irsin qorunmasına xüsusi diqqət yetirir. Bu siyasət müstəqillik dövründə daha geniş miqyas alaraq dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilib. Tarixi abidələrin bərpası, qədim küçə və məhəllələrin qorunması, eyni zamanda müasir yaşayış komplekslərinin və infrastruktur layihələrinin həyata keçirilməsi şəhərlərin həm tarixi ruhunu, həm də müasir görünüşünü qoruyub saxlayır.

Bu gün Azərbaycanda həyata keçirilən quruculuq və abadlıq işləri keçmişə hörmətlə yanaşmağın və müasir inkişaf strategiyasının uğurlu vəhdəti kimi qiymətləndirilir. Beləliklə, xalqımız əsrlərlə formalaşdırdığı şəhəryaratma ənənələrini müasir dövrün tələblərinə uyğun şəkildə davam etdirir.

Hazırda Azərbaycanın qədim şəhərləri öz tarixi simasını qorumaqla yanaşı, müasir inkişaf mərhələsini yaşayır. Aparılan genişmiqyaslı abadlıq və bərpa işləri nəticəsində qədim abidələr mühafizə olunur, yeni yaşayış və mədəniyyət mərkəzləri salınır. Müasir Azərbaycan şəhərləri keçmişin zəngin irsi ilə bugünkü inkişafın vəhdətini özündə birləşdirir. Bu isə xalqımızın əsrlər boyu yaşatdığı şəhərsalma ənənələrinin davam etdiyini və gələcək nəsillərə ötürüldüyünü göstərir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Dünyanın şəhərsalma gündəliyi Bakıda müzakirə olunur

Bakı bu günlərdə dünyanın diqqət mərkəzindədir. Paytaxtımız mayın 17-dən etibarən qlobal şəhərsalma gündəmini müəyyənləşdirən ən nüfuzlu beynəlxalq platformalardan biri - Ümumdünya Şəhərsalma Forumunun (WUF13) 13-cü Sessiyasına evsahibliyi edir. BMT-nin Məskunlaşma Proqramı - UN-Habitat və Azərbaycan hökumətinin birgə təşkilatçılığı ilə keçirilən forum mayın 22-dək davam edəcək.




















"Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusuna həsr olunan tədbir miqyası və iştirakçı sayı ilə WUF tarixində xüsusi yer tutub. Dünyanın 182 ölkəsindən 45 mindən çox iştirakçının qeydiyyatdan keçməsi forumun beynəlxalq əhəmiyyətini bir daha nümayiş etdirir.

Forumun əsas məkanlarından biri olan Bakı Olimpiya Stadionunun ətrafına yaxınlaşdıqca burada nəhəng tədbir üçün yaradılan atmosfer dərhal hiss olunur. Əraziyə daxil olan andan etibarən yüksək təşkilatçılıq, sistemli idarəetmə və təhlükəsizlik tədbirləri diqqəti cəlb edir. Minlərlə iştirakçının hərəkət etdiyi bir məkanda koordinasiyanın bu qədər dəqiq qurulması forumun təşkilati səviyyəsinin nə qədər peşəkar şəkildə planlaşdırıldığını göstərir. Könüllülər, informasiya masaları, elektron istiqamətləndirici sistemlər və rəqəmsal məlumat lövhələri iştirakçıların tədbir zonasında rahat hərəkətinə imkan yaradır.

Forum məkanına daxil olduqdan sonra isə WUF13-ün əzəməti daha aydın görünür. Müxtəlif dillərdə danışan insanlar, fərqli ölkələrin nümayəndələri, beynəlxalq təşkilatların təmsilçiləri, şəhər planlaşdırıcıları, memarlar, ekoloqlar və investorlar eyni platformada qlobal urbanizasiya problemlərini müzakirə edirlər. Burada şəhərlərin gələcəyi, iqlim dəyişiklikləri, "yaşıl enerji", inklüziv şəhər mühiti, rəqəmsal transformasiya və dayanıqlı inkişaf məsələləri əsas müzakirə mövzularındandır.

Ümumilikdə 53 hektarlıq ərazini əhatə edən forum zonasında plenar iclas zalları, innovasiya sahələri, media mərkəzləri, açıq hava platformaları və geniş sərgi məkanları yaradılıb. Açılış və bağlanış mərasimlərinin keçirildiyi əsas zal eyni anda 6 min nəfəri qəbul etmək imkanına malikdir. Ərazidə qurulan ümumi vizual konsepsiya isə Azərbaycanın milli-mədəni irsini müasir memarlıq yanaşmaları ilə birləşdirir. İstirahət guşələrində İçərişəhər memarlığından ilhamlanan elementlər, milli ornamentlər və Azərbaycan xalçaçılığına məxsus naxışlar istifadə olunub. Bu yanaşma həm ölkənin qədim mədəniyyətini təqdim edir, həm də müasir tədbir estetikası ilə milli ruhun vəhdətini yaradır.

Forumun ən maraqlı məkanlarından biri açıq hava formatında təşkil olunan WUF13 bulvarıdır. Burada iştirakçılar sərbəst şəkildə gəzə, istirahət edə, müxtəlif ölkələrin təqdimatlarını izləyə və Bakı atmosferini hiss edə bilirlər. Bulvar həm də forumun əsas sərgi zonası hesab edilən "Urban Expo"ya keçid rolunu oynayır. Məhz burada dünyanın müxtəlif ölkələri öz şəhərsalma təcrübələrini, innovativ həllərini və gələcək şəhər modellərini nümayiş etdirirlər.

"Urban Expo" sərgisi forumun ən canlı və dinamik hissələrindən biridir. Burada 121 pavilyon fəaliyyət göstərir ki, onların da 41-i milli pavilyonlardır. Dövlət qurumları, beynəlxalq təşkilatlar, özəl şirkətlər, universitetlər və tədqiqat mərkəzləri urbanizasiya və dayanıqlı inkişaf sahəsindəki fəaliyyətlərini təqdim edirlər. Pavilyonlar, sadəcə, sərgi məkanı deyil, həm də fikir mübadiləsi, əməkdaşlıq və gələcək layihələrin müzakirə platforması rolunu oynayır.

Sərginin ən böyük və diqqətçəkən pavilyonlarından biri isə Azərbaycan pavilyonudur. Təxminən 1500 kvadratmetr sahəni əhatə edən bu məkan ölkənin müasir şəhərsalma siyasətini, memarlıq baxışını və dayanıqlı inkişaf modelini nümayiş etdirir. Pavilyonun dizaynında Heydər Əliyev Mərkəzinin memarlıq konsepsiyasından ilhamlanılıb. Dünyaşöhrətli memar Zaha Hadidin müəllifi olduğu həmin memarlıq üslubunun axıcı və futuristik xətləri pavilyonun ümumi quruluşunda da hiss olunur.

Azərbaycan pavilyonuna daxil olduqda ilk diqqətçəkən məqam milli ruhun müasir təqdimatla vəhdət təşkil etməsidir. Bir tərəfdə xalçaçılar canlı şəkildə xalça toxuyur, digər tərəfdə musiqiçilər tar və kamança ifa edir, rəssamlar isə Bakının mənzərələrini kətana köçürürlər. Pavilyonun mərkəzində yerləşdirilən böyük Azərbaycan maketi isə ölkənin təbii gözəlliklərini, şəhərlərini və memarlıq nümunələrini bir arada nümayiş etdirir.

Qalereya hissəsində Azərbaycanın son illərdə həyata keçirdiyi şəhərsalma layihələri təqdim olunur. Burada qədim irsimizi əks etdirən İçərişəhərdən tutmuş müasir urbanizasiya nümunələrinə qədər geniş ekspozisiya yer alıb. Xüsusilə Qarabağ və Şərqi Zəngəzurda aparılan yenidənqurma layihələri iştirakçıların böyük marağına səbəb olur. İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları, "yaşıl enerji" layihələri və ekoloji yanaşmalar Azərbaycanın gələcək inkişaf strategiyasını nümayiş etdirən əsas istiqamətlərdən biridir.

Pavilyonda yaradılan virtual reallıq zonaları ziyarətçilərə Azərbaycanın müxtəlif bölgələrini interaktiv şəkildə tanımaq imkanı verir. Turizm guşələrində ölkənin tarixi məkanları, təbiəti və mədəniyyət nümunələri təqdim olunur. Milli mətbəx bölməsində isə xarici qonaqlara Azərbaycan mətbəxinin nümunələri təqdim edilir. Bu məkan forum iştirakçılarında xüsusi maraq və rəğbət yaradır.

"Urban Expo" sərgisində diqqət çəkən pavilyonlardan biri də DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinə məxsusdur. "İnklüzivliyin və yaradıcılığın qovuşduğu məkan" mövzusunda qurulan bu pavilyon sosial inklüzivliyin və yaradıcı yanaşmanın uğurlu nümunəsini nümayiş etdirir. Burada mərkəzin benefisiarları tərəfindən hazırlanan müxtəlif əl işləri sərgilənir. Dulusçuluq, vitraj sənəti, bədii oyma və təsviri incəsənət nümunələri həm estetik baxımdan maraq doğurur, həm də inklüziv cəmiyyət modelinin önəmini nümayiş etdirir.

Ekspozisiyada Azərbaycanın tarixi memarlıq abidələrinin təsvir olunduğu sənət əsərləri də xüsusi yer tutur. Ziyarətçilərə mərkəzin fəaliyyəti, həssas əhali qruplarının cəmiyyətə inteqrasiyası istiqamətində görülən işlər və həyata keçirilən sosial layihələr haqqında ətraflı məlumat verilir. Pavilyonda quraşdırılmış monitorlarda müxtəlif videoçarxlar nümayiş olunur, iştirakçılara məlumatlandırıcı bukletlər paylanılır.

Ən çox maraq doğuran hissələrdən biri isə vitraj sənəti üzrə təşkil olunan master-klaslar idi. Xarici qonaqlar və forum iştirakçıları bu prosesə qoşularaq öz bacarıqlarını sınayır, sənət nümunələrinin hazırlanmasında iştirak edirdilər. Bu cür interaktiv təqdimatlar forumun yalnız nəzəri müzakirələrlə məhdudlaşmadığını, həm də mədəni və sosial inteqrasiyanı təşviq etdiyini göstərir.

Enerji sektoru da WUF13 çərçivəsində geniş şəkildə təmsil olunur. "Azərenerji" və "Azərişıq" şirkətlərinin birgə təqdim etdiyi pavilyon müasir enerji infrastrukturu və rəqəmsal transformasiya layihələrinə həsr olunub. Burada Azərbaycanın enerji sisteminin inkişaf mərhələləri, innovativ texnologiyalar və gələcək enerji strategiyası nümayiş etdirilir.

Pavilyonda təqdim olunan "Azərbaycan enerji sisteminin arxitekturası" və "Şəbəkə memarlığı" kitabları iştirakçıların xüsusi marağına səbəb olub. Burada enerji təhlükəsizliyi, dayanıqlı enerji infrastrukturu və müasir idarəetmə mexanizmləri haqqında geniş məlumat verilir. Qapalı tipli "Xankəndi" və "Ağ Şəhər" yarımstansiyalarının maketləri, enerji şəbəkələrini əks etdirən interaktiv stendlər isə ziyarətçilərin diqqətini cəlb edən əsas hissələrdəndir.

Forumda Azərbaycanın ali təhsil müəssisələri də fəal iştirak edirlər. Bakı Dövlət Universiteti, Qarabağ Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, UNEC, Sumqayıt Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti və Bakı Mühəndislik Universiteti kimi ali məktəblərin pavilyonları tələbələrin innovativ layihələrini nümayiş etdirir. Universitetlərin təqdim etdiyi startap layihələri urbanizasiya, ekoloji həllər, süni intellekt, enerji səmərəliliyi və "ağıllı şəhər" texnologiyalarını əhatə edir. Gənclərin ideyalarının beynəlxalq auditoriyaya təqdim olunması həm Azərbaycanın təhsil potensialını nümayiş etdirir, həm də gələcək əməkdaşlıqlar üçün yeni imkanlar yaradır.

Pavilyonlarda nümayiş olunan layihələr iştirakçılar tərəfindən böyük maraqla qarşılanır. Xüsusilə ekoloji dayanıqlılıq və "yaşıl enerji" ilə bağlı təqdimatlar diqqət mərkəzindədir. Tələbələr öz layihələrini interaktiv təqdimatlar və rəqəmsal həllərlə nümayiş etdirirlər. Forum gənclərin beynəlxalq təcrübə qazanması üçün də mühüm platforma rolunu oynayır. Ali təhsil müəssisələrinin sərgidə fəal iştirakı ölkədə innovativ düşüncənin inkişaf etdiyini göstərir. Burada əldə olunan yeni əlaqələrin gələcəkdə ortaq layihələrin həyata keçirilməsinə töhfə verəcəyi gözlənilir. WUF13 çərçivəsində universitetlərin nümayiş etdirdiyi təşəbbüslər Azərbaycanın elm və təhsil sahəsində artan nüfuzunu bir daha nümayiş etdirir.

Forum iştirakçılarının ən çox maraq göstərdiyi guşələrdən biri də "Sea Breeze" layihəsinə həsr olunmuş ekspozisiyadır. Burada təqdim olunan geniş maketlər layihənin miqyasını və futuristik yanaşmasını aydın şəkildə göstərir. Kurort və yaşayış komplekslərini əhatə edən layihələr, süni ada, əyləncə zonaları və müasir memarlıq həlləri xarici qonaqların diqqətini cəlb edir. Pavilyonda nümayiş etdirilən interaktiv təqdimatlar vasitəsilə ziyarətçilər layihənin gələcək inkişaf mərhələləri ilə yaxından tanış olurlar. Xüsusilə sahilyanı ərazilərin innovativ üsullarla planlaşdırılması iştirakçılar tərəfindən maraqla qarşılanır. Layihədə ekoloji tarazlığın qorunmasına xüsusi önəm verilməsi də diqqətçəkən məqamlardan biridir. Burada "yaşıl enerji" həlləri, "ağıllı idarəetmə sistemləri" və dayanıqlı şəhərsalma prinsipləri ön plana çıxarılır. Xarici investorlar və urbanistika üzrə mütəxəssislər layihənin region üçün yeni inkişaf modeli ola biləcəyini qeyd edirlər.

"Sea Breeze"in yalnız turizm deyil, həm də yaşayış və biznes imkanlarını bir araya gətirən müasir şəhər konsepsiyası olduğu vurğulanır. Təqdim olunan vizual materiallar gələcəkdə ərazinin necə böyük və funksional məkana çevriləcəyini aydın nümayiş etdirir. Forum iştirakçıları layihənin memarlıq baxımından cəsarətli və innovativ yanaşmasını yüksək qiymətləndirirlər. Xəzər sahilində həyata keçirilən bu konsepsiyanın Bakının beynəlxalq imicinə əlavə töhfə verəcəyi bildirilir. Ekspozisiya ətrafında yaranan canlı müzakirələr layihəyə olan marağın kifayət qədər böyük olduğunu göstərir. Müxtəlif ölkələrdən gələn nümayəndələr layihənin texniki və memarlıq xüsusiyyətləri ilə bağlı suallar ünvanlayırlar. Təqdimat zamanı layihənin gələcəkdə iqtisadi və turizm potensialına yaradacağı təsirlər barədə də ətraflı məlumat verilir. Qeyd olunur ki, bu cür irimiqyaslı layihələr şəhərsalma sahəsində yeni yanaşmaların tətbiqinə imkan yaradır. "Sea Breeze" guşəsi forumun ən çox ziyarət olunan və diqqətçəkən məkanlarından biri kimi yadda qalır.

"Ağ Şəhər" layihəsinə həsr olunmuş pavilyon da forumun ən böyük sərgi məkanlarından biridir. Pavilyonun mərkəzində yerləşdirilən iri maket Ağ Şəhərin gələcək urbanistik modelini əks etdirir. Müxtəlif memarlıq üslublarında inşa olunan rayonlar, yaşıllaşdırma zonaları, yaşayış və kommersiya sahələri layihənin miqyasını nümayiş etdirir. Təqdim olunan məlumatlara əsasən, layihə çərçivəsində onlarca yaşayış və biznes zonası, geniş bulvar xətti, yüz minlərlə insan üçün yaşayış və iş imkanları yaradılır.

WUF13 yalnız şəhərsalma forumu deyil. Bu tədbir eyni zamanda Azərbaycanın beynəlxalq nüfuzunun, təşkilatçılıq imkanlarının və müasir inkişaf modelinin nümayişidir. Burada yaradılan mühit, təqdim olunan layihələr və sərgilənən innovativ yanaşmalar Azərbaycanın şəhərsalma və dayanıqlı inkişaf sahəsində iddialı hədəflərə malik olduğunu göstərir.

Forum iştirakçıları ilə söhbətlər zamanı onların əksəriyyəti Bakının sürətli inkişafını, müasir memarlıq simasını və şəhərin təhlükəsiz mühitini xüsusi vurğuladı. Xarici qonaqların diqqətini çəkən əsas məqamlardan biri isə qədimliklə müasirliyin Bakıda harmonik şəkildə birləşməsidir. Bir tərəfdə əsrlərin yadigarı olan İçərişəhər, digər tərəfdə futuristik memarlıq nümunələri paytaxtın unikal simasını formalaşdırır.

WUF13 çərçivəsində keçirilən tədbirlər, təqdimatlar və beynəlxalq müzakirələr bir daha göstərir ki, gələcəyin şəhərləri artıq bu gün formalaşır. Həmin gələcəyin qurulmasında isə Azərbaycan öz təcrübəsi, layihələri və baxışları ilə qlobal urbanizasiya prosesində fəal iştirak edir. Dünya şəhərsalma gündəminin bu gün Bakıda müzakirə olunması isə ölkəmizin beynəlxalq arenada artan rolunun daha bir göstəricisidir.

***Ülkər XASPOLADOVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

# WUF13: Unikal təcrübə mübadiləsi platforması

## Avrokomissar Dan YORGENSEN: "Qlobal mənzil böhranından ən çox əziyyət çəkən gənclərdir"

"Mənzil böhranı insanların rəqabətinə təhdid yaradır, təhsilinə və tədrisinə problem yaradır".

Bunu Avropa İttifaqının enerji və mənzil siyasəti üzrə komissarı Dan Yorgensen BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində keçirilən "Qlobal mənzil böhranı: Plan nədir?" adlı dialoq sessiyasına videomüraciətində deyib.



O bildirib ki, gənclər yeni ailə qurmaq üçün evini tərk edə, yeni evə sahib ola bilmirlər: "Qlobal mənzil böhranından ən çox əziyyət çəkən gənclərdir. Onların sosial evlərə çıxışı olmur, həmçinin işsizlərin sayı artır. Avropa İttifaqı ölkələrində milyonlarla evsiz insan var. Onların 35 faizi gənclərdir. Bu rəqəmlər həqiqətdir və qəbuledilməzdir", - deyə avrokomissar əlavə edib.

### İcraçı direktor Anaklaudia ROSSBAX: "Dünyada 2 milyarddan çox insanın təhlükəsiz içməli suya çıxışında problem var"

"Dünyada 2 milyarddan çox insanın təhlükəsiz içməli suya çıxışında problem var. Eyni zamanda kanalizasiya problemi yaşayan insanların da sayı həddindən artıq çoxdur".



BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində keçirilən "Qlobal mənzil böhranı: Plan nədir?" adlı dialoq sessiyasında çıxışı zamanı belə deyib: "2050-ci ilədək dünya əhalisinin artacağını bilirik. İki milyard insan şəhərlərə gəlir və şəhərlər ətrafında yerləşir. Bunu əsasən Asiya və Afrikada görürük. İnkişafın və artımın yarısı məhz şəhərlərdə baş verir. Bu, yumşaq keçid deyil, əslində, şəhərsalma və urbanizasiyanın ən sürətli prosesidir", - deyə icraçı direktor bildirib.

### Volter TÜRK: "WUF13 dünyamızı daha dayanıqlı yerə çevirmək üçün fürsətdir"

"BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) impuls yaratmaq və dünyamızı daha dayanıqlı yerə çevirmək üçün fürsətdir".



BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı Volker Türk WUF13 çərçivəsində keçirilən "Qlobal mənzil böhranı: Plan nədir?" adlı dialoq sessiyasına videomüraciətində belə deyib: "Bütün dövlətlər, yerli hakimiyyət orqanları insan hüquqlarına hörmət edərək bunları etməlidirlər. Mənzil təminatı siyasətləri daha dayanıqlı və daha inklüziv cəmiyyətlər üçün çalışmalıdırlar. İnsanların qərarvermə prosesində iştirakı təmin edilməlidir. Çünki insan hüquqları bir lüks deyil. İnsanlar hər şeydən qorunmalıdırlar. İqlim böhranı artdığı üçün biz infrastrukturları buna uyğun qurmalıyıq. Biz, həmçinin infrastrukturlar üçün lazımi maliyyə strukturlarını yaratmalıyıq. Siyasi iradə, bir yerdə işləmək istəyi hər yerdə insanlar üçün həll yolları tapmağa kömək edə bilər", - deyə o əlavə edib.

### Francine PİCKUP: "Biz məskunlaşmaya sosial funksiya kimi baxmalıyıq"

"Bəzi ölkələrdə investisiyalar yalnız yüksəkgəlirli məskunlaşma evlərinə yönəlir. Nəticədə yerdəyişən icmalar, balaca şəhərlər investisiyadan kənarda qalırlar".



Bu barədə BMT-nin İnkişaf Proqramının siyasət və proqram dəstəyi bürosunun direktor müavini Francine Pickup BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində keçirilən "Mənzilin sosial və iqtisadi gücü. Mənzil hər kəs üçün bərabərlik təmin edərkən rifaha necə təkan verə bilər?" mövzusunda tədbirdə çıxışı zamanı deyib: "Biz məskunlaşmaya sosial funksiya kimi baxmalıyıq və bu çox vacibdir. Məskunlaşma bütün xidmətlərə çıxış təmin edir - səhiyyə, sosial məşğulluq və sair. Məsələn, Kolumbiyada təcrübə var ki, on illərlə münaqişə içində yaşayan bir ölkədə biz 170 bələdiyyə ilə əməkdaşlıq çərçivəsində icmaların bir-birinə etimadını gücləndirdik, insanlarla yerli qurumlar arasında inamı artırdıq. Bu həm də böhranlara dayanıqlığı artırmaqdır", - deyə F.Pickup qeyd edib.

O bildirib ki, heç kim böhran və şoklardan sığortalanmayıb: "Məskunlaşma dayanıqlı inkişaf mövzusudur. Biz donor vəsaitlərini cəlb edib digər maliyyə mənbələrinə çıxış əldə edirik. Məskunlaşma qadınların iqtisadi imkanlarını da dəyişir".

### Yves-Laurent SAPOVAL: "Dünya əhalisinin aktivlərinin 50 faizi daşınmaz əmlakdadır"

"Hazırda məskunlaşma dünyanın gündəliyinin vacib mövzusudur. Biz unutmamalıyıq ki, məskunlaşma həm iqtisadi, həm də sosial mövzudur".



Bu barədə Fransanın Ərazi, Ekologiya və Mənzil Təsərrüfatı nazirliklərində Davamlı Şəhərlər üzrə Nazir Nümayəndəsi və Şəhər Elçisi Yves-Laurent Sapoval Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində keçirilən "Mənzilin sosial və iqtisadi gücü. Mənzil hər kəs üçün bərabərlik təmin edərkən rifaha necə təkan verə bilər?" mövzusunda tədbirdə çıxışı zamanı belə söyləyib. O bildirib ki, qlobal rifah sırf məskunlaşma ilə bağlıdır: "Dünya əhalisinin aktivlərinin 50 faizi sırf daşınmaz əmlakdadır. Daşınmaz əmlak iqlim dəyişmələrinə məruz qalır. Burada həm də demoqrafiya məsələsi var. Biz inkişafı dayandırmamalıyıq, sosial mənzillərin sayını artırmalıyıq. İşçi qüvvəsi yerdəyişmə üçün yaşamağa yer tapmalıdır. Bu həm də ölkələrdə tələbə kütləsi üçün vacibdir. Yeni mənzilləri bazara çıxaranda vəziyyət ağırlaşdırıcı olmamalıdır. Bunun üçün mütləq şəkildə innovasiya lazımdır", - deyə Yves-Laurent Sapoval qeyd edib.

### Şahzadə Lamiyə bint Məcid ƏL-SƏUD: "Mənzil insanların ləyaqətli və təhlükəsiz yaşamağın nə demək olduğunu başa düşmələri üçün başlanğıc nöqtəsidir"

"Mənzil insanların ləyaqətli və təhlükəsiz yaşamağın nə demək olduğunu başa düşmələri üçün başlanğıc nöqtəsidir".



Bu sözləri BMT-nin Məskunlaşma Proqramında ərəb ölkələrinin xoşməramlı səfiri Şahzadə Lamiyə bint Məcid Əl-Səud WUF13 çərçivəsində keçirilən "Mənzilin sosial və iqtisadi gücü. Mənzil hər kəs üçün bərabərlik təmin edərkən rifaha necə təkan verə bilər?" mövzusunda tədbirdə deyib. Səfir bildirib ki, onlar tərəfindən dünyanın müxtəlif yerlərində 1,2 milyon mənzil tikilib, bu sektora 5 milyard dollardan çox sərmayə qoyulub: "Biz UN-Habitat ilə sıx əməkdaşlıq edirik. Yəməndə 5000 benefisiarı əhatə edən proqramlar hazırladıq və orada iş imkanları yaratdıq. Biz valideynləri müstəqil olmağa öyrətmişik. Yəmənli qadınlar üçün evlər tikmişik. Həmçinin icmalara dəstək oluruq ki, evlər tiksinlər. Biz ailələri təlimləndiririk ki, öz pulunu qazansınlar və bu da ləyaqətin bir növüdür. Biz dövlətlərlə, hökumətlərlə işləyirik, onlara siyasətin formalaşmasında dəstək oluruq, xeyriyyə təşkilatlarının vəsaitlərini cəlb edirik", - deyə Şahzadə qeyd edib.

### Səfir Cəbril İbrahim ABDUL: "Sosial inklüzivlik və mənzil təminatı cəmiyyətin dayanıqlı inkişafında mühüm rol oynayır"

"Sosial inklüzivlik və mənzil təminatı bir-biri ilə ayrılmaz şəkildə bağlıdır və cəmiyyətin dayanıqlı inkişafında mühüm rol oynayır".



Bunu Somalinin Keniyadakı səfiri Cəbril İbrahim Abdul WUF13 çərçivəsində keçirilən "Mənzilin sosial və iqtisadi gücü. Mənzil hər kəs üçün bərabərlik təmin edərkən rifaha necə təkan verə bilər?" mövzusunda tədbirdə deyib. O bildirib ki, müharibə və münaqişələr insanların yaşayış şəraitinə ağır təsir göstərərək həm sosial, həm də psixoloji travmalar yaradır, nəticədə yerdəyişmə və mənzil problemi daha da dərinləşir: "Bu istiqamətdə ölkəmizdə özəl sektorun, eləcə də Somali diasporunun mənzil sektoruna verdiyi töhfələr mühüm əhəmiyyət kəsb edir və yeni yaşayış məkanlarının qurulmasına dəstək verir. Torpaq idarəçiliyinin düzgün təşkili, torpağa əlçatanlığın təmin olunması və yerdəyişmə məsələlərinin həlli isə uzunmüddətli sosial sabitlik üçün əsas şərtlərdən biridir".

### Dünya Gözdən Əlillər Birliyinin prezidenti Santoş KUMAR: "Fiziki məhdudiyyətli insanların evlə təmin olunması əlçatan olmalıdır"

"Fiziki məhdudiyyətli insanların evlə təmin olunmasını əlçatan etməliyik. Tikilən binalar fiziki məhdudiyyətli insanlar üçün əlçatan deyilsə, rəqəmsallaşdırma imkanları yaradılmırsa, o zaman bu, artıq məskunlaşma sayıla bilməz".



Bu barədə Dünya Gözdən Əlillər Birliyinin prezidenti Santoş Kumar Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində keçirilən "Mənzilin sosial və iqtisadi gücü. Mənzil hər kəs üçün bərabərlik təmin edərkən rifaha necə təkan verə bilər?" mövzusunda tədbirdə deyib. O qeyd edib ki, dünyada insanları evlə təmin etmək iqtisadi inkişafla əlaqəlidir: "Bunun sosial tərəfləri də var. Əgər iqtisadiyyat təzyiq altındadırsa bu, o deməkdir ki, evləri satın almaq istədiyimiz kimi ola bilmir. İnsanların evlə təmin edilməsi daşınmaz əmlak üçün investisiya deməkdir. Bəzi ölkələrin binalarının dizaynında da inkişaf görürük. Məsələn, Hindistanda bəzi əlçatanlıqla əlaqəli işlər görülür. Bəzi Avropa ölkələrində sosial evlər təmin etmək proqramları var. Orada da xüsusi insanlar üçün imkanlar yaradılır, xüsusi nəqliyyat təmin edilir, həm də ictimai dəstək sistemi qurulur. Əlçatanlıq sonradan qurulmamalıdır. İnklüziv şəkildə əvvəldən nəzərə alınanda bundan təkcə fiziki məhdudiyyətli insanlar deyil, digər kateqoriyadan olan insanlar, qadınlar və uşaqlar da yararlana bilər. Təəssüf ki, mənzilə sosial funksiya kimi deyil, iqtisadi artım funksiyası kimi baxılır ki, bu da son dərəcə yanlışdır", - deyə S.Kumar qeyd edib.

### Zarina MİRABDULLAYEVA: "Könüllülər şəhərlərin modernləşdirilməsinin əsas komponentidir"

"Mən burada, əlbəttə ki, könüllüləri sevdiyim və onlar haqqında daha çox öyrənmək, onlarla ünsiyyət qurmaq istədiyim üçün iştirak edirəm. Amma məsələ yalnız bununla bağlı deyil. Mən həm də bu foruma olan sevgimə görə buradayam. Sessiya çox gözəl və bayram ab-havalı görünür. Burada olmaq, bu qədər insanı və belə möhtəşəm tədbiri görmək məni çox sevindirdi. Bu, mənim üçün böyük şərəfdir".



Bu sözləri BMT Könüllüləri Proqramının Avropa və Mərkəzi Asiya üzrə regional əlaqələndiricisi Zarina Mirabdullayeva BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində "Urbanizasiyada ASAN modeli: Dövlət xidmətlərinin və könüllülüyün rolu" mövzusunda keçirilən panel görüşdən sonra jurnalistlərə açıqlamasında deyib.

Z.Mirabdullayeva bildirib ki, urbanizasiya və rəqəmsallaşma proseslərində insan amili heç vaxt unudulmamalıdır: "Biz təşkilatlanmadan və yaşadığımız məkanların rəqəmsallaşdırılmasından danışarkən, insan faktorunu diqqətdən kənarda qoya bilmərik. Mənim burada olma səbəbim də məhz budur. Könüllülər insanlar və yaşadıqları məkanlar arasında ən güclü bağ yaradan şəxslərdəndir".

O vurğulayıb ki, könüllülər müxtəlif tədbirlərdə, məkanlarda və təşkilatlarda insanların ilk qarşılaşdığı simalardır: "Mənim mesajım çox aydındır: könüllülər şəhərlərin innovasiyası, rəqəmsallaşdırılması və modernləşdirilməsi prosesinin əsas komponentidir".

### İordaniya Senatının üzvü Asya Abdel YAQİ: "Şəhərlər istisnasız hər kəs üçün uyğun olmalıdır"

"Cəmiyyətlərimizin müxtəlif sahələrindən olan bu qədər fərqli təcrübə və fikirlərin bir araya gəlməsi sübut edir ki, inklüzivlik artıq bir seçim deyil, təxirəsalınmaz humanitar və inkişaf zərurətidir".




Bunu İordaniya Senatının üzvü, "Mən insanam" Fiziki Məhdudiyyətli Şəxslərin Birliyinin sədri Asya Abdel Yaqi BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13- cü Sessiyası (WUF13) çərçivəsində "Əlilliyi olan insanlar üçün inklüziv şəhərlər və müstəqil həyat" mövzusunda keçirilən beynəlxalq təlimdə çıxış edərkən deyib. O, çıxışında qeyd edib ki, bu gün inklüziv şəhərlər və müstəqil həyat haqqında danışarkən söhbət yalnız mühəndislik və ya xidmətlərdən getmir: "Biz daha böyük bir sualı ortalığa qoyuruq: şəhər üzərindəki tam hüquq, əslində, kimə məxsusdur? Mən bu sualı ciddi şəkildə verirəm: şəhər yalnız güclü - rahatlıqla yeriyə, eşidə, görə və maneəsiz ünsiyyət qura bilən insanlar üçün layihələndirilib? Yoxsa istisnasız olaraq hər kəsi qəbul etmək üçün yaradılıb? Sürətli və köklü dəyişikliklər yaşayan müasir dünyamızda bu sual artıq, sadəcə, nəzəri bir məsələ deyil".

### Jan-Pyer Jose MARTİN: "Xalq öz torpağına və gələcəyinə nəzarət etmədiyi halda mənzil siyasəti ədalətli ola bilməz"

"Mənzil problemi yalnız iqtisadi məsələ deyil, həm də tarixi ədalətsizliklərin və müstəmləkəçilik siyasətinin nəticəsidir".




Bu fikirləri Beynəlxalq Reparasiyalar Hərəkatının prezidenti Jan-Pyer Jose Martin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində Bakı Təşəbbüs Qrupu (BTQ) tərəfindən "Müstəmləkə idarəçiliyinin yaratdığı ədalətsizliklər və mənzil böhranı" mövzusuna həsr olunmuş tədbirdə çıxışı zamanı səsləndirib: "Xalq öz torpağına, institutlarına və kollektiv gələcəyinə nəzarət etmədiyi halda heç bir mənzil siyasəti ədalətli ola bilməz. Xalqın özü cəmiyyətin strukturuna nəzarət etmədiyi halda dünyanı necə ləyaqətli şəkildə məskunlaşdırmaq olar? Müstəmləkəçilikdən qaynaqlanan və bu gün də davam edən ərazi məhrumiyyəti şəraitində ədalətli yaşayış siyasətindən danışmaq çətindir", - deyə Jan-Pyer Jose Martin bildirib.

### Rafael TUTS: "WUF13-də qurulan sistemlər gələcək nəticələrin müəyyənləşdirilməsində mühüm rol oynayacaq"

"WUF13 çərçivəsində aparılan müzakirələr zamanı formalaşdırılan sistemlər gələcək nəticələrin müəyyənləşdirilməsində mühüm rol oynayacaq".



Bu sözləri BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) Qlobal Həllər Bölməsinin direktoru Rafael Tuts "Hamı üçün layiqli mənzil təminatı" üzrə keçirilən sessiyalararası görüşdə deyib.

Onun sözlərinə görə, iqlim dəyişiklikləri mənzil təminatı, urbanizasiya və şəhərsalma kimi sahələrlə sıx şəkildə bağlıdır: "2015-2024-cü illər dövründə iqlim dəyişiklikləri nəticəsində dünyada ölkədaxili miqrantların sayı 248 milyona çatıb. Mənzil sektoru bu çağırışların həllində böyük potensiala malikdir. Bu istiqamətdə konkret və təxirəsalınmaz tədbirlərin görülməsi vacibdir".

R.Tuts iqlimə həssaslıq məsələsinin təcili həll tələb etdiyini və mövcud vəziyyətin əsasən imkan çatışmazlığından deyil, idarəetmədəki boşluqlardan qaynaqlandığını diqqətə çatdırıb: "Forum çərçivəsində hazırlanacaq tövsiyələr 2029-cu ildə keçiriləcək Habitat III görüşü üçün mühüm əhəmiyyət daşıyacaq. Ümumiyyətlə, WUF13 maliyyələşmə, dayanıqlılıq və iqlim məsələləri üzrə qlobal müzakirələr üçün mühüm platforma yaradıb".

### Sabiq Avropa komissarı Dimitris AVRAMOPOULOS: "Erkən xəbərdarlıq sistemləri ilə iqlimədayanıqlı mənzil siyasəti əlaqələndirilməlidir"

"Dünya əhalisinin yarıdan çoxu artıq şəhər ərazilərində yaşayır. Bu göstərici gələcək illərdə daha da artacaq. İstiqamət aydındır: bəşəriyyət getdikcə daha çox urbanlaşır. Şəhərlər artıq bütün qlobal çağırışların mərkəzində dayanır: iqlim dəyişikliyi, mənzil çatışmazlığı, miqrasiya, enerji keçidi, texnoloji transformasiya və sosial bərabərsizlik".

Bunu Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü, keçmiş Miqrasiya, Mənzil Məsələləri və Vətəndaşlıq üzrə Avropa komissarı Dimitris Avramopoulos BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən "Erkən xəbərdarlıq və iqlimə dayanıqlı şəhərlər" mövzusunda keçirilən tədbirdə çıxışı zamanı söyləyib.



O bildirib ki, bəşəriyyətin gələcəyi getdikcə daha çox şəhərlərdə formalaşacaq: "İqlim dəyişikliyi isə bu reallığı daha da təcili edir. Daşqınlar, istilik dalğaları, meşə yanğınları, quraqlıq və dəniz səviyyəsinin yüksəlməsi artıq uzaq gələcəyin problemləri deyil. Onlar artıq bütün dünyada şəhər həyatını dəyişdirir. İqlim dəyişikliyi təkcə ekoloji problem deyil. O həm də mənzil, idarəetmə və hər şeydən əvvəl insanlıq problemidir. İqlim şokları evləri məhv etdikdə onlar insanların dolanışığını zəiflədir, xidmətləri pozur, bərabərsizliyi dərinləşdirir və sosial sabitliyi zəiflədir. Fəlakətlər baş verdikdə isə ən həssas qruplar ilk zərər görənlər olur - riskli mənzillərdə yaşayan ailələr, aztəminatlı icmalar, yaşlı insanlar, uşaqlar və məcburi köçkünlər. Məhz buna görə erkən xəbərdarlıq sistemləri ilə iqlimədayanıqlı mənzil siyasəti bir-biri ilə sıx şəkildə əlaqələndirilməlidir. İqlimədavamlı mənzil artıq seçim deyil, bu, sosial həmrəyliyin və dayanıqlı şəhər inkişafının əsas şərtidir. Həmin prosesin mərkəzində isə bir əsas alət dayanır: erkən xəbərdarlıq. Proses qabaqlayıcı tədbirlə başlayır. Şəhərlər fəlakətlər baş verməzdən əvvəl riskləri müəyyən etməli, məlumatı yaymalı, effektiv şəkildə kommunikasiyanı təmin etməli və institutları səfərbər etməlidir", - deyə o diqqətə çatdırıb.

### BMT-nin nümayəndəsi Şeril SOYYER: "Şəhər əhalisi üzrə artımın yarısı 7 ölkədə cəmləşəcək"

"Qarşıdakı 25 ildə dünya üzrə şəhər əhalisinin artımının yarısı 7 ölkənin payına düşəcək. Hindistan, Nigeriya, Pakistan, Konqo Demokratik Respublikası, Misir, Banqladeş və Efiopiya birlikdə 2025-2050-ci illər arasında 500 milyondan çox yeni şəhər sakini əldə edəcək. Bu rəqəm həmin dövr üzrə proqnozlaşdırılan 986 milyonluq



qlobal şəhər əhalisi artımının yarısından çoxuna uyğun gəlir".

Bu məlumatı BMT-nin Əhali Bölməsinin nümayəndəsi Şeril Soyyer Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində "Gələcək urbanizasiya: Şəhəriniz növbəti onilliklərdə necə dəyişəcək?" mövzusunda keçirilən sessiyada təşkilatın 2025-ci il üzrə "Dünya Urbanizasiya Proqnozları"nı təqdim edərkən verib. O vurğulayıb ki, 2015-2025-ci illər arasında dünya üzrə 3000-dən çox şəhərdə əhalinin azalması müşahidə edilib. Bu şəhərlərin üçdə birindən çoxu Çinə, 17 faizi isə Hindistana aiddir. Hesabata görə, şəhərlərin böyüklüyü onların əhali artımına zəmanət vermir. Məsələn, Mexiko və Çendu kimi iri şəhərlər belə əhali azalması ilə üzləşib.

*"AZƏRTAC"*

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM



# Sərvətdən sənətə





**XIX əsrin sonu və XX əsrin əvvəllərində Bakı təkcə neftin deyil, həm də sənətin və sənətkarlığın mərkəzinə çevrilmişdir. Şəhərin simasını dəyişən, onu "Qafqazın Parisi" səviyyəsinə yüksəldən isə neft sənayesinin formalaşdırdığı yeni elita - Bakı milyonçuları idi.**

Onların memarlıq zövqü, sadəcə, var-dövlətin nümayişi deyildi, Şərqin köklü ənənələri ilə Qərbin müasir estetik anlayışının möhtəşəm ittifaqı idi. Həmin dövrün binaları sanki daşın yaddaşına həkk olunmuş bir intibah hekayəsidir. Hər biri fərqli memarlıq üslubunu - barokko, qotika, klassisizmi və moderni təmsil edirdi. Möhtəşəmliyi, əzəməti ilə seçilən mülklər Bakının mərkəzi küçələrini açıq səma altında bir muzeyə çevirirdi. Milyonçuların sifarişi ilə Avropadan dəvət olunan memarlar yerli əhəngdaşından istifadə edərək elə əsərlər yaradırdılar ki, onlar bu gün də şəhərin mədəni simasına xüsusi gözəllik verir.

Bu memarlıq mirası bir tərəfdən Avropaya açılan pəncərəni, digər tərəfdən milli mənsubiyyəti qorumaq istəyini əks etdirirdi. Məhz bu "zövqlər yarışı" sayəsində Bakı özünəməxsus memarlıq simfoniyasını yarada bilmişdi. Bu insanlar öz sərvətlərini bizneslə bərabər, həm də şəhərin mədəniyyətini və estetik görünüşünü formalaşdıran möhtəşəm saraylara yatırırdılar. Həmin dövrdə tikilən binalar yalnız yaşayış və ya iş yeri deyil, həm də sahibinin statusunun zənginliyini və dünyagörüşünü göstərən sənət əsərləri idi. Binalar yüksək zövqlə, bahalı materiallarla və detallı bəzəklərlə inşa edilirdi. Məsələn, Murtuza Muxtarovun həyat yoldaşı üçün tikdirdiyi saray - indiki "Səadət sarayı" Venesiya üslublu incəlikləri əks etdirir. Milyonçular özlərindən savayı, şəhərin inkişafı üçün də binalar tikdirirdilər. Musa Nağıyevin inşa etdirdiyi "İsmailiyyə" binası buna nümunədir. H.Z.Tağıyev Qafqazda ilk müsəlman Qızlar məktəbini tikdirdi. M.Nağıyev Realnı məktəbin inşasını maliyyələşdirdi. Milyonçular layihələr üçün məşhur Avropa və yerli memarlara - İosif Ploşko, Zivər bəy Əhmədbəyov və başqalarına müraciət edir, şəhərə həm üslublu, həm də müasir görkəm verirdilər. Hər bir milyonçu - H.Z.Tağıyev, M.Muxtarov, M.Nağıyev, Ş.Əsədullayev, İ.Hacınski öz mülklərində xüsusi bir üslubun üstünlük təşkil etməsinə çalışırdılar. Yalnız onların hamısını birləşdirən cəhət dövrün keyfiyyət və dəbə olan marağı idi.

Bakı milyonçularının sifarişi ilə inşa edilən binalarda bir neçə mühüm cəhət ön plana çıxır: eklektika və üslub müxtəlifliyi. Şəhərin mərkəzində Venesiya qotikası, barokko, neoklassisizm, modern və ampir üslublu binalar ucaldılıb. Milyonçular Avropa dəbdəbəsini yerli milli-dini elementlərlə ustalıqla birləşdirirdi. Zənginlər arasında kimin daha əzəmətli bina tikdirəcəyi ilə bağlı gizli rəqabət mövcud idi. Bəzi binalar, məsələn, İsa bəy Hacınskinin mülkü rəqabət nəticəsində qısa müddətdə inşa olunmuşdur.

Digər tərəfdən hər bir milyonçunun özünəməxsus zövqü binalarda aydın görünürdü. Murtuza Muxtarov Venesiya memarlığına xüsusi rəğbət bəsləyirdi. Musa Nağıyev daha çox momumental və simmetrik binalara üstünlük verirdi. Hacı Zeynalabdin Tağıyev klassik italyan intibahı və Şərq elementlərinin vəhdətini sevirdi. İsa bəy Hacınski müasirliyə və şəhərin mərkəzi nöqtələrində ucalan hündür binalara önəm verirdi.

Milyonçular öz xəyallarını reallığa çevirmək üçün Avropadan və yerli məktəblərdən ən yaxşı mütəxəssisləri dəvət edirdilər. İosif Qoslavski Tağıyevin sevimli memarı idi. İosif Ploşko "İsmailiyyə" və "Sədaət sarayı" kimi incilərin müəllifi idi. Zivər bəy Əhmədbəyov Şərq və Qərb üslublarını sintez edən mütəxəssis idi. İ.Edel "Qrifonlu ev" və Hacınskinin mülkü kimi binaları layihələndirmişdir.

## Keçmişdən gələcəyə

Bakı milyonçularının memarlıq zövqü, sadəcə, keçmişin parlaq səhifəsi deyil, həm də bu gün Bakının qlobal şəhərsalma müzakirələrinin mərkəzinə çevrilməsində mühüm strateji amildir. Etiraf edək ki, Azərbaycanda keçirilən WUF13 bu tarixi irslə müasir innovasiyaların dialoqu üçün ideal məkan təqdim edir.

WUF13-ün əsas mövzularından biri olan "mədəni irsin müasir inteqrasiyası" vaxtilə neft milyonçularının Bakıya gətirdiyi Avropa və Şərq sintezi ilə birbaşa səsləşir. Onların tikdirdikləri mülklər şəhərin estetik və sosial mühitini formalaşdırır. WUF13 isə bu yanaşmanı qlobal səviyyəyə daşıyaraq "hər kəs üçün yaşana bilən və inklüziv şəhərlər" konsepsiyasını Bakıdan dünyaya yaymağı hədəfləyir. XIX əsrdə Bakının simasını neft sahibkarları dəyişirdisə, bu gün WUF13 çərçivəsində özəl sektorun şəhərsalmadakı rolu ən yüksək səviyyədə müzakirə olunur.

WUF13 iştirakçıları üçün Bakı, sadəcə, ev sahibi olmaqla yanaşı, həm də keçmiş və gələcəyin görüşdüyü canlı bir nümunədir. Milyonçuların yaratdıqları memarlıq inciləri forumun gündəliyinə daxil olan dayanıqlı inkişaf və tarixi mirasın qorunması məsələləri üçün vizual sübut rolunu oynayır. Beləliklə, Bakı milyonçularının memarlıq zövqü bu gün şəhərin beynəlxalq miqyasda şəhərsalma paytaxtı kimi tanınmasında təməl daşıdır. 2026-cı ilin Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan edilməsi də bu tarixin mirasının gələcək nəsillərə və dünyaya ötürülməsində yeni bir mərhələdir.

Qeyd edək ki, WUF13-ün hədəflədiyi "canlı və cəlbedici ictimai məkanlar" konsepsiyası Bakıda məhz Hacınski mülkünü və onun qarşısındakı bulvar xəttinin vəhdəti ilə hələ bir əsr əvvəl təməllendirmişdir.

**"Bakıda qədimliklə yenilik, tarixi irsimizin qorunması ilə şəhərsalmanın planlaşdırılması və müasirləşdirilməsi zəruriliyi arasında təbii vəhdət mövcuddur. Bu, həqiqətən, əcdadlarımızın istedadının bariz nümunəsi, tarixi və memarlıq irsimizi necə qoruduğumuzun təzahürüdür".**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

## Hacınskinin evi

Bakıda keçmiş İmperator II Aleksandrın adını daşıyan Sahil küçəsində (indiki Neftçilər prospektində) yerləşən əzəmətli bina 1870-1920-ci illərdə Azərbaycanda ilk neft bumu dövrünün ən parlaq və diqqətəlayiq memarlıq abidələrindən biridir. Bakılıların yaşlı nəsli arasında qeyri-adi Roma-Qotik memarlığı ilə diqqət çəkən bu gözəl köhnə malikanə daha çox Hacınskinin evi kimi tanınır. Məhz bu binada o dövrün memarlığının ən xarakterik xüsusiyyətləri, məsələn, üslubun eklektikliyi, daş üzərində filiqran işi həm bina sahibinin, həm də memarın qeyri-adi təxəyyülünün bəhrəsi idi. Bina bakılı memar İohann Vilhelm Edel tərəfindən layihələndirilmişdi. Mütəxəssislər yazırlar ki, inqilabdan əvvəlki bir çox malikanə kimi, Hacınskinin evini birmənalı şəkildə hər hansı bir memarlıq üslubuna aid etmək çətindir. Bununla belə, inqilabdan əvvəlki Bakının memarlığının füsunkarlığı əhəmiyyətli dərəcədə müxtəlif memarlıq cərəyanlarının planlanmasında və bəzən ötkəm fərdiyyətçiliyində gizlənir.

XX əsrin əvvəllərində Bakının dənizkənarı məhəllələri əsasən bir və ikimərtəbəli idilər. İsa bəy Hacınskinin beşmərtəbəli, üstəlik küncdə erker-qülləli malikanəsi dərhal dominanta çevrilərək kimin kim olduğunu bəyan edir. Onun şəfalı, fəal silueti və həcmli kompozisiyası Bakının tarixi məhəllələrinin strukturunda aparıcı yer tutur. Yaşayış binasının memarlıq həllində əsasən roman memarlığının prinsiplərindən istifadə edilmişdir. Frontonların zirvələrindən yoldan keçənlərə indiyəcən görünməyən mühafizəçilərin başları baxır. Künc erkerin dominant şaqulliliyi və əsas fasadın sıldırımlı frontonu ilə tamamlanan ox sistemi binanın memarlığının həlli üçün "açıq vərəq" rolunu oynayır.

Binanın fasadlarında, modern üslubunda qəbul edildiyi kimi, roman motivləri və gözətçi qüllə və sütunlu Orta əsr qalalarının stilizasiyasının sərbəstliyi hökm sürür. Sərtlik şuxluğa çevrilir. Fasadlarda və pəncərələrin altında estetik və bədii keyfiyyətlərə malik mozaikalar, rəngli vitrajlar, lociyalar, eyvanlar və erkerlər formasında həcmli plastikadan geniş istifadə olunmuşdur.

İsa bəy şəhərə romantik modernizmin gözəl nümunəsini bəxş etmişdir. Onun Qız qalasının yanındakı malikanəsi sanki sahibinin statusu, sosial mövqeyi və nəhəng nüfuzunu əks etdirmək məqsədini güdür. Müxtəlif hündürlükdə yeddi şpil ilə vurğulanan formalarının yüngüllüyü və çəkisizliyi, ən yaxşı ənənələrdə və qədim Assuriya üslubunda mozaika təsvirləri ilə işlənmiş zəngin memarlıq dekoru ilə vəhdətdə ifadəli qüllə şəklində möhtəşəm həll edilmiş künc fasadı az qala fantastik təəssürat yaradır və sanki bizi bir növ nağıl dünyasına aparır. Sahibinin tükənməz təxəyyülü, memarın incə zövqü və icra keyfiyyəti müxtəlif mədəniyyətlərin təsirlərini özündə cəmləşdirməyi və üzvi şəkildə sintez etməyi bacaran sırf Bakı memarlığının əsl şah əsərini yaradır.

Bir vaxtlar İsa bəy Hacınskinin bütün ailəsi bu sarayda yaşayırdı - onun heç də az nəcabətli olmayan Xanlarovlar nəslindən olan həyat yoldaşı Xeyransa xanım, oğulları Sadıq bəy, Əhməd bəy, Əli bəy və qızı Zübeydə xanım.

Bina həm də böyük balların keçirilməsi üçün elə nəzərdə tutulmuşdu ki, uzaqdan gələn çoxsaylı qonaqlar burada bir neçə gün qala bilsinlər. Təəssüf ki, həm ailə malikanəsinin, həm də sahiblərinin tarixi o fırtınalı və bəzən də gözlənilməz dövrə uyğun olaraq dramatik şəkildə inkişaf etdi. Sahil küçəsindəki saraya ciddi ziyan dəyməsi ilə müşaiyət edilən 1918-ci ilin mart faciələri ailədən yan keçmədi. Bundan az sonra, 1919-cu ilin yanvarında İsa bəy Hacınski dünyasını dəyişdi.

Hər bir Bakı malikanəsi arxasında onun keçmişi, sahibləri və onlarla birlikdə bütün dövrün tarixi durur. İsa bəy Hacınskinin sarayı bunun bariz nümunəsidir. Gur çiçəklənmə dövrü keçmiş, erməni daşnakları və bolşeviklərinin qanlı ifratlarını müşahidə etmiş, milliləşdirmə yaşamış bu ev ötən əsrin bütün təlatümlü tarixini özündə cəmləşdirib.

Sevindirici haldır ki, bu gün Hacınskinin evinin fasadı onun görkəmli sakinlərinin və qonaqlarının xatirəsini əbədiləşdirən xatirə lövhələri ilə bəzədilib.

*İradə ƏLİYEVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

## *Kamerundan olan tədqiqatçı:* "Tikintidə iqlimə az təsir edən üsullara üstünlük verilməlidir"

"WUF13 dayanıqlı şəhərlərin gələcəyinin formalaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Şəhərlər insanların yaşadığı əsas məkanlardır və yaşayış evlərinin münasib qiymətə, eyni zamanda keyfiyyətli şəkildə tikilməsi olduqca vacibdir. Əks halda bu, bir sıra problemlərə, xüsusilə də iqlim dəyişikliyi ilə bağlı ekoloji problemlərə səbəb olur".



Bu sözləri AZƏRTAC-a açıqlamasında BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında (WUF13) iştirak edən Kamerundan olan tədqiqatçı Lbe Ltoh deyib.

"Fəaliyyət göstərdiyim Kamerunun Yerli Materialların Təşviqi Agentliyi (MIPROMALO) tikinti üçün ekoloji cəhətdən təhlükəsiz yerli materialların istehsalı ilə məşğuldur. Qurum eyni zamanda Kamerunun müxtəlif iqlim zonalarına uyğun tikinti standartlarının hazırlanması istiqamətində çalışır. Əhali artımı mənzil çatışmazlığını daha da dərinləşdirir və bu da yeni yaşayış evlərinin tikintisini zəruri edir. Yeni tikintilər həyata keçirilərkən ekoloji baxımdan təhlükəsiz və iqlimə mənfi təsiri minimum olan üsullara üstünlük verilməlidir", - deyə o bildirib.

## *Pakistanlı mühəndis:* "Bakının Dənizkənarı bulvar ərazisi ekoloji və davamlı şəhərsalmaya çox gözəl bir nümunədir"

"Gələcək davamlı şəhərlərin qurulmasında "yaşıl həllər"dən geniş istifadə olunmalı, yəni ətraf mühitə mənfi təsirləri minimuma endirən ekoloji şəhərsalma və memarlıq yanaşması tətbiq olunmalıdır. Bakının Dənizkənarı bulvar ərazisinə baxdıqda burada salınmış geniş yaşıllıqlar ekoloji və davamlı şəhərsalmaya çox gözəl bir nümunədir".



Bu sözləri AZƏRTAC-a açıqlamasında BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında (WUF13) iştirak edən Pakistandan olan mühəndis Əli İmran deyib.

O bildirib ki, bu gün bütün dünyada ekoloji cəhətdən dayanıqlı və davamlı şəhərlərin inkişafı üçün mənzil əlçatanlığının təmin olunması da çox vacibdir.

"Şəhərsalma və nəqliyyat isə bir-biri ilə çox sıx bağlı olan mövzulardır. Şəhər nəqliyyatının düzgün idarə edilməsi tıxacların azaldılması, ekoloji vəziyyətin yaxşılaşdırılması və sakinlərin rahatlığı üçün kritik əhəmiyyət daşıyır", - deyə o qeyd edib.

## "Azərbaycanın davamlı inkişaf istiqamətində mühüm rolu var"

"WUF13 dayanıqlı şəhərlərin gələcəyinin formalaşdırılması baxımından mühüm platformadır. Sessiya hökumət, vətəndaş cəmiyyəti və özəl sektor nümayəndələrini bir araya gətirərək həm layihələrin təqdim olunmasına, həm də qarşılıqlı təcrübə mübadiləsinə şərait yaradır".



Bu sözləri AZƏRTAC-a açıqlamasında Kamerundan olan iqtisadiyyat üzrə PhD namizədi və "World Cameroon" təşkilatının rəhbəri Miriam Nakita Bossogueno Aboya deyib. O bildirib ki, tədbir çərçivəsində keçirilən gənclər assambleyası da çox əhəmiyyətlidir. Gənclərin kreativ yanaşmaları gələcək şəhərlərin qurulmasına mühüm töhfə verir.

Kamerun nümayəndəsi əlavə edib ki, Azərbaycanın da davamlı inkişaf istiqamətində mühüm rolu var və bu sahədə əməkdaşlıq xüsusi əhəmiyyət daşıyır.

## HOMA rəhbəri: "WUF13 dayanıqlı şəhərsalma üçün vacib imkanlar təqdim edir"

"Azərbaycana ilk dəfə səfər etməkdən və WUF13-də iştirakdan çox məmnunam. Ölkənizin necə inkişaf etdiyinə və yüksək mədəniyyətə sahib olduğuna heyran oldum".



Bu sözləri AZƏRTAC-a açıqlamasında BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında (WUF13) iştirak edən Böyük Britaniyanın şəhərsalma və infrastruktur şirkəti olan HOMA-nın direktoru Maged Hanna deyib.

O bildirib ki, WUF13 tədbiri müxtəlif ölkələrin bir araya gələrək urbanizasiya, davamlı və dayanıqlı şəhərsalma ilə bağlı fikir və təcrübə mübadiləsi aparması baxımından faydalıdır.

"İnanıram ki, iştirakçı ölkələr WUF13-ün şəhərsalmanın inkişafı və dayanıqlı şəhərlərin qurulması sahəsində göstərdiyi səyləri yüksək qiymətləndirəcəklər və bu tədbir çərçivəsində çox maraqlı müzakirələrin keçiriləcəyinə ümidvaram", - deyə Maged Hanna qeyd edib.

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

Azərbaycan Dəmir Yolları QSC

## "AZƏRBAYCAN DƏMİR YOLLARI" QAPALI SƏHMDAR CƏMİYYƏTİ

### Azərbaycan dəmir yollarının enerji təchizatı, işarəvermə və rabitə sistemlərinin yenidən qurulması (Biləcəri-Yalama) layihəsi Biləcəri-Yalama dəmir yolu hissəsinin enerji təchizatı, işarəvermə və rabitə sistemlərinin yenidən qurulması üçün layihələndirmə və tikinti-quraşdıma işlərinə texniki nəzarət üzrə məsləhət xidmətlərinə (ARESTP-CS-QCBS-01) dair

### MARAQLARIN İFADƏSİ ÜÇÜN DƏVƏT

Azərbaycan Respublikası Hökuməti "Azərbaycan dəmir yollarının enerji təchizatı, işarəvermə və rabitə sistemlərinin yenidən qurulması (Biləcəri-Yalama) layihəsi"nin (Layihə) maliyyələşdirilməsi üçün kredit əldə etmək məqsədilə Asiya İnkişaf Bankına (AİB) müraciət etmişdir. Kredit vəsaitinin bir hissəsi Biləcəri-Yalama dəmir yolu hissəsinin enerji təchizatı, işarəvermə və rabitə sistemlərinin yenidən qurulması ilə bağlı layihələndirmə və tikinti-quraşdıma işlərinə texniki nəzarət üzrə məsləhət xidmətləri müqaviləsi üzrə uyğun ödənişlərin həyata keçirilməsi üçün nəzərdə tutulmuşdur.

Layihə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti (ADY) tərəfindən icra ediləcəkdir.

Layihə ADY-nin beynəlxalq yük daşımalarına xidmət göstərən Azərbaycanın şimal-cənub və şərq-qərb dəmir yolu dəhlizlərinin əsas komponentləri olan Biləcəri-Yalama və Bakı-Böyük Kəsik dəmir yolu hissələri boyunca 25 kV-luq dəyişən cərəyanlı enerji təchizatı, işarəvermə və rabitə sistemlərinin modernləşdirilməsini nəzərdə tutan daha geniş proqramın tərkib hissəsidir.

Proqram çərçivəsində həyata keçirilən ilk layihə, regional yük daşımalarını dəstəkləyən "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi daxilində əsas bağlantı olan Biləcəri-Yalama dəmir yolu hissəsini əhatə edir. Bu hissə təxminən 192 km uzunluğunda ikixətli dəmir yolu xəttindən və 15 stansiyadan ibarətdir. Layihələndirmə mərhələsi də daxil olmaqla, layihələndirmə və tikinti işlərinin təxmini müddəti 42 aydır.

Məsləhət xidmətləri müvafiq yerli qanunvericiliyə və Mühəndis-Məsləhətçilərin Beynəlxalq Federasiyası (FIDIC) tərəfindən nəşr edilmiş "Podratçı tərəfindən layihələndirilən elektrik və mexaniki qurğular, habelə inşaat və mühəndislik işləri üçün Qurğular və Layihələndir-Tik üzrə Müqavilə Şərtləri"nə (Sarı kitab, 2017-ci il, ikinci nəşr, 2022-ci ildə düzəlişlərlə yenidən çap olunmuşdur) uyğun olaraq tikintiyə texniki nəzarət xidmətlərini əhatə edir.

Məsləhət xidmətlərinin əsas məqsədləri:

a) Tikinti-quraşdırma işləri üzrə Podratçı şirkət tərəfindən hazırlanan müfəssəl mühəndisi layihələrin nəzərdən keçirilməsi üzrə iş qrafiki, metod və prosedurları müəyyən etmək; texniki şərtlərin müfəssəl mühəndisi və işçi layihələrdə nəzərə alınmasını təmin etmək;
b) Tikinti işləri üzrə müqavilənin idarə edilməsində "Mühəndis" kimi fəaliyyət göstərmək;
c) Tamamlanmış işlərin keyfiyyətini və həcmini təsdiq etmək də daxil olmaqla, tikinti-quraşdırma işlərinə gündəlik texniki nəzarəti təmin etməkdir.

Tikintiyə texniki nəzarət üzrə məsləhət xidmətlərinin ümumi müddəti 66 ay təşkil edəcək və aşağıdakı mərhələlərdən ibarət olacaqdır:

a) Layihələndirmə və tikinti mərhələsində nəzarət: 42 ay
b) Qüsurların aradan qaldırılması müddətində nəzarət: 24 ay

Maraq ifadəsi üzrə dəvət AİB-in Məsləhətçilərin İdarəetmə Sistemində (CMS) beynəlxalq səviyyədə 19 may 2026-cı il tarixində dərc edilmişdir. Maraq ifadələrinin təqdim edilməsi üçün son tarix 7 iyun 2026-cı ildir.

AİB-in uyğun mənbə ölkələrindən iştirak hüququ olan məsləhətçi şirkətlər öz maraqlarını aşağıda göstərilən link vasitəsilə ifadə edə bilərlər:

**https://selfservice.adb.org/OA_HTML/adb/xxcrs/jsp/ADBCsrnFwd.jsp?sel=222392**

Azərbaycan Dəmir Yolları QSC

## "AZERBAIJAN RAILWAYS" CLOSED JOIND STOCK COMPANY

### Azerbaijan Railways Electrification, Signaling and Telecommunication Project (Bilajari-Yalama)

### REQUEST FOR EXPRESSION OF INTERESTS FOR

### ARESTP-CS-QCBS-01, Construction Supervision Services for the Design and Build Works for the Electrification, Signaling, and Telecommunication of the Bilajari-Yalama Railway Section

The Government of Azerbaijan Republic has applied for a loan from the Asian Development Bank (ADB) to finance the Azerbaijan Railways Electrification, Signaling and Telecommunication Project (Bilajari-Yalama) ("the Project"). Part of the loan proceeds is intended to be used for eligible payments under the contract for construction supervision consulting services for the design and build works for the electrification, signaling, and telecommunication systems of the Bilajari-Yalama railway section.

The Project will be implemented by "Azerbaijan Railways" Closed Joint Stock Company ADY).

The Project forms part of a wider programme to modernize 25 kV AC electrification and signaling and telecommunications systems along the railway sections Bilajari-Yalama and Baku-Boyuk Kesik, which are key elements of Azerbaijan's north-south and east-west rail corridors serving ADY's international freight operations.

This first project under the programme covers the Bilajari-Yalama section, a key link within the International North-South Transport Corridor (INSTC) supporting regional freight transit. The section comprises approximately 192 km of double track and 15 stations. The estimated period for the design and construction works is 42 months, inclusive of the design period.

The consulting services involve construction supervision services in accordance with relevant local legislation and the Conditions of Contract for Plant and Design-Build for Electrical and Mechanical Plant, and for Building and Engineering Works, Designed by the Contractor, published by the International Federation of Consulting Engineers (FIDIC) (Yellow Book, Second Edition 2017, reprinted with amendments in 2022).

The main objectives of the consultancy services are:

a) Establish the schedule, methods, and procedures for reviewing the detailed design prepared by Contractor; ensuring that the technical specifications have been duly accounted for in the detailed engineering design and construction drawings;
b) Function as the "Engineer" in administering the Works contract; and
c) Provide day-to-day supervision of works, including certifying the quality and quantity of the work completed.

The total duration of the construction supervision consulting services will be 66 months and will consist of the following phases:

a. Supervision during design and construction phase: 42 months
b. Supervision during Defects Notification Period (DNP): 24 months

The Request for Expression of Interest was published internationally on ADB's Consultant Management System (CMS) on 19 May 2026. The deadline for the submission of Expression of Interests is 7 June 2026.

Eligible consulting firms from ADB's eligible source countries may express their interest via the link provided below:

**https://selfservice.adb.org/OA_HTML/adb/xxcrs/jsp/ADBCsrnFwd.jsp?sel=222392**

# Ermənistanda seçki rəqabəti: ritorika sərtləşir

**Ermənistanda iyunun 7-də keçiriləcək parlament seçkisi yaxınlaşdıqca, partiyalar arasındakı siyasi mübarizə fərqli müstəviyə keçir. Tərəflər qarşılıqlı ittihamlar irəli sürür, bir-birinin ünvanına açıq şəkildə təhdid və təhqirlər səsləndirirlər. Gərginliyin mərkəzində illərdir Ermənistanı fəlakətə sürükləyən köhnə rejimin qalıqları və onların başında duran sabiq prezident Robert Koçaryan dayanır. Siyasi arenada heç bir real proqramı, gələcək baxışı olmayan revanşist müxalifət öz ritorikasını təhqirlər və cəmiyyəti parçalamaq üzərində qurur.**

Revanşist dairələrin əsas namizədi hesab olunan Robert Koçaryan Baş nazir Nikol Paşinyanın əvvəllər müxalifəti Rusiyanın qulluğunda durduğu üçün "hambal" adlandırmasını xatırladaraq deyib ki, indi əsl "hambal" Paşinyandır. O iddia edib ki, "hambal" sözü hakim partiyada əsas sözlərdən biri kimi qəbul edilir: "Biz deyirik ki, erməniyik, burada doğulmuşuq, burada yaşayırıq. İndi ay hambal, sənin bununla nə problemin var?" Koçaryan iddia edib ki, Paşinyanın "pultu" başqa qüvvələrin əlindədir. Hətta sabiq prezident 2021-ci ildə Paşinyana səs verənləri də qınamaqdan çəkinməyib.

Nikol Paşinyanın Koçaryana sərt reaksiyası özünü çox gözlətməyib. Baş nazir onun partiyasında "hambal" sözünün işləndiyini, lakin bu sözün sırf Koçaryan barəsində istifadə edilən ifadə olduğunu bildirib. O qeyd edib ki, Ermənistanda ayrı-ayrılıqda Robert və Koçaryan ad-soyadı var, lakin bu ad-soyad birləşəndə dönüb "hambal" olur: "Başa düşdünmü, ay hambal?" Hökumət başçısının sözlərinə görə, Koçaryan törətdiyi cinayətlərə görə mütləq həbs olunmalıdır. Baş nazir rəhbərlik etdiyi "Vətəndaş Müqaviləsi" partiyasının seçkilərdə qələbə qazanacağından əmin olduğunu vurğulayıb. Paşinyan iddia edib ki, Samvel Karapetyan, Qaqik Sarukyan, Serj Sarkisyan və Robert Koçaryan iyunun 7-də keçiriləcək parlament seçkilərindən sonra Ermənistandan qaçmaq haqda düşünəcəklər. Baş nazir müxalifətin sülh prosesi ilə bağlı ən iyrənc yalanlar uydurduqlarını söyləyib və Koçaryanla Qaqik Sarukyan və Samvel Karapetyan arasındakı işbirliyini "üçbaşlı müharibə koalisiyası" adlandırıb.

Üçlü koalisiyanın əsas idarəedici qüvvəsi olan və ermənilərin taleyi ilə oynamaqdan çəkinməyən Robert Koçaryan milli kimlik kimi həssas mövzulardan manipulyasiya vasitəsi kimi istifadə edir. Özünün hakimiyyətdə olduğu qanlı dövrləri, Xocalı soyqırımındakı cinayətkar rolunu və 2008-ci il martın 1-də İrəvanda dinc nümayişçiləri güllələbaran etdirdiyini unudan Koçaryan indi topluma "mənəviyyat" dərsi keçməyə çalışır. Onun kilsə arxasında gizlənməsi və 2021-ci ildə Paşinyana səs vermiş milyonlarla insanı az qala xəyanətdə ittiham etməsi, əslində, Ermənistan cəmiyyətinə və xalqın iradəsinə qarşı nifrətinin açıq təzahürüdür.

Nifrət və revanşizm üzərində təşkilatlanan Ermənistan müxalifətinin daxildə heç bir sosial bazası yoxdur. Çünki onlar Ermənistan cəmiyyətinin maraqlarını deyil, xaricdəki ağalarının və sadəcə, öz ambisiyalarını düşünən erməni lobbisinin maraqlarını təmsil edirlər. Xarici güclərdən aldıqları maliyyə və siyasi dəstəklə ölkədə sabitliyi pozmağa, regionda yenidən qan tökülməsinə şərait yaratmağa çalışan bu qüvvələr Cənubi Qafqazda sülh və sabitlik prosesi üçün ən ciddi təhdid mənbəyidir. Onların yeganə hədəfi Ermənistanı daim müharibə və xaos bataqlığında saxlamaqdır ki, bulanıq suda yenidən öz çirkin siyasi məqsədlərini reallaşdıra bilsinlər. Məhz bu səbəbdən erməni cəmiyyətində koçaryanlara, sarkisyanlara etimad demək olar ki, yoxdur. Revanşist qüvvələr anlamaq istəmirlər ki, Ermənistanda insanlar keçmişin korrupsioner rəhbərlərindən birdəfəlik imtina ediblər və onların yenidən hakimiyyətə gəlməsini ölkə üçün böyük təhdid sayırlar.

N.Paşinyanın seçkilərdən sonra müxalifət rəhbərlərinin ölkədən qaçacağını vurğulaması cinayətkar şəbəkənin sonunun yaxınlaşdığının anonsudur. Baş nazirin bu qruplaşmanı "üçbaşlı müharibə koalisiyası" adlandırması tamamilə reallığı əks etdirir. Çünki həmin şəxslər illərboyu ölkəni uçuruma sürükləyən və xalqı yoxsulluğa məhkum edən hərbi xuntanın nümayəndələridir. Ona görə də müxalifətin sülh prosesi ilə bağlı uydurduğu yalanlar, xalqı qorxu və vahimə içində saxlamaq taktikası işə yaramır. Ermənistan cəmiyyətinin böyük qismi dərk edir ki, Robert Koçaryan və onun oliqarx tərəfdaşlarının hakimiyyətə qayıdışı ölkənin tamamilə məhvi və yeni fəlakət deməkdir. Paşinyanın seçkilərdə qələbə qazanacağına əminliyi də bundan qaynaqlanır.



Hazırda Ermənistanda baş verənlər göstərir ki, iyunun 7-də erməni xalqı, sadəcə, qutulara bülleten atmayacaq, eyni zamanda ölkənin gələcək taleyini müəyyənləşdirəcək. Bir tərəfdə regionda çətinliklə də olsa qurulmağa çalışılan sülh prosesi, digər tərəfdə isə xalqı yenidən qan və fəlakət bataqlığına sürükləmək istəyən, xaricdən idarə olunan "üçbaşlı müharibə koalisiyası" dayanıb. Lakin koçaryanların anlamadığı reallıq odur ki, tarixin təkərini geriyə fırlatmaq mümkün deyil. Regionda yaranmış yeni geosiyasi reallıqlar geriyə dönməz xarakter alıb. Koçaryan kimilərin və digər revanşist qüvvələrin İrəvan meydanlarında pafoslu çıxışlarından, seçki şoularından asılı olmayaraq, Ermənistanın daxili siyasi çəkişmələri Azərbaycanın diktə etdiyi böyük reallığı dəyişdirə bilməz. Azərbaycan öz gücü, qətiyyəti, hərbi-siyasi zəfəri ilə regionun gələcək xəritəsini cızıb. Ermənistandakı siyasi oyunbazlar bu reallıqla barışmaq məcburiyyətindədirlər. Çünki regionun gələcəyini köhnə rejimin tör-töküntülərinin xəyalları yox, Bakının qətiyyətli iradəsi müəyyən edir.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

## Məsud PEZEŞKİAN:

# "Müharibənin nəticələri uzunmüddətli struktur islahatları tələb edir"



İran Prezidenti böhran şəraitində davamlı iqtisadi siyasətə və sosial dəstəyin artırılmasına ehtiyac olduğunu bildirib. O, ABŞ və İsrailin zərbələri nəticəsində başlayan müharibənin yaratdığı iqtisadi və sosial problemlərin müvəqqəti tədbirlərlə həll edilə bilməyəcəyini, bunun uzunmüddətli və struktur siyasət həllərini tələb etdiyini deyib.

IRNA agentliyinin məlumatına görə, Əmək və Sosial Rifah Nazirliyinin nümayəndələri ilə görüşdə Pezeşkian müharibənin nəticələrinin hədəf proqramlar vasitəsilə idarə olunmasının, davamlı məşğulluğun genişləndirilməsinin və sosial dəstək mexanizmlərinin gücləndirilməsinin vacibliyini vurğulayıb.

Görüşdə işçilərin əməkhaqqı, təqaüdçülərin gəlirləri, əmək bazarının vəziyyəti və işsizlik müavinətləri barədə hesabatlar təqdim edilib. Nazirliyin nümayəndələri müharibə şəraiti səbəbindən bir sıra istehsal və xidmət sektorlarında itkilər barədə məlumat veriblər və işçilərə, qulluqçulara və aztəminatlı qruplara dəstək tədbirləri təqdim ediblər.

Hesabatları şərh edən Pezeşkian bildirib: "Müharibənin nəticələrini aradan qaldırmaq üçün ehtiyatlı, sistemli və uzunmüddətli yanaşma ilə hərəkət etməliyik". O, təkcə müvəqqəti iqtisadi tədbirlərin yetərli olmadığını vurğulayıb: "Bəzi mövcud tədbirlər zəruri olsa da, onlar, sadəcə, müvəqqəti yardımdır. İqtisadi və sosial problemlərin əsas səbəblərini aradan qaldırmaq üçün struktur və davamlı planlar lazımdır".

İran Prezidenti həmçinin müharibə nəticəsində didərgin düşmüş insanlar üçün daimi iş yerlərinin yaradılmasının vacibliyini vurğulayaraq planlaşdırmanın işsizlik müavinətləri ilə məhdudlaşmamalı, həm də davamlı iş yerlərinin yaradılmasına yönəlməli olduğunu bildirib. O, dövlət qurumlarında istehlak vərdişlərinin yenidən nəzərdən keçirilməsinə çağırıb və tullantıların azaldılmasının vacibliyini vurğulayıb. Pezeşkian həmçinin əhalini su, elektrik enerjisi, qaz və yanacağa qənaət etməyə, ictimai nəqliyyatdan istifadəni artırmağa və inzibati xərclərin azaldılmasına çağırıb. Prezident həmçinin aşağıgəlirli vətəndaşlar üçün elektron qida paylama sisteminin davam etdirilməsini dəstəkləyib və yardımın əhalinin ən həssas təbəqələrinə yönəldilməli olduğunu bildirib.

Sonda Məsud Pezeşkian müvafiq strukturlara iqtisadi və sosial göstəricilərin müntəzəm monitorinqinin keçirilməsi və departamentlər arasında koordinasiyanın gücləndirilməsi barədə tapşırıqlar verib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

## AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
## AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ
### 2026-cı il üçün fəlsəfə doktoru hazırlığı proqramı üzrə doktoranturaya
### QƏBUL ELAN EDİR

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə Doktorantura Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla o cümlədən əyani | qiyabi | Ödənişli əsaslarla hazırlıq üzrə illik təhsil haqlarının məbləği (manatla) |
|---|---|---|---|---|---|
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Riyaziyyatın tədrisi metodikası) | 2 | 1 | 1 (SDU üçün məqsədli yer) | 4000 |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Fizikanın tədrisi metodikası) | 2 | | 2 (SDU üçün 1 məqsədli yer) | 4000 |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Kimyanın tədrisi metodikası) | 1 | 1 | | 4000 |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (İnformatikanın tədrisi metodikası) | 1 | 1 | | 4000 |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Azərbaycan dilinin tədrisi metodikası) | 1 | 1 | | 4000 |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (İngilis dilinin tədrisi metodikası) | 1 | 1 | | 4000 |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Tarixin tədrisi metodikası) | 1 | 1 | | 4000 |
| 5802.01 | Təhsilin təşkili və planlaşdırılması | 4 | 1 | 3 (ETN üçün 2, BMU üçün 1 məqsədli yer) | 4000 |
| 5803.01 | Müəllim hazırlığı və fəaliyyəti | 1 | 1 | | 4000 |
| 5804.01 | Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi | 3 | 1 | 2 (SDU üçün 1 məqsədli yer) | 4000 |
| 5805.01 | Korreksiya pedaqogikası | 1 | 1 | | 4000 |
| 6104.01 | Pedaqoji psixologiya | 1 | 1 | | 4000 |
| | **Cəmi:** | **19** | **11** | **8** | |

Doktoranturaya sənəd qəbulu "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" (TİMS) vasitəsilə elektron qaydada 19 may - 9 iyun 2026-cı il tarixlərdə həyata keçiriləcək. Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin **portal.edu.az** saytına daxil olmalı və qeydiyyatdan keçməlidirlər. Fəlsəfə fənni üzrə imtahanların 1-3 sentyabr, ixtisas imtahanlarının 8-10 sentyabr 2026-cı il tarixlərdə keçirilməsi nəzərdə tutulmuşdur. Qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

- ✓ Rektorun adına ərizə;
- ✓ Kadrların şəxsi qeydiyyat vərəqi;
- ✓ Tərcümeyi-hal;
- ✓ 2 ədəd fotoşəkil (3x4 ölçüdə);
- ✓ İş yerindən xasiyyətnamə;
- ✓ İş stajı olanlar üçün əmək kitabçasından çıxarış;
- ✓ Elmi rəhbərin razılıq məktubu;
- ✓ Çap olunmuş elmi əsərlərin siyahısı (və ya fəlsəfə doktoru proqramı üzrə seçilmiş ixtisas üzrə referat və referata rəy);
- ✓ Ali təhsil müəssisəsini bitirmək haqqında diplomun (bakalavriat və magistratura təhsil səviyyələri üzrə diplomların surətləri və diplomlara əlavə) müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması barədə şəhadətnamə);
- ✓ Şəxsiyyəti təsdiq edən sənədin surəti.

QEYD: Xarici dildən imtahanın 25 iyun 2026-cı il tarixdə Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilməsi nəzərdə tutulmuşdur. Qəbul komissiyası tərəfindən doktoranturaya qəbul olunmaq istəyən şəxslərin sənədləri yoxlanılır və ixtisas uyğunluğu müəyyən edilir. Doktoranturaya qəbul olunmaq istəyən şəxslər tələb olunan sənədləri portala yüklədikdən sonra sənədlərini kağız daşıyıcılarda ADPU-nun Magistratura və doktorantura şöbəsinə təqdim etməlidirlər.

**Əlaqə tel.: (+99412) 493-05-85, 465-81-53.**
**Ünvan: Bakı şəhəri, AZ1072, Akademik Həsən Əliyev küçəsi, 104.**
**http://adpu.edu.az/**

***Rektorluq***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutu (indiki Bakı Slavyan Universiteti) tərəfindən Mehriban Soltan qızı Məmmədovanın adına verilmiş 33293 qeydiyyatlı, AB-I 039736 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

# Qlobal iqlim dəyişikliyi təbiətin ritmini pozur

Son dövrlər dünyada müşahidə olunan qeyri-sabit hava şəraiti, temperaturun yüksəlməsi və intensiv yağıntılar qlobal iqlim dəyişikliyinin təsirlərini daha aydın şəkildə üzə çıxarır. Bir çox regionda olduğu kimi, Azərbaycanda da hava hadisələrinin xarakterində ciddi dəyişikliklər müşahidə edilir. Əvvəllər daha uzunmüddətli və nisbətən zəif yağıntılarla müşayiət olunan mövsümlər indi qısa müddətdə yağan leysan xarakterli yağışlarla əvəzlənir. Bu isə subasma, sel, sürüşmə və məhsuldarlığın azalması kimi problemlərə səbəb olur.



Mütəxəssislər hesab edirlər ki, intensiv yağıntıların artması təsadüfi deyil və bunun arxasında həm qlobal istiləşmə, həm də regional atmosfer prosesləri dayanır. Atmosferdə istixana qazlarının çoxalması Yer kürəsinin temperaturunu yüksəldir, nəticədə buxarlanma sürətlənir və havada daha çox rütubət toplanır. Toplanan bu rütubət müəyyən hava şəraiti formalaşdıqda qısa müddətdə güclü yağış şəklində yerə düşür. Son illər dünyanın müxtəlif ölkələrində baş verən təbiət hadisələri bu prosesin qlobal xarakter daşıdığını göstərir.

### Atmosferdə dəyişən balans və intensiv yağıntıların səbəbləri

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən ekoloq Cəmşid Bəxtiyarın sözlərinə görə, iqlim dəyişiklikləri artıq yalnız gələcək üçün ehtimal olunan təhlükə deyil, gündəlik həyatda hiss edilən reallığa çevrilib. Atmosferdə karbon emissiyalarının artması temperaturun yüksəlməsinə gətirib çıxarır və bu proses su dövranını dəyişdirərək yağıntıların intensivliyinə birbaşa təsir göstərir.

"Qlobal istiləşmə nəticəsində havanın temperaturu artdıqca buxarlanma prosesi sürətlənir. Daha isti hava isə daha çox rütubət saxlamaq qabiliyyətinə malik olur. Atmosferdə yığılan bu əlavə rütubət müəyyən meteoroloji şəraitdə yağış şəklində geri qayıdır və nəticədə leysan xarakterli intensiv yağıntılara gətirib çıxarır. Əvvəllər müəyyən zaman intervalında düşən yağıntı indi daha qısa müddətdə və daha böyük həcmdə müşahidə edilir. Bu dəyişiklik təkcə yağışın miqdarında deyil, həm də onun paylanma formasında özünü göstərir. Uzunmüddətli və zəif yağışların yerini qısamüddətli, lakin çox güclü yağıntılar tutur. Belə hava hadisələri isə xüsusilə şəhərlərdə və dağlıq ərazilərdə ciddi problemlər yaradır", - deyə ekoloq qeyd edib.

Atmosferdə baş verən digər dəyişikliklər də intensiv yağıntıların yaranmasına təsir edir. Mütəxəssis bildirib ki, son illərdə meridional hava axınlarının güclənməsi, siklon aktivliyinin artması və Yer səthinin daha çox isinməsi konvektiv leysanların formalaşmasına əlverişli şərait yaradır. Bu proses zamanı isti və rütubətli hava kütlələri sürətlə yüksələrək soyuyur və qısa müddətdə böyük həcmdə yağış əmələ gəlir: "İqlim dəyişikliyi yalnız güclü yağışlarla deyil, həm də əks proseslərlə - uzunmüddətli quraqlıqlarla da özünü göstərir. Bəzi dövrlərdə normadan artıq yağıntı müşahidə olunursa, digər vaxtlarda uzun müddət yağış yağmır. Bu isə iqlim sistemində tarazlığın pozulmasının əsas göstəricilərindən biridir. Qütb zonalarında baş verən dəyişikliklər, hava axınlarının istiqamətinin dəyişməsi və iqlim qurşaqlarının sürüşməsi uzunmüddətli perspektivdə regionlarda yağıntı rejiminə təsir edir. Son aylar dünyanın müxtəlif ölkələrində müşahidə olunan hava fəlakətləri də bu dəyişikliklərin miqyasını göstərir. Pakistan və Əfqanıstanda güclü yağışlar insan itkilərinə səbəb olub, Yunanıstanda yaşayış məntəqələri su altında qalıb. Braziliyada və Aralıq dənizi hövzəsində baş verən daşqınlar böyük əraziləri əhatə edib. Rusiyanın bəzi bölgələrində, o cümlədən Dağıstanda da oxşar hadisələr qeydə alınıb".

Cəmşid Bəxtiyar hesab edir ki, müharibələr və partlayışlar kimi faktorlar əsasən lokal təsirlərə malikdir və qlobal iqlim dəyişikliklərinin əsas səbəbi sayıla bilməz. Bununla belə, meşələrin məhv edilməsi, torpaq örtüyünün zədələnməsi və atmosferə əlavə qazların buraxılması uzunmüddətli ekoloji problemlərin dərinləşməsinə səbəb olur.

### Leysan yağışlar qlobal iqlim dəyişikliyinin nəticəsi kimi qiymətləndirilə bilər

May ayında intensiv yağışların müşahidə olunmasının yaşadığımız ölkə üçün qeyri-adi hadisə olmadığını bildirən ekoloqun sözlərinə görə, son illərdə davam edən quraqlıq yaz mövsümündə insanlarda belə bir təsəvvür yaradıb ki, yaz aylarında güclü yağışlar region üçün xarakterik deyil: "Halbuki əvvəllər yaz mövsümü məhz daha rütubətli və yağışlı keçirdi, hətta bu proses bəzən iyunun əvvəlinə qədər davam edirdi. Bu il müşahidə olunan hava şəraiti müəyyən mənada ənənəvi iqlim xüsusiyyətlərinə dönüş kimi də qiymətləndirilə bilər. Şimaldan gələn soyuq hava kütlələri ilə cənubdan daxil olan isti və rütubətli hava axınlarının toqquşması region üzərində intensiv buludlaşma və yağıntı yaradır. Böyük Qafqaz sıra dağları isə rütubətli havanın yüksələrək soyumasını sürətləndirir və nəticədə yağışların intensivliyi artır. İlin bu dövründə yağışların yağması normal hal sayılsa da, əsas məsələ onların intensivliyidir. Əgər yağıntılar norma çərçivəsində düşərsə, bu, təbii iqlim prosesi hesab olunur. Lakin son dövrlərdə müşahidə edilən leysan xarakterli güclü yağışlar artıq ənənəvi göstəricilərdən kənara çıxır və bu, qlobal iqlim dəyişikliyinin nəticəsi kimi qiymətləndirilə bilər".

Böyük Qafqazın dağətəyi zonalarında, Quba, Qusar, Şamaxı və Şabran ərazilərində leysan yağışlar sel və daşqın riskini artırır. Ekoloq qeyd edib ki, güclü yağıntılar torpaq qatının yuyulmasına, sürüşmələrin baş verməsinə və infrastrukturun zədələnməsinə səbəb olur: "Kənd təsərrüfatı da bu prosesdən ciddi şəkildə təsirlənir. Mülayim yağışlar məhsuldarlıq üçün faydalı olsa da, intensiv yağıntılar torpağın münbit qatını yuyaraq onun keyfiyyətini aşağı salır. Torpağın uzun müddət nəm qalması bitki köklərinin çürüməsinə, havalanmanın zəifləməsinə və nəticədə məhsuldarlığın azalmasına gətirib çıxarır. Bununla yanaşı, dağlıq ərazilərdə otlaq sahələrinin həddindən artıq istifadəsi eroziya prosesini sürətləndirir. Güclü yağışlar zamanı torpaq daha asan yuyulur və bu da sürüşmə riskini artırır. Meşələrin bərpası, eroziyaya qarşı mübarizə və torpaqdan düzgün istifadə bu problemlərin qarşısının alınmasında mühüm rol oynaya bilər".

Su idarəçiliyi də əsas prioritetlərdən biri kimi qiymətləndirilir. Cəmşid Bəxtiyarın sözlərinə görə, yağış sularının toplanması və təkrar istifadəsi üçün sistemlərin yaradılması gələcəkdə həm daşqın riskinin azalmasına, həm də su ehtiyatlarının qorunmasına kömək edə bilər. Su anbarlarının artırılması, "ağıllı su idarəetmə texnologiyaları"nın tətbiqi və çay yataqlarının nəzarətdə saxlanılması bu sahədə vacib addımlar hesab olunur. Ekspert həmçinin qeyd edir ki, çay yataqlarında tikinti materiallarının çıxarılması və qeyri-qanuni müdaxilələr daşqın riskini daha da artırır. Buna görə də çay hövzələrinin qorunması və ekoloji nəzarətin gücləndirilməsi vacib məsələlərdən biridir. Kənd təsərrüfatında isə iqlimədavamlı bitkilərin seçilməsi, suvarma sistemlərinin təkmilləşdirilməsi və torpaq qoruyucu texnologiyaların tətbiqi xüsusi əhəmiyyət daşıyır. Bu tədbirlər həm məhsuldarlığın qorunmasına, həm də torpaqların deqradasiyasının qarşısının alınmasına xidmət edir.

Mütəxəssisin fikrincə, intensiv yağıntılar artıq təkcə təbii hadisə kimi deyil, qlobal iqlim dəyişikliklərinin birgə nəticəsi kimi qiymətləndirilməlidir. Gələcək risklərin azaldılması isə yalnız fövqəladə hallara reaksiya verməklə deyil, uzunmüddətli planlaşdırma, ekoloji balansın qorunması və dayanıqlı infrastrukturun qurulması ilə mümkün olacaq. Azərbaycanda müşahidə olunan intensiv yağıntılar bir daha göstərir ki, iqlim dəyişiklikləri artıq uzaq gələcəyin problemi deyil, bu günün reallığıdır və ona uyğunlaşmaq qaçılmaz zərurətə çevrilib.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# "Qarabağ" fransalı futbolçu ilə 3 illik müqavilə imzalayıb

2026/2027-ci illər mövsümünün transfer çalışmalarına start verən "Qarabağ" ilk futbolçu keçidini gerçəkləşdirib.




AZƏRTAC klubun rəsmi saytına istinadən xəbər verir ki, fransalı vinger Jali Muaddiblə 3 illik müqavilə imzalanıb. Tibbi müayinədən keçən 25 yaşlı futbolçu 2029-cu ilin yayına qədər "Qarabağ"da çıxış edəcək. O, komandada 7 nömrəli formanı geyinəcək. Jali Muaddibin son klubu Kipr təmsilçisi "Omoniya" (Aradipou) olub. O, karyerası ərzində Fransada "Lill" və "Anje"nin B komandalarında, həmçinin "Avranş"da, Rumıniyada "Botoşani"də çıxış edib.

Qeyd edək ki, Jali Muaddib Fransanın U-19 milli komandasının formasını geyinib.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimliyə əzizi
**ZAKİR ABBASOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Sədrəddin və Səyyəddin Atakişizadələr, Mirqiyas Kazımov, Azər Baxışov, Əlikram Qasımov, İlham İbrahimov, Rafiq Hüseynov və Hidayət İsmayılov "Körpü-Bina-Tikinti" MMC-nin sədri Xəlil Göyüşova anası
**PƏRİ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 538-35-55
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60, 434-55-58
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 3816
Sifariş 652
Qiyməti 60 qəpik